www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9 dekabr 2014-cü il Çərşənbə axşamı № 300 (6009) Qiymıəti 40 qəpik

**Xəbər**

## Hərbçilərimiz minaya düşdü; ölən var

yazısı səh.2-də

**Gündəm**

### Vəhhabizmə qarşı savaş ritorikası niyə dayandı - şok iddia!



Din sahəsində yeni gəlişmələr; vəhhabilərin himayədarları hökumətin radikallara qarşı kampaniyasını dayandırmağa nail olublar, Şeyx isə ətrafını gücləndirmək üçün gənc ruhaniləri işə cəlb edir

yazısı səh.13-də

### Rusiya Qarabağ siyasətinə korrektələrə hazırlaşır?

Kremlin Azərbaycana yeni reveranslarının, Ermənistana isə göz ağartmasının səbəbi

yazısı səh.11-də

### Xədicə İsmayılı tutduran gənc "Yeni Müsavat"a danışdı

yazısı səh.6-da

### Məzahir Pənahov əhalinin seçkiyə gəlməyəcəyindən narahatdır

yazısı səh.12-də

### Tofiq Yaqubludan müxalifətə yeni mesajlar

yazısı səh.3-də

### Müsavata yeni üzvlər qəbul edildi

yazısı səh.2-də

### Müxalif düşüncənin xilasına son cəhd

yazısı səh.8-də

### "Naxtel" niyə dördüncü mobil operator ola bilmədi?

yazısı səh.15-də

### Əli İnsanovu əfvlə azad etmək istəyirlər

yazısı səh.4-də

### Efirdə "şpaqat" açmaq doğrudurmu? - ekspert danışdı

yazısı səh.14-də

### Bakıda fotoqrafçılıq sahəsini də monopoliyaya alıblar

yazısı səh.15-də

### Bu həftə iqtidar-müxalifət dialoqu baş tuta bilər

yazısı səh.2-də

## Rəsmi Bakı Qərblə niyə savaşır?

# İQTİDARLA ABŞ ARASINDA GƏRGİNLİYİN ÜÇ SENSASİON SƏBƏBİ

Azərbaycan 2015-ci ilin seçki ilinə iqtidarın tam nəzarəti ilə daxil olur: vətəndaş cəmiyyəti institutlarının, müxalifətin isə bu qədər zəif olduğu bir dönəm son 10 ildə ilk dəfədir ki, yaşanır; rəsmi Bakı sanki gələn il gözlənilə biləcək fırtınaya hazır adamları xatırladır: qapı-pəncərələr mıxlanıb, bərkitmə işləri aparılıb, hətta qorunmaq üçün "səngərlər" də qazılıb...



yazısı səh.9-da

## Xədicə İsmayılın işində şok detallar, yeni təfərrüatlar

"Yeni Müsavat" mövzuya dair sensasion bilgilər əldə edib; jurnalisti tutduran Tural Mustafayev evli və 2 uşaq atası olub; Əli Həsənov: "Baş Prokurorluğun açıqlaması onun həbsində hər hansı siyasi motivi istisna edir"

yazısı səh.3-də



*Mehman Əliyev:*

### "Qərbin Azərbaycandakı durumla bağlı təpkisini müşahidə etmədim"

yazısı səh.5-də



Əli Şəfiyev

### Nazir müavini böyük narkotranzit yollarından danışdı

yazısı səh.12-də



### "İqbal Ağazadə Ramiz Mehdiyevə cavab yazdı

yazısı səh.7-də

**9 dekabr 2014**

# Arif Hacılı hollandiyalı diplomatlarla görüşdü



**Müsavat Partiyasının başqanı Arif Hacılı Hollandiyanın Azərbaycandakı səfirliyində bu ölkənin Xarici İşlər Nazirliyinin Avropa və Şərq Tərəfdaşlığı ölkələrində xüsusi nümayəndəsi Dirk Jan Kop, Hollandiyanın səfiri Robbert J.Qabriyelse və səfirin müavini Özlem Canellə görüşüb.**

Görüşdə Avropa və Şərq tərəfdaşlığı üzrə Proqramın indiki mərhələdə durumu, Azərbaycanda demokratiya və insan haqları sahəsindəki vəziyyət, o cümlədən siyasi məhbuslarla bağlı məsələlər müzakirə edilib.

Görüşdə həmçinin regionun hazırkı geopolitik durumu, Qarabağ problemi və digər məsələlər haqqında fikir mübadiləsi aparılıb.

# Fikrət Məmmədov hakimləri cəzalandırdı



**Məhkəmə-Hüquq Şurasının (MHŞ) növbəti iclası keçirilib. APA-nın məlumatına görə, MHŞ sədri Fikrət Məmmədovun sədrliyi ilə keçirilən iclasda ölkədə aparılan məhkəmə islahatının nəticələri qeyd edilib. Tədbirdə insanların məhkəmə prosesləri barədə dərhal məlumatlanması, məhkəməyə çatımlılığın və çəkişmə prinsipinin təmin edilməsi məqsədilə hazırlanmış yeni Elektron Məlumatlandırma Sisteminin təqdimatı keçirilib.**

Qeyd edilib ki, sistem vasitəsilə proses iştirakçılarına məhkəmə iclasları barədə məlumatlar "SMS bildiriş" formatında dərhal göndəriləcək, hakimlərin müxtəlif dövlət orqanlarına sorğuları onlayn rejimdə cavablandırılacaq.

İclasda icraatda olan intizam işlərinə baxılaraq, vətəndaşların hüquqlarının həyata keçirilməsinə süni maneələr törətməklə korrupsiyaya şərait yaradan hallara yol verdiklərinə, qanunvericiliyi və etik normaları, habelə icra intizamını kobud şəkildə pozduqlarına görə 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin hakimi Qurban Abbasovun tutduğu vəzifədən azad olunaraq başqa işə keçirilməsi, həmin məhkəmənin hakimləri Fəqan Əhmədov və Şərafət Məmmədovaya töhmət verilməsi, məhkəmənin sədri Müseyib Hüseynova irad tutulması barədə qərarlar qəbul edilib, digər məhkəmələrdə keçirilmiş yoxlamalar nəticəsində bu kimi hallara yol vermələri aşkar edilmiş 3 hakim barədə intizam icraatları başlanılıb, məhkəmələrdə monitorinqlərin bundan sonra da davam etdiriləcəyi vurğulanıb.

# Hərbçilərimiz minaya düşdü; ölən var

**Müdafiə Nazirliyi həbçilərimizin minaya düşməsi ilə bağlı məlumat yayıb. "Qafqazinfo"ya nazirlikdən daxil olan məlumata görə, hərbi maşının minaya düşməsi nəticəsində 1980-ci il təvəllüdlü, Qazax rayonundan hərbi xidmətə çağırılmış Silahlı Qüvvələrimizdə müddətdən artıq həqiqi hərbi xidmət keçən hərbi qulluqçu kiçik çavuş Qurbanov Qoşqar Məqsəd oğlu həlak olub.**

Digər müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Şahvələdov Eşqin Alı oğlu isə yaralanıb. Yaralı əsgərə ilkin tibbi yardım göstərildikdən sonra hərbi tibb müəssisəsinə təxliyyə edilib. Hazırda əsgərin vəziyyəti kafidir, o, həkimlərin nəzarəti altındadır.


## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


## Başsağlığı

**Milli Strateji Düşüncə Mərkəzinin sədri İsa Qəmbər Səbayel rayon təşkilatının Şura üzvü**
**Zakir Sadıqovun**
**vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.**

***

**Müsavat Partiyasının başqanı Arif Hacılı və partiyanın Divan üzvləri Zeynalov Vəzirə və yaxınlarına əmisi**
**Zeynalov Şəfayət Həmid oğlunun**
**vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

***

**Müsavat Partiyasının başqanı Arif Hacılı və partiyanın Divanı Səbayel rayon təşkilatının Şura üzvü**
**Zakir Sadıqovun**
**vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.**

# Rauf Mirqədirovun məhkəməsi təxirə salınıb

## Yadigar Sadıqovun karantin müddəti başa çatır; ailəsi Nemət Pənahlı ilə görüşüb; müsavatçı qardaşların isə istintaqı dondurulub

**Siyasi motivlərlə həbs olunan dustaqlarla bağlı yeni xəbərlər var. Müsavat başqanının müavini Fərəc Kərimli və qardaşı Sirac Kərimli ilə bağlı istintaq hərəkətləri demək olar ki, dondurulub. Bu barədə musavat.com-a qardaşların vəkili Nemət Kərimli məlumat verdi: "Siracın səhhətində yaranan problemlər davam edir. Kəskin ürək ağrıları var.**

Təcridxanada dərmanlar verilsə də, xeyri yoxdur. Öz hesabına digər müəssisədə müayinədən keçmək üçün müstəntiqə və təcridxananın rəisinə müraciət etmişəm. Təəssüf ki, heç bir reaksiya yoxdur. Bununla bağlı ötən həftə Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndəsi ilə görüşdüm. Ombudsmana da müraciətim var. Kömək edəcəklərini bildiriblər. Onlar barədə heç bir istintaq hərəkətləri aparılmır. Fərəclə bağlı müstəntiq istintaq hərəkəti istəyir. Ola bilsin ki, üzləşmə yaxın günlərdə olacaq. Siracla bağlı ümumiyyətlə istintaq hərəkəti yoxdur".

**Müsavat başqanının həbsdəki digər müavini Tofiq Yaqublunun da vəkili olan Nemət Kərimli onun məhkəməsi ilə bağlı bunları dedi:** "Tofiq bəyin işindən Ali Məhkəməyə şikayət verilib. İşə baxılma bir müddət çəkəcək".

Müsavat başqanının həbsdəki daha bir müavini Yadigar Sadıqov 1 saylı Bakı İstintaq Təcridxanasına köçürülüb. Onun karantin müddəti dekabrın 9-da başa çatacaq. Yadigar Sadıqovun Hüquqlarını Müdafiə Komitəsinin sədri Elman Fəttah onunla bağlı məlumat əldə edə bilmədiklərini söylədi.



**"Ayna- Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirovun dekabrın 8-nə təyin olunan məhkəməsi bu günə təxirə salınıb. Məhkəmə barədə vəkil Elmar Süleymanov bunları dedi:** "Məhkəməyə MTN-in İstintaq Təcridxanasının rəisinin əvəzinə başqa adam gəlmişdi. Onun təqdim etdiyi etibarnamə qanunvericiliyə uyğun olmadığına görə, müdafiə tərəfi buna öz etirazını bildirdi. Məhkəmə qərara aldı ki, proses bir gün sonraya təxirə salınsın".

Hüquq müdafiəçisi Rəsul Cəfərovun işindən Avropa Məhkəməsinə edilən müraciət isə qeydə alınıb. Bu barədə onun hüquqi nümayəndəsi Günay İsmayılova məlumat verdi.

**AMDP sədri Nemət Pənahlının ailəsi 3 aydan sonra nəhayət onunla görüşüb. Qobustanda saxlanılan tanınmış məhbusun həyat yoldaşı Həcər Pənahlı onun əl və ayaqlarının şişdiyini söylədi: "Normal görüş oldu. Sadəcə, Qobustanda qaydalar başqa cürdür. Üzbəüz görüşə imkan verilmir. Buc uşaqların psixologiyasına ciddi təsir etdi. Qərara gəldim ki, bir daha uşaqları aparmayım. Aralıdan Neməti bizə göstərirdilər. Qışqıra-qışqıra danışırdıq. Böyük adam yenə anlayır. Azyaşlı uşaqların anlaması çətindir. Oğlumun vəziyyəti çox pisləşdi. Göz baxa-baxa günahsız insanın bu vəziyyətə salınması sadəcə acınacaqlıdır. Şəkəri çox yüksəlib. Əl və ayaqları şişib. Görən kimi hiss etdim. Otaqda idman etmək üçün şərait belə yoxdur. Bizdən əl və ayaqlarını tərpətmək üçün idman ləvazimatları istədi".**

**Dekabrın 8-də gənc siyasi məhbus Orxan Əyyubzadənin anası Rəhimə Məmmədova təcridxanada onunla görüşüb. O, oğlunun səhhətinin düzəldiyini bildirib:** "Əvvəllər Orxanın sağlamlığında qorxulu dərəcədə problemlər vardı. Amma indi səhhətinə uyğun şərait yaradılıb. Təcridxana rəhbərliyindən razılığını bildirdi. Müalicəsi davam edir".

❑ Cavanşir ABBASLI

# Bu həftə iqtidar-müxalifət dialoqu baş tuta bilər

## Təşəbbüs Demokratiya və İnsan Haqları Mərkəzindən gəlsə də, formatın genişlənəcəyi ehtimalı böyükdür

**"Yaxın günlərdə iqtidar-müxalifət dialoqunun reallaşacağı gözləniləndir. Bizim qənaətimiz belədir ki, bu həftə görüş və danışıq mümkün ola bilər". Bu sözləri "Yeni Müsavat"a açıqlamasında Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Mirəlioğlu müvafiq suala cavab verərkən deyib.**

Yada salaq ki, bir müddət öncə Demokratiya və İnsan Haqları Mərkəzi ölkədəki daxili siyasi durum və insan haqlarının vəziyyəti ilə bağlı hakimiyyətə dialoq təklif edib. Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov dialoq təklifi ilə bağlı açıqlamasında iqtidarın dialoq məsələsinə müsbət yanaşdığını bildirib.

KXCP sədri Mirmahmud Mirəlioğlu onu da bildirib ki, görüşün formatına dəyişikliklər də mümkündür: "Təşəbbüsü irəli biz sürmüşük. Ancaq bu təşəbbüsə qoşulmaq istəyənlər olacaqsa, şübhəsiz bu təkliflər nəzərə alınacaq".

Hakimiyyətə yaxın qaynaqlar da "Yeni Müsavat"a açıqlamalarında iqtidar-müxalifət dialoqunun baş tutacağı ehtimalını təsdiqləyiblər.

❑ Aygün MURADXANLI

# Qulu Məhərrəmlinin yeni kitabının təqdimatı oldu



**İki təhsil ocağı - Bakı Dövlət Universiteti və Slavyan Universitetinin jurnalistika fakültələrinin tələbələri istəkli müəllimləri, ustad jurnalist, professor Qulu Məhərrəmlinin 60 illiyi münasibətilə xüsusi videoçarx hazırlayıblar. Jurnalistikanın həyatımızdakı önəmindən bəhs edən həmin çarx "Dəmirçi Plaza"da keçirilən yubiley toplantısında nümayiş etdirilib və iştirakçıların alqışları ilə qarşılanıb. Tələbələrin təqdimatında yubilyarın həyat və fəaliyyətinə aid foto-stend və müəllifi olduğu kitabların sərgisi də bəyənilib.**

"Üç nöqtə" qəzetində dərc olunan materialda bildirilir ki, yubiley toplantısında çıxış edən millət vəkili əməkdar jurnalist Elmira Axundova Qulu Məhərrəmlinin Azərbaycan mediasına, televiziya sənətimizə misilsiz xidmətlərindən və onun jurnalistika elmimizə verdiyi töhfələrdən danışıb.

Görkəmli ədəbiyyatşünas alim, professor Nizaməddin Şəmsizadə, professor Alxan Məmmədov, filologiya elmləri doktoru Nəsiman Yaqublu jurnalistikamızın fəxri hesab etdikləri Qulu Məhərrəmlinin yüksək peşəkarlığını, parlaq mənəvi keyfiyyətlərini qeyd etməklə yanaşı, onun jurnalistikamızda yeni istiqamətin əsasını qoymuş elmi əsərlərindən də bəhs ediblər.

Qulu Məhərrəmli ilə uzun illər televiziya sahəsində birgə çalışmış Prezident təqaüdçüsü, respublikanın xalq artisti, rejissor Vasif Babayev və əməkdar jurnalist Ələkbər Abbasov yubilyarın telepublisistikamızın inkişafındakı xidmətlərini, onun reportyorluq, siyasi şərhçilik və redaktorluq fəaliyyətini qeyd ediblər. BDU-nun Televiziya və radio jurnalistikası kafedrasının müdiri, dosent Aynur Kərimli, pedaqoji elmlər namizədi Zemfira Məhərrəmli, BSU-nun Yeni media kafedrasının müdiri, dosent Aynur Bəşirli, jurnalistika fakültəsinin tələbəsi Günel Hacı da öz çıxışlarında Qulu müəllimi görkəmli jurnalist, elmə yeni düşüncə gətirən alim və mahir pedaqoq kimi səciyyələndiriblər.

Toplantıda yubilyarın vaxtilə AzTV və «Xəzər» telekanallarında apardığı verilişlərdən fraqmentlər göstərilib. Sonda professor Qulu Məhərrəmlinin Rafiq İsmayılovla birlikdə hazırladığı və "Altunkitab" nəşriyyatında yenicə çapdan çıxmış "Məktəblinin alınma sözlər" izahlı lüğətinin təqdimatı olub.

# Müsavata yeni üzvlər qəbul edildi

**Dekabrın 8-də Müsavat Partiyasının Divanının növbəti iclası keçirilib. Divanda qərarların icrası və görülən işlər barədə məlumat verilib.**

Divan üzvü Gülağa Aslanlı Astara və Cəlilabad rayon təşkilatlarının keçirdikləri toplantılar və Lənkəran şəhərində Yadigar Sadıqovun oğlunun ad günü münasibətilə onun ailəsi ilə görüşü barədə məlumat verib.

Yığıncaqda Nəsimi rayon təşkilatında müvəqqəti sədr seçilməsi, Binəqədi rayon təşkilatında hesabat-seçki yığıncağı, Səbayel rayon təşkilatında hesabat-seçki yığıncağının keçirilməsi ilə bağlı Təşkilat Komitəsinin yaradılması ilə bağlı məlumatlar dinlənilib.

Müsavat Partiyasına yeni üzvlər qəbul edilib.

Partiyanın 2015-ci il üçün Fəaliyyət Proqramının layihəsinin ilkin müzakirəsi başlanılıb.

Toplantıda bələdiyyə seçkilərində qanun pozuntuları, bu seçkilərdə müşahidənin təşkili ilə bağlı məsələ müzakirə olunub.

Ölkə üzrə partiyanın fəaliyyətinin səmərəliliyini artırmaq və rayon təşkilatları ilə əlaqələri gücləndirmək məqsədilə Divan üzvləri və müavinlərdən ibarət kuratorlar müəyyənləşdirilib.

İnsan hüquqlarının müdafiəsi ilə bağlı "Siyasi məhbuslara azadlıq!" şüarı ilə 14 dekabr 2014-cü il tarixdə saat 15.00-da "Məhsul" stadionunda keçiriləcək mitinqlə əlaqədar görülən işlər müzakirə olunaraq, müvafiq qərarlar qəbul edilib.

Divanda Milli Məclis tərəfindən qəbul edilən 2015-ci il dövlət büdcəsi haqqında məsələ müzakirə olunaraq, onun hakimiyyətin təbliğ etdiyi kimi sosial yönümlü yox, daha çox korrupsiya yönümlü, neftin dünya bazarında qiymətindən asılı olduğu üçün riskli büdcə olduğu xüsusi vurğulanıb. Müsavat Partiyası büdcənin dövlət həyatı üçün mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, yenidən parlamentin müzakirəsinə qaytarmağı tələb edib.

Daha sonra Azərbaycanda insan haqlarının sistemli şəkildə pozulması, siyasi məhbusların sayının günbəgün artması, bu barədə beynəlxalq birliyin və ictimaiyyətin çağırışlarına məhəl qoyulmaması pislənilib, bunun ölkəmiz üçün ağır nəticələrə səbəb olacağı bir daha bəyan edilib.

Sonda cari məsələlərə baxılıb.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 300 (6009) 9 dekabr 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Avropanın İrzəsi, İmirzəsi...

(Bu yazını redaksiyamıza Tofiq Yaqublunun vəkili Nemət Kərimli təqdim edib)

**Eşitmişəm ki, vicdan məhbuslarından Leyla Yunusun və İntiqam Əliyevin səhhətlərində ciddi problemlər yaranıb. Onların şərlənərək heç bir əsas olmadan həbs edildiklərini ayrıca yazmağa ehtiyac görmürəm. Çünki "vicdan məhbusu" ifadəsi adamın qırmızı-qırmızı şərlənərək həbsə atıldığını göstərir. İqtidar bu adamları həbsdən azad etmək istəmir. Beynəlxalq təzyiqlər gücləndikcə bunlar da həyasızlıqlarını artıraraq, müqavimət göstərirlər. Baxırsan ki, deputat-meputatlar, prokuror-murokurorlar, qeheteçi-meheteçilər (qonqoçular), nə bilim kimlər qanunun aliliyindən, qanun qarşısında hamının bərabər olmasından gəvəzələyirlər... Azərbaycanda siyasi məhbusun olmadığını demək, adamdan göydə günəşin olmadığını demək qədər həyasızlıq tələb edir. Və bunu da çox rahatca deyirlər, özü də xorla.**

Bir gün Müsəllim gəlib Xəzəngül arvaddan balta istəyir. Arvad da təzəcə itilədib-ovxarlatdığı baltanı heç vermək istəmirmiş. Odur ki, boynunu büküb məlul-məlul onun üzünə baxan Müsəllimə deyir: "Bıy xalan ölsün, baltanı sənə necə verim, bu iş təkcə mənlik deyil ha! Bunun İrzəsi, İmirzəsi də var". Müsəllim də başa düşür ki, Xəzəngül arvad sadəcə olaraq baltanı vermək istəmir. Verməmək üçün də qoyun novatına getmiş İrzəni (Rza) və qonşu kənddən ayaqqabı almağa getmiş İmirzəni (Mirzə) bəhanə edir. İstəsəydi qaldırıb verərdi, oğlanlarının evdə olmaması bəhanədir.

Bax, ölkə rəhbərliyinin vicdan və siyasi məhbusların həbsdən azad edilməsi haqda ölkə dışından gələn xahiş, minnət, üzvurma və tələblərə cavabı da eyzən Xəzəngül arvadın Müsəllimə verdiyi cavab kimi olur. Guya ki, bunun məhkəməsi, istintaqı-zadı varıymış. Pah atonnan!

Bəli, iş o yerə gəlib çatıb ki, mövcud iqtidar onu çox sanballı şəkildə ifşa edən bu insanların təkcə hüquqlarının, azadlığının əlindən alınmasına qane olmur, istəyir ki, onların canlarını da alsın. Gedişat belə göstərir. Bunlar başa düşmək istəmirlər ki, Leyla Yunusla İntiqam Əliyevin vəziyyətləri ağırlaşdıqca, ölkənin də vəziyyəti ağırlaşır.

Öz vəziyyətlərini yüngülləşdirmək istəyirlərsə, onların vəziyyətlərini yüngülləşdirməlidirlər. "Biz heç kimdən qorxmuruq", "bizə heç kəs diktə edə bilməz", "insan haqları məsələsi Azərbaycana təsir üçün bəhanədir" və s. ritorikası heç kəsi inandıra bilmir. Necə ki, deyirlər, neftin qiymətinin ucuzlaşmasının bizə heç bir ziyanı yoxdur. Buna kim inana bilər? Əvvəl barelini 115 dollara satdığın məhsulu, indi 70 dollara satmağa məcbursan, bu necə ziyanlı olmaya bilər? Bu, bilirsiniz nəyə bənzəyir? Elə bil acı bibəri yeyirsən və məcburiyyət qarşısında "çox şirindir" deyib, ağzını mırçıldadırsan. Deputat-meputatlar, prokuror-murokurorlar, qeheteçi-meheteçilər, zahidlər-mahidlər, ziyafətlər-miyafətlər və s. ölkədə siyasi məhbus yoxdur deyəndə, onların nə dediklərinə yox, üz cizgilərinə diqqət yetirin. Zəhrimara qalmış acı istiot yaman pis yandırır...

Sonuncu dəfə Avropa Parlamentinin sədri Martin Şultsun Azərbaycandakı siyasi məhbuslar, konkret olaraq Leyla Yunus haqqında danışması bunları yenə də böyük porsiyada acı bibər yeməyə məcbur edib. Amma iş təkcə cənab Şultsla bitmir ki. Avropanın da o qədər İrzəsi, İmirzəsi var ki...

# Xədicə İsmayılın işində şok detallar, yeni təfərrüatlar

"Yeni Müsavat" mövzuya dair sensasion bilgilərə çıxıb; jurnalisti tutduran Tural Mustafayev evli və 2 uşaq atası olub; **Əli Həsənov:** "Baş Prokurorluğun açıqlaması onun həbsində hər hansı siyasi motivi istisna edir"

**AzadlıqRadiosunun əməkdaşı, araşdırmaçı jurnalist Xədicə İsmayılın həbsi ilə bağlı sirr pərdəsi yavaş-yavaş çözülür. Keçmiş iş yoldaşı, yaxın dostluq münasibətlərində olduğu Tural Mustafayevi "intihar həddinə çatdırması" iddiası ilə barəsində 2 ay müddətinə həbs-qətimkan tədbiri seçilən jurnalistlə bağlı əməliyyatın arxasından maraqlı detallar üzə çıxır.**

Öncə T.Mustafayevin keçmiş nişanlısı Rövşanə Rəhimlinin "Meydan TV"yə verdiyi müsahibə ilə bağlı iddialarına aydınlıq gətirək. Tural Mustafayev daha öncə sosial şəbəkədə elan etmişdi ki, R. Rəhimlinin müsahibəsi təhrif olunub və müsahibə SMS vasitəsilə götürüldüyü üçün məzmunu dəyişdirilib, orada redaktələr edilib. Həmin müsahibədə isə R.Rəhimli T.Mustafayevlə ayrılmalarına sonuncunun psixoloji problemlərinin səbəb olduğunu demişdi.

**Sözügedən müsahibənin müəllifi, "Meydan TV" ilə əməkdaşlıq edən tanınmış jurnalist Aynur Elgünəş "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, T.Mustafayevin keçmiş nişanlısından aldığı müsahibədə heç bir təhrif yoxdur:** "Rövşanə xanım mənə 6-cı gün səhər zəng elədi. Xədicə İsmayıl tutulmuşdu artıq. Dedi ki, bir xəbər var, onun "Meydan"da getməsini istəyir. Özü ilə danışdım, sonra mənə mesaj da yazdı. Ondan soruşdum ki, Turalla Xədicə İsmayıla görə ayrılmısız? Dedi, "əlbəttə yox. Psixoloji və maliyyə problemlərimiz var idi". Amma xahiş etdi ki, onunla bağlı açıqlamada Xədicənin adını çəkməyim. Mən də çəkmədim".



Rövşanə Rəhimli dekabrın 8-də "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, müsahibədə yazılanlar həqiqəti əks etdirir. O, T. Mustafayevin bu barədə dediklərini şərh etmək istəmədi və bu barədə mətbuata heç bir açıqlama verməyəcəyini dedi. Onun sözlərinə görə, istintaqda bu mövzu ilə bağlı hər hansı açıqlama verməyəcəyi yönündə iltizam verib.

Bu arada "Yeni Müsavat" Tural Mustafayevlə bağlı ciddi bilgilər də əldə edib. Məlum olub ki, bu şəxsin son iş yerlərindən biri ann.az saytı olub. Bundan başqa, o, cumhuriyyet.info və publika.az saytları ilə də əməkdaşlıq edib. Ötən ilin martından sonra T.Mustafayev 3 yerdə işləyib. Onun qısa müddət ANS TV-də çalışması da yayılan məlumatlar sırasındadır. Hətta qısa müddət öncəyə qədər bu, onun facebook profilində də əks olunmuşdu.

"Meydan TV"yə isə T.Mustafayev 3 aylıq layihə çərçivəsində cəlb olunub. Layihənin müddəti bitdikdən sonra onun oradan uzaqlaşdığı bildirilir. Xatırladaq ki, sözügedən layihənin rəhbəri Emin Milli artıq bununla bağlı məlumat yayıb. O, bəyanatında deyib ki, T.Mustafayev "Meydan TV" ilə əməkdaşlıq etdiyi aylarda işinə laqeyd yanaşdığı, verilən tapşırıqları lazımınca yerinə yetirmədiyi, dəfələrlə iş etikasını pozduğu, həmçinin psixoloji baxımdan qeyri-adekvat addımlarına görə işdən uzaqlaşdırılıb.

**Amma T.Mustafayevin şəxsi həyatındakı ilginc detalları AXCP üzvü Kəmalə Bənəniyarlı facebook profilində paylaşıb. K.Bənəniyarlı son statuslarından birində belə yazır:** "Tanınmış jurnalistin üzünə balasına aliment verməyən birini dirəndirdilər. Həm də dəlixanadan yenicə çıxmış birini. Uşağına aliment verməyən Xədicənin üzünə dirənir. Xədicənin üzünə duran Turalın avqust ayının 8-də rəsmi nikahı pozulub .Onun 13 yaşında oğlu var. Göyçay icra məmurları onu məhkəməyə çağırıb alimentlə bağlı. Tural məhkəməyə gedəndə şəxsiyyət vəsiqəsi olmayıb. Çünki onun şəxsiyyət vəsiqəsi dəlixanada qalıb. Tural oğluna aliment verməkdən boyun qaçıraraq icra məmurlarına "nə bacarırsınızsa edin" deyərək oradan çıxıb. Çox güman ki, dəlilik kağızına güvənirmiş".

T.Mustafayevin yaxın zamana qədər rəsmən evli və 2 uşaq atası olması faktını vaxtilə birgə çalışdığı iş yoldaşları, həmçinin dostları da təsdiqlədilər. Və onlar bu məsələdə iki versiyanın olmasına inanırlar. **1.** Tural Mustafayev həqiqətən də öyrədilərək, xüsusi sifarişlə Xədicə İsmayılın yaxınına yerləşdirilib, daha sonra yönləndirilib. **2.** O, intihar edəndən sonra evində aparılan baxış zamanı *(intihar hadisəsi baş verəndən sonra adətən polislər "qurban"ın yaşadığı evə baxış keçirirlər)* şəxsi yazışmaları, dostluğunda olan şəxslərin kimliyi müəyyənləşdirib və bundan onun dostluğunda olan X.İsmayıla qarşı istifadə ediblər.

**T.Mustafayev sosial şəbəkədəki statusunda "susmur". Onun son statusu aşağıdakı kimidir:** "Hakimiyyəti tərk edən edənin dalınca yüyürür müxalifətə. Siz ilk öncə öz dünya görüşünüzə müxalif olun. Yoxsa kimsə hakimiyyəti söyür müxalifətçidir, bizim adamdır, amma iç üzünüz açıldıqca məlum olur ki, nə haqq, nə ədalət. İşiniz ancaq kiminsə pulunu sayıb - hesablamaq, üzlərinə deyə bilmədiklərinizi arxasınca qışqırmaqdır. Müxalifətdə hərənin özünün kiçik bir "kruqu" var. Biri haqqını tələb edən kimi it sürüsü kimi ancaq hücum çəkməyi bilirsiniz. Mən sizləri bu iki ildə tanıdım, yaxından və uzaqdan. İndi gedin mən yaşadığım yerdən mənim haqqımda öyrənin görün hansımız kişi kimi yaşamışıq. Mən heç vaxt müxalifətdə, ya da iqtidarda olmamışam. 50 ilin siyasi fahişələri indi çıxıb siyasi sifariş olduğunu deyir. Kimin kim olduğunu insanlar yaxşı tanıyır, əl qatmayın özünüzə..."

Sözügedən statusun altında şərh yazanlardan biri isə T.Mustafayevə o məlum sualı verib: "Nə qədər pul almısan?"

T.Mustafayevin o suala cavabı isə "anlayışınız elə bu qədərdi. Doğal haqqını istəmək satqınlıq sayılırsa daha sizlərdən nə gözləyək..." olub.

"AzadlıqRadiosunun əməkdaşı Xədicə İsmayılova konkret cinayət əməlində şübhəli bilinib və məhkəmənin qərarı ilə həbs olunub". Bu sözləri "AzərTAc"a açıqlamasında Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov bildirib.

**Ə.Həsənov deyib:** "Baş Prokurorluğun açıqlaması onun həbsində hər hansı siyasi motivi istisna edir. Buna görə də bəzi yerli və xarici dairələrin, təşkilatların məsələ ilə bağlı səsləndirdikləri bəyanatlar qərəzlidir, əsassızdır və bir mərkəzdən idarə olunan proses təəssüratı bağışlayır. Düşünürük ki, bu siyasiləşmiş bəyanatlar həm də hüquq-mühafizə orqanları tərəfindən Azərbaycan qanunvericiliyinə uyğun olaraq bu işlə bağlı obyektiv istintaqın həyata keçirilməsinə təzyiq xarakteri daşıyır.

Hüquqi, demokratik dövlət olan Azərbaycanda bütün azadlıqlar, o cümlədən söz və məlumat azadlığı, hər bir vətəndaşın sərbəst şəkildə öz fikirlərini ifadə etmək hüququ tam təmin edilib. Azərbaycanda mövcud qanunlar çərçivəsində fəaliyyətinə, siyasi baxışlarına, fikirlərinə görə heç bir jurnalist həbs olunmur və bundan sonra da həbs olunmayacaq».

«Mənə elə gəlir ki, bu yolla insanı həbs etmək çox gülüncdür. Mənə də bu inandırıcı görünmür, yerli-dibli uydurmadır».

**Yazıçı Əkrəm Əylisli X.İsmayılın həbsinə münasibət bildirərkən belə deyib. Yazıçıya görə, belə bir ittihamla jurnalisti həbs etməklə hüquq-mühafizə orqanları düşüncəsizlik ediblər:**

«Həbsin motivi bütün cəmiyyətə, Azərbaycan xalqına bəllidir. Hamı bilir ki, Xədicənin həbsi onun jurnalist fəaliyyəti ilə bağlıdır. Buna bir kəsdə bir damla olsun belə şübhə yoxdur. Bu cür addım atmaq düşüncəsizlikdir. Adama qəribə gəlir ki, ciddi insanlar necə belə bir şey edir. Məndə acınacaqlı təəssürat yaranır».

Yazıçı ümid edir ki, işin istintaqı ədalətli aparılacaq və jurnalist tezliklə azad olunacaq.

**Hadisə haqqında Tural Mustafayev "Yeni Müsavat"a eksklüziv müsahibə də verib.**

❑ Sevinc TELMANQIZI



# Əli Kərimlini niyə "alan" yoxdur?

Elşad MƏMMƏDLİ
elshad1978@mail.ru

**Əli Kərimli və başındakı bir neçə nəfərdən ibarət dəstə sakitləşmək, abrına qısılmaq istəmir. AXCP adlı partiyanın siyasi fəaliyyəti xeyli vaxtdır ancaq "Yeni Müsavat" qəzetini şərləməyə yönəlib. Biz də bu adamların böhtanlarına cavab veririk, şər qüvvədən müdafiə olunuruq.**

Əslində qaragüruha zaman sərf etmək heç ürəyimizcə deyil, daha ciddi işlərlə məşğul olmağı uyğun bilirik. Üstəlik, onsuz da məhkəməyə müraciət etmişik və onsuz da bu adamlar iddialarını məhkəmədə sübut etmək məcburiyyəti ilə üzləşəcəklər. Fəqət, adamların bu böhtanlarını da cavabsız buraxmaq olmur. Ha çalışırıq daha bunlara baş qoşmayaq, amma elə hərəkətlər edirlər ki, tərəfimizdən ifşa olunmaları zərurətə çevrilir. Vəziyyət o yerə çatıb ki, "Azadlıq" qəzetinin şənbə sayında "Yeni Müsavat"a, onun baş redaktoruna, kollektivinə hədyan dolu 7 məqalə həsr edilib. Bundan əvvəlki sayda isə 6 yazı dərc olunub. Dünənkində daha 3... Bu məqalələrin bəzilərini AXCP sədri Əli Kərimli özü yazır. Həyasızlıqları o yerə çatıb ki, Əli Kərimlinin "Azadlıq"dakı müridlərindən olan, xəstəxanaların birinin baş həkimindən şantaj yolu ilə pul qoparmağa çalışan "yazar" da öz zəhməti ilə dolanan kollektivimizə qarşı nalayiq, əslində özünün və liderinin layiq olduğu ifadələri işlədib...

Gedişat onu göstərir ki, adamlar əndazəni aşırlar; "Azadlıq"ın son üç sayında üst-üstə "Yeni Müsavat"a qarşı 16 yazı həsr etmək, hamısını da Əli Kərimlinin özünün layiq olduğu təhqiramiz ifadələrlə "zənginləşdirmək" bütün ölçüləri itirmək anlamına gəlir. Biz elə hesab edirdik ki, Nazim Sabiroğlunun, Zabil Müqabiloğlunun, Zahid Səfəroğlunun, Xalid Kazımlının, mənim kollektivimizdən əl çəkmələrinə dair son yazılarımızdan sonra Ə.Kərimlinin dəstəsi özünə yığışar, bir nəticə çıxarar. Amma bunlar tamamilə tərsini edir və nə qədər gülməli (və ağlamalı) olsa da, məhz onlar kimi düşünməyimizi, Kərimlinin maraqlarına uyğun yazıb-pozmağımızı tələb etməkdə israrlıdırlar. Ay adamlar, biz qətiyyən sizin kimi düşünə bilmərik, bizim özümüzün düşüncələrimiz sizdən sağlamdır, mütərəqqidir, sağlamdır və xalqa daha faydalıdır. İkincisi, biz ağı qaradan seçməyi bacarırıq, Əli Kərimlinin məqsədinin nə olmasından da xəbərdarıq *(Onun məqsədinin nə olması haqda az sonra danışacağıq)*. Biz siyasi təşkilat deyilik, firqə qəzeti deyilik, bütövlükdə hamının oxuya biləcəyi, müstəqil, Qərb dəyərlərinə uyğun çap mediası kimi çalışmaq istəyirik. Qəzetin işi zatən budur. Əgər bizim yazdıqlarımız sizin missiyanıza uyğun deyilsə, qələmimizdən çıxanlardan xoşlanmırsınızsa və mozaxist deyilsinizsə, oxumayın "Yeni Müsavat"ı və musavat.com-u. Nə özünüzə əzab verin, nə də bizə "niyə belə yazırsınız" kimi düşük suallar verməyin, maraqlarınıza uyğun olmayan yazılarımıza görə bizə böhtan da atmayın. Gedin, siz öz işinizlə məşğul olun, biz də öz işimizlə məşğuluq. Hər kəsə Allah öz tutduğu, doğru hesab etdiyi yolda kömək olsun.

Yox, əgər siz bütün siyasətinizi "Yeni Müsavat"ın yazıları və qəzetimizi şərləmək üzərində qurmaqda, böhtanlar yağdırmaqda, mənasız təftişçilikdə davam edəcəksinizsə, deməli məqsədiniz başqadır. Bu xətti davam etdirməklə, "zopa siyasəti"ni gündəmdə saxlamaqda maraqlı olduğunuzu bir daha ortaya qoymuş olursunuz. Bununla - bütün ictimai-siyasi yüklü qüvvələrə "satılmışlar" damğasını vurmaqla, Əli Kərimlinin "müxalifətin əsas siması" (!) obrazını formalaşdırmaqla nəyə nail olmaq istədiyinizi guya kimsə bilmir? Məqsəd, daha dəqiqi, qəzəbinizin səbəbi odur ki, iqtidar niyə Əli Kərimlini saymır, onu "almaq", onunla əməkdaşlıq etmək istəmir. Hazırda belə bir mənzərədir; sanki iqtidar səxavət kisəsini açıb hər kəsə pul paylayır, 2015 seçkilərində mandat hazırlayır, Əli Kərimli yada düşmür və bu da bərk qeyzlənir, hirsini bizdən çıxır ki, siz olmasanız mənə verərdilər o paraları və mandatı. Birbaşa AXCP sədrinin özünün qələmindən çıxan yazılarda bununla bağlı iqtidara dolayısı ilə dəfələrlə "bizi satın alın, biz daha yaxşıyıq" çağırışlar edilib...

Yoldaşlar, başa düşürük ki, Əli Kərimli "siyasi alver" qaydalarını 1995-ci ildən üzü bu yana tam mənimsəyib, indiki oyunbazlıqları da həmin ənənənin davamıdır. Amma lütfən, bu hoqqabazlıqlarınızı "Yeni Müsavat"ı şərləmək hesabına həyata keçirməyin. Bu cəhdlərinizi anındaca ifşa edirik və edəcəyik...

Əgər satılmağa startda dayanmış Əli Kərimlini iqtidar satın almaq istəmirsə, bunda bizim günahımız yoxdur, bizim üzərimizə böhtan atmayın...

# Partiya sədri Əli Kərimliyə keçmişi xatırlatdı

## Əhməd Oruc: "Hakimiyyətlə bazarlıq etməyin əsasını məhz onlar qoyublar"

**AXCP sədri Əli Kərimlinin ətrafındakı bir sıra şəxslər hakimiyyətlə dialoq tərəfdarı olanları iqtidarla siyasi bazarlığa getmək və deputat mandatı payı almaq istəyinə düşənlər olduğunu bəyan edirlər. Vaxtaşırı belə təbliğat aparılır ki, dialoq tərəfdarı olanlar həqiqi müxalifət deyillər, ölkədə yeganə müxalifət partiyası AXCP-dir.**

Dialoq tərəfdarı olan müxalif təşkilatlardan **Azadlıq Partiyasının sədri Əhməd Oruc** isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, AXCP-nin özünü yeganə müxalifət partiyası kimi təqdim eləməsi həm həqiqətə uyğun deyil, həm də AXCP-nin bu gün yürütdüyü xəttə, ölkənin maraqlarına ziddir: "Həqiqətə ona görə uyğun deyil ki, hamı bilir Azərbaycanda 1993-cü ildən sonra real müxalifətçilik mövqeyindən sapıb hakimiyyətlə bazarlığa gedən məhz Əli Kərimlinin rəhbərlik etdiyi AXCP, şəxsən Əli Kərimli olub. Hakimiyyətlə bazarlıq etməyin əsasını məhz onlar qoyublar. Bu, təkzibolunmaz faktdır. Bu fakt Əli Kərimlinin siyasi tərcümeyi-halına elə yazılıb ki, silinməsi mümkün deyil. Heydər Əliyevin hakimiyyəti dövründə məhz bu bazarlaşmanın nəticəsində 10 il parlamentdə oturub. Bu, razılaşma, siyasi alver olmadan mümkün deyildi. Xatırlayırsınızsa, Əli Kərimlini də, İlham Əliyevi də o zamanlar gənc islahatçılar olaraq təbliğ edirdilər. Özü də bu təbliğat AXCP-yə yaxın mediada gedirdi. Sonra AXCP Heydər Əliyevə xəyanət sayılan hərəkətə yol verdi. Necə ilər hakimiyyətin hər cür dəstəyi ilə yaşayan AXCP və onun sədri 2000-ci ildə Etibar Məmmədovu müdafiə etməklə bağlı öz üzərinə rəsmi öhdəlik götürdü. Məhz buna görə Əli Kərimli və partiyası Heydər Əliyevin qəzəbinə gəldi, Heydər Əliyev, eləcə də İlham Əliyev bu addımı xəyanət olaraq qəbul etdilər. Hakimiyyət illərdir bəslədiyi adamın, təşkilatın etibarsızlığını gördü və onu dışladı. Bunların "müxalifətçiliyi" belə olub".



Əhməd Oruc

**Ə.Oruc vurğuladı ki, ölkəyə ən müxtəlif təhdidlərin olduğu bir vaxtda dialoq təşəbbüsündə bulunanlara "saxta müxalifət" yarlığının yapışdırılması, radikal siyasətin yürüdülməsi absurddur:** "Mən və rəhbərlik etdiyim partiya həqiqi müxalifət partiyasıdır və heç kimin əlində bir dənə də olsun fakt ola bilməz ki, Əhməd Oruc hakimiyyətlə nə vaxtsa işbirliyində olub, bazarlığa gedib, demokratik düşərgənin zərərinə addımlar atıb. Mən və partiyamız heç vaxt hakimiyyətlə oyunda olmamışıq. Hakimiyyətlə illərlə oyunda olanların indi özlərindən başqa heç kimi müxalifət hesab etməmələri absurddur və gülüncdür. İndi bizim bir qədər loyal davranışımız, onların isə radikal çıxışları o demək deyil ki, biz müxalifət deyilik, onlar yeganə müxalifət partiyasıdır. Mənim və əməkdaşlıq etdiyimiz digər bir sıra partiyaların dialoq tərəfdarı kimi çıxış eləmiyimiz milli maraqlardan irəli gələn məsələdir. Biz hesab etmirik ki, ölkə daxilində hakimiyyətlə müxalifət arasında radikal qarşıdurma, Leyla Yunusun, Xədicə İsmayılın həbsi dövlətə və xalqa xeyir gətirir. Qətiyyən xeyir gətirmir. Hakimiyyətin diktaturaya meyllənməsi də dövlətə, xalqa sərf etmir. Buna görə də biz qarşıdurmanın, radikal əhval-ruhiyyənin əleyhinəyik, dialoq mühitinin yaranmasının ölkəmiz üçün vacib olduğuna əminik. Qarşıdurmalar olan ölkələrdə nələr yaşandığını, hansı problemlərin olduğunu necə vaxtdır görürük. Kimlərsə "yeganə müxalifət mənəm" deyib radikallıqla ölkəmizə həmin problemləri yaşatmaq istəyirsə, bizə belə müxalifətçilik gərək deyil. Mən ona görə hesab edirəm ki, bu gün AXCP-nin yürütdüyü siyasət səhvdir, zərərlidir. Bunun ən pis acı nəticələrini AXCP özü görəcək. Azərbaycanın indiki vəziyyətdən çıxması üçün mütləq dialoq lazımdır. Necə olur ki, Əli Kərimliyə yaxın olan dairələr, məsələn, Batumidə ermənilərlə dialoqda iştirak edirlər, ermənilərlə əməkdaşlıq edirlər, amma öz daxilimizdə dialoq təşəbbüsündə bulunanları satqın adlandırırlar? Bu nə yanaşmadır?! Məncə, bu gün AXCP dünyadakı böyük oyunun peşkası səviyyəsində oynayır. Hakimiyyət daxilindəki dialoq əleyhdarları da eyni ilə. Biz həmin qüvvələrin də, Əli Kərimlinin də yürütdüyü siyasətin ölkəmiz üçün müsbət nəticəsinin olmadığını dərk elədiyimizdən deyirik ki, bu siyasəti dayandırın. Azərbaycan cəmiyyətində kəskin qarşıdurma olmasını istəmirik. Əslində ölkə üçün ən lazımlı müxalifətçilik budur".

**Ə.Oruc onu da dedi ki, bu gün Ə. Kərimli də müxalifətdədir, ancaq yürütdüyü siyasi kurs düzgün deyil, Azərbaycanın maraqlarını nəzərə almır:** "Demokratik resursları daraldıb hamını şantaj eləməklə, hər kəsi satqın elan etməklə müxalif düşərgənin dağıdılmasının, gözdən salınmasının qəti əleyhinəyəm. Qarşıdurmanın sonu yoxdur, perspektivi görünmür".

❑ **Etibar SEYİDAĞA**

# Əli İnsanovu əfvlə azad etmək istəyirlər

## Sabiq nazirin Yeni ili azadlıqda qarşılaması mümkündür

**2016-cı il oktyabrın 19-da sabiq səhiyyə naziri Əli İnsanovun cəza müddəti bitir. Onu 2005-ci ildə dövlət çevrilişinə cəhd ittihamı ilə tutublar. Sabiq nazir sonradan iqtisadi cinayətlərdə təqsirli bilinərək 11 il müddətinə azadlıqdan məhrum edilib. O zaman Ə.İnsanovla birgə tutulan eks iqtisadi inkişaf naziri Fərhad Əliyev, onun qardaşı, "Azpetrol" şirkətlər qrupunun prezidenti Rafiq Əliyev, keçmiş maliyyə naziri Fikrət Yusifov və digərləri əfvlə azad ediliblər.**

Hazırda Əli İnsanov siyasi motivlərə dəmir barmaqlıqlar arxasına salınan ən stajlı məhbusdur. Oktyabrın 19-da həbsinin 9-cu ili tamam olan sabiq nazir hakim partiya - YAP-ın qurucularındandır. 2013-cü il martın 14-də Ə.İnsanovla bağlı qərarını açıqlayan Avropa İnsan Hüquqları Məhkəməsi sabiq nazirin işgəncə və ədalətli məhkəmə hüququ üzrə iddialarını təmin edib. Qərara əsasən, Azərbaycan hökuməti Ə.İnsanova 10 min avro kompensasiya da ödəməlidir. Ötən ilin noyabrında Ali Məhkəmə Ə. İnsanovun işinə dair Bakı Apelyasiya Məhkəməsi və Ali Məhkəmənin qərarlarını ləğv edib. İşə dair Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmənin qərarı dəyişdirilməyib və araşdırılmaq üçün Bakı Apelyasiya Məhkəməsinə göndərilib. Məhkəməsi zamanı Ə. İnsanov onu öldürmək istəyən qüvvənin olduğunu bəyan edib. Məhkəmə sabiq nazirə barəsində olan hökmün dəyişdirilmədən saxlanılması qərarını açıqlayıb. Ə.İnsanov bu qərara "məni sındıra bilməyəcəksiniz" nidası ilə reaksiya verib. Bu il noyabrın ortalarında sabiq nazirin ölkədən getmək şərti ilə azad ediləcəyi haqda növbəti dəfə xəbər yayılıb. Bu dəfə onun Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində veriləcək əfv fərmanı ilə azad ediləcəyi bildirilir. Bu haqda "Yeni Müsavat"a daxil olan məlumatda deyilirdi ki, 9 siyasi məhbusun əfvə düşəcəyi gözlənilir. Yaxınlarından onların əvəzindən əfv ərizəsi alınıb. Bu şəxslər arasında Ə.İnsanovun yaxınının olub-olmaması bilinmir. Hakimiyyət sabiq səhiyyə naziri Ə. İnsanovu da azad etmək istəyir. Lakin nazir onun yanına gələn elçiləri qəbul etməyib. Hüquq müdafiəçisi Sahib Məmmədov sabiq nazirlə bağlı yayılan məlumatları şərh edərkən demişdi ki, Ə. İnsanov barəsində heç bir qərar qəbul etmək mümkün deyil: **"O, nə vaxtından əvvəl şərti azad olunmaq üçün məhkəməyə şikayət verir, nə də əfv üçün müraciət edir. Bu hüquqi prosedurlardan ən azı biri olmalıdır ki, Əli İnsanovun məsələsinə baxılsın. Olmadığı halda, onunla bağlı hökumət nə qərar qəbul edə bilər ki?"**



Əli İnsanov

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 300 (6009) 9 dekabr 2014

**Azərbaycanla Qərb dairələri arasında son aylar yaşanan gərginliklər hələ ki səngimək bilmir. Ən maraqlısı budur ki, münasibətlərin indiki durumunda da vəziyyətin yaxşılığa doğru dəyişəcəyini təxmin edən analitiklər var. "Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev isə bir dəfə yazdığımız kimi, Azərbaycanda köklü islahatlara başlanılacağı barədə nikbin proqnozları ilə hətta avropalıları belə təəccübləndirməyi bacarıb. Bugünlərdə İsveçrənin Bazel şəhərində keçirilən ATƏT Nazirlər Şurasının toplantısında iştirak edən həmsöhbətimizdən öncə səfəri ilə bağlı soruşduq:**

# "Qərbin Azərbaycandakı durumla bağlı təpkisini müşahidə etmədim"

## Mehman Əliyev: "Yanvarın sonunda Avropa Şurasında, fevral ayında isə Amerika Konqresində Azərbaycanla bağlı dinləmələr keçiriləcək"

***- Mehman bəy, Avropa səfəriniz nə ilə bağlı idi?***

- Bazeldə keçirilən ATƏT-in Nazirlər Şurasının illik toplantısına qatılmışdıq. Yəni gündəmdə Azərbaycanın məsələsi yox idi. Baxmayaraq ki, son 6-7 ayda Azərbaycan vətəndaş cəmiyyətinə qarşı təzyiqlərin miqyası artıb, siyasi məhbuslar məsələsi var, amma bunların heç birinə baxılmadı. Azərbaycanla bağlı xarici işlər naziri Elmar Məmmədyarov 3 dəqiqəlik çıxış etdi. Ardınca da erməni nazirin çıxışı oldu. Sonradan həmsədrlər ayrı-ayrılıqda onlarla görüşlər keçirib, ancaq biz bu görüşlərin iştirakçı deyildik. Bundan əvvəl də QHT-lərin qapalı iclası olub.

***- Məmmədyarov Azərbaycandakı durumla bağlı konkret nə danışdı?***

- Daxili vəziyyətlə, Qarabağ münaqişəsi ilə bağlı Azərbaycana qarşı ikili standartların olduğunu dedi, narazılığını ifadə etdi.

***- Sizin ənənəvi optimist proqnozlarınızı təsdiqləyəcək detalları müşahidə etdinizmi?***

- Mən Qərbin Azərbaycandakı durumla bağlı təpkisini müşahidə etmədim. Hansı ki, ölkədə durum kifayət qədər mənfi mənada gözəçarpandır. Ancaq buna baxmayaraq, orda bir dənə də tənqidi fikir səslənmədi. Birinci gün bütün iclas Ukrayna hadisələrinə həsr olunmuşdu. Demək olar ki, bütün Avropa ölkələrinin nümayəndələri çox sərt şəkildə Rusiyanı tənqid edirdilər. Avropa Birliyi ölkələrinin təmsilçiləri Rusiya qoşunlarının Ukraynadan çıxarılması, Kremlin Ukraynanın daxili işlərinə qarışmaması tələbini qoyurdular.

***- Azərbaycanla bağlı heç bir müzakirənin açılmamasının səbəbi nə idi?***

- Bu, onu göstərir ki, birincisi, biz gündəmdə deyilik. İkincisi də burda aparılan siyasət orda başadüşüləndir. Təxmini bilirlər ki, bunun ardınca nə olacaq.

***- Söhbət Rusiya təhlükəsindən gedir?***

- Yox, deməzdim ki, bu, Rusiya təhlükəsinə görədir. Mən belə başa düşürəm ki, Azərbaycanda gələn ildən başlayaraq hansısa müsbət addımlar atılacaq. Liberallaşdırma ilə bağlı iqtisadi sahədə də addımlar olacaq.

***- Son hadisələrdən sonra opponentləriniz qəti şəkildə müsbət dəyişikliyə ümid bəsləmir. Siz isə hələ də öz dediklərinizə inanırsınız?***

**"Ya dekabrın 31-də prezidentin xalqa müraciətində, ya da uzaqbaşı yanvarda Nazirlər Kabinetinin iclasında ciddi mesajlar olacaq"**

- Bəli, inanıram. İlham Əliyev deyir ki, mənə aşağıdan təzyiq olmasın, mən yuxarıdan islahatlar aparım. Necə ki, deyirlər ki, təkamül yolu ilə Azərbaycanda dəyişikliklərə nail olmaq mümkündür. Təkamül yolu isə odur ki, dəyişikliklər yuxarıdan başlayır, aşağıdan yox. İnqilab aşağıdan olur, təkamül yolu isə yuxarıdan başlayır.

***- Avropada sizin bu yanaşmanızı necə qarşıladılar?***

- Mən Avropada hansısa rəsmilərlə danışmamışam. Səmimi deyim, onlarla danışmaq mənimçün maraqlı deyil. Amma 2013-cü ildə bu öhdəliklər götürülüb. Ondan qabaqkı illərdə amerikalılar bu məsələləri qaldırıblar, Brayza, yaxud Morninqstar Azərbaycan hökumətinə eyni mesajları verib. O cümlədən ABŞ prezidenti və dövlət katibi öz təbrik məktublarında həmişə bunları qeyd ediblər ki, vaxtilə dəyişikliklərin olacağı barədə öhdəliklər götürülüb. Ona görə də hesab edirəm ki, İlham Əliyevin sadəcə şərti, yaxud xahişi o olub ki, təzyiq olmamalıdır. Yəni bu islahatların aparılması onun şəxsi iradəsi kimi təqdim olunmalıdır.

***- Amma artıq ABŞ-dan da sanksiya hədəsi gəlir...***

- Mən heç bir sanksiya gözləmirəm. Yanvarın sonunda Avropa Şurasında, fevral ayında isə Amerika Konqresində Azərbaycanla bağlı dinləmələr olacaq. O vaxta qədər isə güman edirəm ki, Azərbaycan hökuməti, şəxsən prezident Qərbə müsbət mesajlar verəcək, bəzi addımlar da atılacaq.

***- Konkret hansı addımların atılacağını gözləmək olar?***

- Siyasi məhbusların bir hissəsinin buraxılması baş verə bilər. Ancaq əsas məsələ budur ki, həmin o mesaj göndəriləcək: nə edirik, nə istəyirik və nələri edəcəyik. Sonra da praktiki addımlar atılacaq, konkret şəxslərlə, vətəndaş cəmiyyəti təmsilçiləri ilə görüşlər başlayacaq, beynəlxalq donorların Azərbaycandakı fəaliyyətinə imkan yaradılması və s. müşahidə olunacaq.

***- Bəs nikbin bəyanatlarınızın fonunda jurnalist Xədicə İsmayılın həbsini necə izah edərdiniz?***

- Mən demişdim, təxminən dekabrın 15-20-nə qədər bu proseslər gedəcək. Yəni indiki mərhələdə hakimiyyət-müxalifət, hakimiyyət-cəmiyyət qarşıdurmasının bu formada zərərsizləşdirilməsi prosesi gedir. Amma bu zərərsizləşdirmə müvəqqəti xarakter daşıyır və son olaraq hakimiyyət liberal addımlar atmağa başlayacaq. Bizim iqtisadi və s. durumumuz vadar edir ki, bu yolu gedək. Ümumiyyətlə, ölkədə dəyişikliklər olmalıdır. Sadəcə, güclü vətəndaş cəmiyyətinin təsiri altında dəyişikliklərin olması hər hansı bir opponentlərin aktivliyinə və daha çox təzyiqlərin başlamasına gətirib çıxara bilər. Bir də var ki, yuxarıdan hansısa mesajlar və addımlar olsun. Yəni elə bil ki, biz idarəolunan demokratiya dövrünə qədəm qoyuruq. Addımların atılması isə hakimiyyətin iradəsi kimi təqdim olunacaq. Sadəcə, hakimiyyət narahatdır ki, yumşalma dövründə daxildə hər hansı bir qarşılıqlı proses gedə, qarşı tərəf daha çox şey istəyə bilər.

***- ABŞ-ın Sülh Korpusunun Azərbaycandan getməsi nə ilə bağlı ola bilər?***

- Sülh Korpusu və başqaları o vaxt var idi ki, ölkə kasıb idi, pul yox idi. Onlar da təmənnasız yardım edirdilər. Azərbaycan artıq elə bir vəziyyətdədir ki, prinsipcə vəsaitlər var. Təbii ki, əgər oğurlanmasa, korrupsiya olmasa... Amma ümumilikdə həmin işləri yaxşı səviyyədə görmək üçün imkanları var. O cümlədən əgər bu siyasət həqiqətən də inkişafa, demokratik cəmiyyətin qurulmasına yönəldilərsə, kifayət qədər vəsait var.

***- Ortada siyasi səbəblər varmı?***



**"Azərbaycan və Qarabağ məsələsi Avropanın gündəmində yoxdur"**

- Təbii ki, qarşılıqlı tənqidlər var. Prezidentin mətbuat katibi də Amerikanı suçladı. Bu onu göstərir ki, Azərbaycanın Amerika ilə bağlı xüsusi siyasəti var. Yəni onun siyasəti azaddır, heç kəsə bağlı deyil, hətta Amerikaya öz sözünü deyə bilir, hakimiyyət güclüdür. Məncə, bu, İlham Əliyevin şəxsi hakimiyyətinin daha güclü, müstəqil olmasını göstərir. Amerika da bunda maraqlıdır. Hesab edirəm ki, 2003-cü ildən sonrakı proseslər Amerikanın dəstəyi altında baş verdi.

***- Dediyinizdən belə çıxır ki, ABŞ-Azərbaycan münasibətləri göründüyü qədər də gərgin deyil.***

- Bəli, mən də bu fikirdəyəm. Gərginlik daha çox üzdədir. Fikir verirsinizsə, Amerika tərəfi heç bir cavab da vermir.

***- Ola bilərmi ki, bu gərginlik görüntüsü həm də Rusiya təhlükəsini neytrallaşdırmağa xidmət edə bilər?***

- Əlbəttə ki. Ramiz Mehdiyevin məqaləsi dekabrın 3-də çıxmışdı, Putin isə Federal Şurada 4 dekabrda çıxış etdi. Mesajlarda oxşar notlar var. Azərbaycan tərəfi hər dəfə nümayiş etdirmək istəyir ki, Rusiya ilə baxışları oxşardır, müttəfiqlik var. Bəli, Azərbaycan Rusiyanın hansısa destruktiv addımlar atmasından çəkinir. Kasparov bu yaxınlarda dedi ki, Azərbaycan, ümumən Cənubi Qafqaz Rusiya üçün hücum istiqaməti ola bilər. O cümlədən də Qazaxıstan. Nazarbayevin vaxtından qabaq millətə müraciətində də qeyd olunurdu ki, böyük təhlükələr var. Düzdür, o, şərqi göstərdi, amma təhlükə daha çox şimaldan gəlir. Üstəlik, Putin də qazaxların dövlətçiliyinin olmadığını bəyan etmişdi.

***- Avropada postsovet ölkələrinə qarşı Rusiya təhlükəsi göründüyü qədər ciddi qəbul olunurmu?***

- Rusiyanın hədəfi Ukraynadır. Elə toplantıda da bütün diqqət Rusiyaya yönəlmişdi. Mən orda Avropanın vahid, kifayət qədər sərt və prinsipial mövqeyini gördüm. Yəni Avropa Rusiya ilə qarşıdurmada kifayət qədər radikallaşıb. Ukraynanın Rusiya təhlükəsindən xilası elə postsovet məkanının xilası deməkdir. Orda Lavrovun 22 görüş keçirməsi də sadə məsələ deyildi. Fakt odur ki, bundan sonra Avropa banklarına Rusiya banklarının Avropadakı filiallarına kreditlərin verilməsi icazəsi verildi. Bu, Moskva üçün çox ciddi məsələdir, çünki Rusiyaya rublun saxlanması üçün valyuta lazımdır. Bu mənada Rusiya Avropadan müəyyən dəstək ala bildi. Yaxud Ollandın qəflətən Rusiyaya düşməsi, Putinlə görüşü və Rusiya prezidentinin Ukraynanın ərazi bütövlüyünü tanıdığını deməsi də ciddi məsələdir. Biz orda olanda qərar verilmişdi ki, Minsk prosesi təzədən başlasın. Donbas üçün də Ukrayna tərkibində bir status almaq istəyi var, hansı ki, vaxtilə Poroşenko bunu təklif etmişdi. Yəni Rusiyanın da, digərlərinin də kompromislərə getmək cəhdləri var. Rusiyanın vəziyyəti kifayət qədər ağır olduğu üçün tövsiyələri nəzərə almağa məcburdur.

***- Amma Krım qaytarılmır?***

- Deyildi ki, Krımın qaytarılması illər tələb edəcək, bu isə indiki məsələ deyil. Ona görə də məsələ dondurulmalıdır. Müdaxilələr bitməlidir ki, Ukrayna sürətlə iqtisadi və siyasi islahatlar apara bilsin. Ukraynada məsələ belə qoyulub ki, 6 aydan 3 ilə qədər müddətdə çox böyük islahatlar getməlidir.

***- Deməli, Azərbaycan və Qarabağ məsələsi hələ gündəmdə yoxdur...***

- Bəli, Azərbaycan və Qarabağ məsələsi gündəmdə yoxdur. Ümumi bəyanat oldu ki, tərəflər sülh yolu ilə məsələnin həllinə nail olmalıdır. İlk dəfədir ki, XİN başçıları bu cür tədbirdə görüşməyiblər. Bu, onu göstərir ki, məsələnin həlli gündəmdə deyil.

***- Mehman bəy, necə bilirsiniz, Xədicə İsmayıldan sonra növbə kimindir?***

- Bilmirəm. Kimsə ola bilər. Açığı, hakimiyyətin kimi hədəf seçdiyini görə bilmirəm. Amma hər şey ola bilər. Nə olsa belə, bununla bitməlidir. Mən gözləyirəm ki, ya dekabrın 31-də prezidentin xalqa müraciətində, ya da uzaqbaşı da yanvarda Nazirlər Kabinetinin iclasında ciddi mesajlar olacaq.

**❑ Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 300 (6009) 9 dekabr 2014



## Böyük oyunun qurbanları

Xalid KAZIMLI

**Bəzən adam neytral olmaq istəyir. Bir çox məsələləri, incə detalları nəzərə alırsan və görürsən ki, iki çəkişən qüvvənin heç birinin səfində dura bilmirsən.**

imkan vermirlər, adamı seçim qarşısında qoyurlar: "Söz azadlığının, insan haqlarının təhlükədə olduğu vaxtda neytral olmaq xəyanətdir".

Hələ cümləni bəzən başqa fellərlə də bitirirlər: "...şərəfsizlikdir", "...alçaqlıqdır", "...həyasızlıqdır" və s.

Burası yəqindir: yıxılana balta çalmazlar, həbs olunanı müdafiə edərlər, dara düşənə kömək olarlar və sair və ilaxır.

Bu, xüsusilə həm də əslində istisnasız olaraq siyasi motivlərlə həbs olunanlara aiddir. İki köməksiz təqaüdçünü 60 manata görə bıçaqlayıb öldürən canini müdafiə edəcək halımız yoxdur.

Bu da bəlli faktdır ki, ölkədə siyasi motivlərlə həbs olunan xeyli adam var. Onların bir çoxu sırf bəhanələrlə həbs olunub. Yadigar Sadıqovu siyasi fəaliyyətinə görə tutublar, amma üstünə "Qarabağ əlilini döymək" suçu yükləyiblər.

İsmayıllı iğtişaşlarında təhrikçilik etmək ittihamı bəhanədir, Tofiq Yaqublunu barışmaz müxalifliyinə görə tutublar. İlqar Məmmədovu isə ölkə parlamenti barədə dediyi sözə görə həbs ediblər, "İsmayıllı işi" bəhanədir.

O biri həbs edilənlər də eləcə. Hər birinin həbsinin bir səbəbi və bu səbəblə bağlı olmayan bəhanəsi var.

Jurnalist Xədicə İsmayılın həbsi də o xanədəndir. "Tural Mustafayevi intihar həddinə çatdırma" ittihamı bəhanədir. Jurnalistin həbsinin səbəbi kimi apardığı araşdırmalar göstərilir.

Böyük ehtimalla elədir. İndi YAP sözçüləri də bir-birinin ardınca X.İsmayılın konkret şəxsin konkret ifadəsi əsasında saxlanıldığını deyirlər. Amma onlar da bilir ki, bu, əsas səbəb başqadır.

X.İsmayılın ilk sensasion araşdırması (yeri gəlmişkən, onları bir sıra qəzetlər də çap edib - o cümlədən müəllifin "Səs" qəzetindən fərqləndirmədiyi "Yeni Müsavat" da) iki-üç il öncə dərc olunub. Belə çıxır ki, jurnalistin həbsinə hazırlıq o vaxtdan gedirmiş.

Bu həbsin bu qədər gecikməsinin müxtəlif səbəbləri ola bilər. Ancaq hiss olunur ki, QHT rəhbərlərini, hüquq müdafiəçilərini əhatə edəcək həbs dalğası barədə qərar ötən ilin sonunda, bu ilin əvvəllərində qəbul edilib.

Rauf Mirqədirov, Leyla və Arif Yunuslar, Anar Məmmədli, Baxış Süleymanlı, Rəsul Cəfərov və başqaları bu dalğanın qurbanlarıdır. Mətanət Əzizova və Emin Hüseynov canlarını birtəhər qurtarmasalar, onlar da bu gün adları çəkilənlərin yanında olacaqdılar.

Mövcud rejim yeni mərhələdə məhz bu sektoru özünə təhlükə kimi görür, ya onların beynəlxalq miqyasda zərərli iş apardıqlarına əmindir, ya da müxalif qüvvələrə maliyyə donorları tapmalarından şübhələnir. İkisi də ola bilər.

Bütün bu həbslər isə birmənalı olaraq Qərbə direniş göstərmək, xüsusilə də Amerikaya diş qıcamaqdır.

Xədicə İsmayılın həbsi həmin zəncirin hələlik son halqasıdır.

Maraqlıdır, hakimiyyət niyə indiyə qədər səbr etdi və X.İsmayılın bu müddət ərzində bir neçə qalmaqallı hadisələrdə iştirakına, fəallıq göstərməsinə dözdü? Dekabrın 5-də icra edilən həbs qərarı isə heç kəsə təəccüblü görünmədi. Torba tam hazır idi.

Orası da aydındır ki, bir jurnalistin köməksiz-yardımsız bu kimi sensasion araşdırmalar aparması mümkünsüzdür. Bilən adamların dediyinə görə, offşor zonalardan məxfi informasiyaların sızıntısını yalnız ABŞ-ın MKİ-si, İsrailin "Mossad"ı, Britaniyanın "Mİ-6"-sı təşkil edə bilər.

İlk dəfə AzadlıqRadiosunun saytında yer alan həmin materialların sırf kəşfiyyat məlumatlarından ibarət olduğu (prinsipcə, məşhur "Vikiliks" saytının açıqladığı materiallar kimi) şübhə doğurmurdu və adı çəkilən radionun ABŞ Dövlət Departamentindən maliyyələşən media orqanı olduğunu nəzərə alanda bu məlumatların jurnalistin əlinə necə düşdüyünü təxmin etmək çətin deyildi.

Hərçənd bir az da dərin təhlil edilsə həmin sensasion araşdırmaların ABŞ dövlətinə nəyə görə lazım olduğunu, onunla İlham Əliyevi nəyə vadar etmək istədiklərini də təxmin etmək olar.

Beləliklə, ortada olan odur ki, daha bir jurnalist sırf peşə fəaliyyətinə görə həbs olunub, tural-mural, eləcə də əxlaq-moral bəhanədir.

Bir də ortada mövcud rejimin jurnalistin yolverilməz saydığı hərəkətini öz adıyla sənədləşdirməyə cəsarət etməməsi faktı var. Vaşinqton və Bakı arasında gedən kəşfiyyat-şantaj-mənafe oyununun qurbanı isə ictimai-siyasi fəallardır.

---

**AzadlıqRadiosunun əməkdaşı Xədicə İsmayılovanın həbsinə səbəb olan Tural Mustafayev "Yeni Müsavat"ın suallarını cavablandırıb. Müsahibəni təqdim edirik:**

# Xədicə İsmayılı tutduran "Yeni Müsavat"a danışdı

## Tural Mustafayev: "Bu həbs siyasi məsələ deyil, iki insan arasında olan işdir və qəti şəkildə özümdə günah görmürəm"

***- Tural, sizi istintaqa dəvət ediblərmi?***

- Yox, məni istintaqa dəvət etməyiblər. Nə vaxt dəvət edəcəkləri barədə məlumat verməyiblər. Mən burdayam və heç bir problem yoxdur.

***- Siz qeyd etmisiniz ki, istintaq sirri olduğu üçün heç nə açıqlamayacağam, amma yazışmaları "screen" edib yaymısız....***

- Bu yazışmaları yaymaq istintaq sirrini yaymaq mənasını vermir. Mən istintaqa təqdim olunmuş sübutlardan birini yaymışam. Həmin yazışmalar 33 səhifəlikdir və yalnız bir hissəsini paylaşmışam. Burada söhbət martın 9-dan 16-na qədər baş verən hadisələrin öz əksini tapmasından gedir.

Artıq bu sübutların bir hissəsini paylaşmışam və istintaqa da təqdim olunub. İstintaq yekunlaşandan sonra bütün faktları detalları ilə paylaşacağam ki, mənə qarşı bu qarayaxmalara son qoyulsun.

***- Sizə jurnalistin həbsinə görə qınaqlar, tənqidlər var, bunlardan özünüzü necə qoruyacaqsınız?***

- Mənə qarşı qarayaxma kampaniyası aparanlar, məni onun üzünə durmaqda ittiham edənlər əslində bu hadisəni ictimai rəydə siyasiləşdirmək istəyirlər. Xədicə İsmayılın həbsi siyasi motivli hadisə deyil. Sadəcə, iki nəfər arasında baş vermiş olaydır. Ən əsası budur ki, məni qınayanlar özləri bu hadisələrin canlı şahidləridir. Onlar istəmirlər ki, bu hadisələrdə iştirak etsinlər. Bu adamların əksəriyyəti Xədicə İsmayılın yanında olublar.

Məsələn, onlardan biri Aynur İmranovadır ki, onun təsiri ilə Xədicə nə qədər hərəkətlər edib. Yenə deyirəm ki, istintaq davam edir və mən geniş açıqlama vermək istəmirəm. Kim məni qınayırsa, onun öz fikridir.

Sadəcə, Xədicə İsmayıl iqtidarı tənqid edirsə, onun ictimai nüfuzu varsa, bu o demək deyil ki, onun həbsi siyasidir. Əgər Xədicənin həbsinin siyasi əsası olsaydı, daha əvvəl tutardılar. Bundan əvvəl də saxlanılıb, istintaqa çağırılıb.

***- Siz bir gənc oğlan kimi, o cümlədən həmkar kimi etdiyiniz hərəkəti düz hesab edirsizmi? Yəni intihara cəhdə görə şikayət edib xanım jurnalistin həbsinə səbəb olmusuz.***

- Bilirsiniz, bu məsələlər artıq 8 aydan çoxdur ki, davam edirdi. Onu da deyim ki, mənim heç bir psixoloji problemim yox idi. Sadəcə, depressiv hallar olurdu. Bu da mənə qarşı şiddətli təzyiqlərdən asılı idi. Bilirsən necədir?

İki insan arasında olan bir işdir və bunu siyasiləşdirmək olmaz. Məsələn, bu gün "Yeni Müsavat"a çoxlu tənqidlər var və qəzetin yazdığı məqalələri hər dəfə siyasiləşdirirlər. İndi də mənim şikayətimi siyasiləşdirirlər.

***- Sizcə, iki nəfər arasında olan münasibətə görə məsələni bu dərəcədə böyütməyə, həbsə gətirib çıxarmağa nə ehtiyac var idi?***

- Mən həbsdən lap əvvəl Xədicə İsmayıla zəng etdim, onu görüşüb danışmağa dəvət edim. Fikrim varıydı ki, bütün baş verənlərlə bağlı danışaq və bu söhbətə yekun vuraq. Ancaq martın 9-da yazdığı fikirləri martın 16-da təkrar səsləndirməsindən sonra başqa çıxış yolu yox idi. Mən məcbur oldum şikayət edim.

***- O sizə nə demişdi ki, intihara cəhd etdiniz, şikayət etməyə məcbur oldunuz?***

- Mən indi bunu açıqlaya bilmərəm. Çünki istintaq sirridir. Yenə deyirəm ki, istintaq yekunlaşsın, geniş bir açıqlama verməyə hazıram. Sadəcə, bir detalını vurğulaya bilərəm - mənim iş fəaliyyətimin dayandırılması və mətbuatdan uzaqlaşdırılmağıma göstərişlər verilmişdi. Mən videojurnalistika ilə məşğul olurdum.

Ancaq onun tapşırıqları və müəyyən əlaqələrinə görə verdiyi göstərişlərlə videolarımı qəbul etmirdilər. İkincisi, ilkin səbəblərdən biri məni nişanlımla ayırmalarıdır. Bu gün də nişanlıma təhdidlər yazılır, müxtəlif sözlər deyilir. Onun "Meydan TV"yə açıqlaması SMS formasında idi və redaktə olunmuşdu. Sadəcə, istintaq davam edir və hər şey istintaqın gedişindən sonra gün kimi aydın olacaq.

***- Nişanlınızın rəfiqəsi yazıb ki, siz Rövşənəni öldürməyə qalxmısınız, sonra yazırlar ki, maşınınızı yandırmısınız. Bu, psixoloji problemlərə görə olub?***

- Mənim maşınım təsadüfən alışıb yanıb. Maşını yandırmağım yalandır. Nişanlımı da öldürmək istəyim olmayıb. Mən çox açıqlama vermək istəmirəm. Sadəcə, bugünkü təzyiqlər bizim ayrılmağımıza səbəb olub.

Nişan ailələr arasında olur, razılaşdırılır. Nişan pozulanda da ailələr oturub danışır və ayrılmağa qərar verirsən. Burada günah Rövşənədə olub. Əgər qohumları istəməsəydi, gəlib ailə üzvlərimə deyərdilər ki, nişanı qaytarırıq.

Sadəcə, Rövşənə ilə olan mübahisələrimiz bu hadisələr üstündə olub və ayrılmışıq. Bu gün də onun yanında olan şərəfsiz dostları ailə söhbətlərini, ondan eşidib-bildiklərini tirajlayırlar. Bizim mübahisələrimiz də bunun üstündə olub ki, onlar bu daxili söhbətləri yayırlar, facebookda yazırlar. Psixoloji problemlərə gələndə, heç vaxt psixoloji problemim olmayıb. Ancaq yazırlar ki, alkoqolik olmuşam.

Mən martdan bəri içki içmirəm. Sadəcə, intihara cəhddən sonra özüm Maştağada dispanserə müraciət etmişəm və 12 gün orada qalmışam. Bunu dispanserə sorğu göndərib bir jurnalist kimi aydınlaşdıra bilərsiniz.

Məndə depressiv hallar olub, psixoloji problemim nə əvvəl olub, nə də bu gün var. Mən o adamlara gülürəm ki, psixoloji problemim olduğunu yazırlar. Onlar düşünür ki, psixoloji problemim olduğu üçün Xədicənin üzünə durub onu həbs etdirmişəm.

***- Əgər bu məsələ siyasi deyilsə, iki nəfər arasında olan münasibətə görədirsə, onda şikayəti geri götürə bilməzsiniz? Axı ciddi araşdırmalar yazan bir xanım jurnalistin həbsinə səbəb olmusunuz?!***

- Mən şikayətimi geri götürməyi fikirləşirdim. Şikayət ərizəmi geri götürə də bilərdim. Ancaq bu gün o şərəfsizlərin yazdıqları, tirajladıqları məsələlərə görə geri götürməyəcəyəm. Bu iş məhkəmədə həll olunacaq və orada hər şeyi açıqlayacağam.

Yenə deyirəm ki, məni Xədicənin hakimiyyətlə bağlı mövqeyi, yazdığı araşdırmalar maraqlandırmır. Çünki bu həbs siyasi məsələ deyil, iki nəfər arasında olan işdir. Əslində o araşdırmaları ingilis dilini bilən və jurnalist olmayan da yaza bilər. Mən istənilən adama xarici saytları verə bilərəm ki, məqalə hazırlasın, yəni burada Xədicə İsmayılın etdiyi qeyri-adi heç nə yoxdur.

***- Yəni özünüzü günahkar bilmirsiniz?***

- Qəti şəkildə özümdə günah görmürəm. Əksinə, istintaq yekunlaşsın və məhkəmədə kimin günahkar olub-olmadığı bilinəcək.

❑ **Emil SALAMOĞLU**



**"İntihara cəhddən sonra özüm Maştağada dispanserə müraciət etmişəm və 12 gün orada qalmışam"**

**Azərbaycan Respublikası Prezidentinin Administrasiya rəhbəri akademik Ramiz Mehdiyev əksər məmurlardan fərqli olaraq mütəmadi araşdırmalarla və yazılarla dövri mətbuatda çıxış edir. Azərbaycanda və dünyada baş verən hadisələri təhlil edir, hakimiyyətin siyasi və ideoloji xətlərini göstərməyə çalışır. Müxalifətin cəmiyyətdəki yerini və rolunu müəyyən etməyə səy göstərir.**

# İqbal Ağazadə Ramiz Mehdiyevə cavab yazdı

## Dünya standartlarına ikili baxış və müasir Azərbaycan

## (Akademik R.Mehdiyevə cavab əvəzi)



Əvvəlki dönəmlərdə bəzi tezislərə öz mövqeyimi ifadə etmişdim. Lakin hörmətli akademikin son yazısına geniş məqalə ilə cavab vermək istərdim.

Hörmətli Ramiz müəllim “İkili standartların dünya nizamı və müasir Azərbaycan’’ məqaləsində Yaxın Şərq və Postsovet ölkələrində baş verən hadisələrə toxunaraq, onları təhlil edib və fərqli qənaətlərə gəlib.

**Rəngli inqilablar...**

Rəngli inqilablar niyə və harada baş verir?

İlk növbədə hörmətli Ramiz müəllim bu sualların cavabını şərh etsəydi, oxucuya daha dolğun informasiya vermiş olardı.

Rəngli inqilablar demokratiyanın az-çox təşəkkül tapdığı, insanların etiraz haqqına malik olduğu, seçkilərdə xalqın rəyinin yer aldığı, siyasi institutların proseslərdə aparıcı rol oynadığı, bir sözlə demokratiyaya yaxın, lakin avtoritarizmdən  tam imtina etmiş ölkələrdə gerçəkləşir. Müasir dövrümüzdə rəngli inqilablar daha çox postsovet ölkələri üçün xarakterik siyasi hadisə hesab olunur. 2003-cü ildə Gürcüstanda Qızılgül inqilabı, 2001-ci ildə Ukraynada Narıncı inqilab. Bura Qırğızıstan inqilablarını da şamil etmək olar. Bu ölkələrdə demokratiya ilə avtoritarizm arasında ciddi savaş rəngli inqilablara səbəb olub. Həmin ölkələrdə demokratiyanın düşüncə və idarəetmə bazası olmasaydı xalq proseslərə qarışa, saxta seçki marafonu və hakimiyyətləri qorumağa yönəlik nəticələri ləğv etdirə bilməzdi. Demokratiya olmasaydı, xalqın seçkilərdə iştirakı və nəticələrə münasibəti də seyrçi mövqeyindən o tərəfə keçməzdi.

Lakin Ərəb baharını da hörmətli Ramiz Müəllim rəngli inqilablar kateqoriyasına aid edir.

Heç bir ərəb ölkəsində rəngli inqilab olmayıb. İstər Tunis, istər Misir, Yəmən ya Liviya qanlı xalq üsyanlarını yaşayıb. Demokratik idarəetmə və düşüncənin olmadığı yerdə cana doymuş xalq ilk fürsətdə üsyana qalxıb.

Rəngli inqilablarla üsyanlar arasındakı fərq Şevardnadze ilə Qəddafi, Hüsnü Mübarək, Kuçma ilə Bin Əli və ya Qəddafinin taleyi arasındakı fərq qədərdir. Nədən ərəb ölkələrində ictimai təsisatlar, QHT-lər vasitəsilə maarifləndirmə işi aparılırdı?

Sadə səbəbi var idi. Bu ölkələrin ictimai-siyasi həyatında siyasi institutların mövcudluğu yox idi. Siyasi institutların olmadığı və ya zəiflədiyi yerlərdə məcburən fərdlərin kiçik, nəzərə çarpmayan qruplarından istifadə edilir ki, bu da maarifləndirmə işinə xeyli dərəcədə kömək edir.

Bəlkə başqa sual verək? ABŞ və digər Avropa ölkələri Yaxın Şərq və digər Ərəb ölkələrinin necə və hansı idarəetmə altında yaşadıqlarını nədən düşünməli, “narahat olmalı ?’’ hakimiyyətin demokratik  və ya avtoritar olduğunun ”qayğısına qalmalıdır?".  Siz demiş ‘ Heç uzaq olmayan keçmişdə və ya elə indinin özündə də avtoritar, totalitar quruluşlu təsisatlarla ABŞ və ya Avropa ölkələri müttəfiq deyilmi?

Bu sualın doğru-dürüst verilməyən cavabı həmişə bizdə ikili standart anlayışını doğurur, ya da ABŞ və ya Qərbi ittiham etmək üçün əlimizə ‘tutarlı" dəlil vermiş olur.

Sadə misallardan başlayacağam. Görəsən, heç bircə nəfər ölkəsindən asılı olmayaraq -qanuni və ya qeyri-qanuni topladığı varidatını dollar və avrodan başqa hansısa pul vahidinə çevirib saxlayırmı? Və ya bir imkanı olan maşınını, geyimini Afrika və Çin kimi ölkələrdən alır?? Sürdüyümüz maşınlar geyimlər, görəsən, haranın istehsalıdır? Bu qəbilə demokratik Yaponiyanı və Cənubi Koreyanı da şamil etmək olar.

**Bu bizim məişətimiz...**

Görəsən Azərbaycandan ayağımızı kənara qoyduğumuz an cibimizdə gətirdiyimiz kartların yükləndiyi pul vahidləri hansıdır - Dirhəmmi, Lirəmi, Rialmı, Rupimi, yoxsa Təngə, Manat, Rubl, Lat, Lit, Kron, Kuna, Ley, Lari, Som yoxsa nə? Bəs ölkəmizin milli valyutasının dəyərini hansı ölkənin pul vahid ilə ölçürük?

Ölkələr, millətlər arası konfliktlərin həllində kimin sözünü əsas hesab edirik, kimdən umuruq, kimdən inciyirik?? Qondarma erməni soyqırımını tanıyan Avropa ölkələrindən, yoxsa tanıyıb tanımamasının əhəmiyyəti olmayan Cənubi Amerika ölkələrindən? İqtisadiyyatımızın əsas tərəfdaşı kimi nədən Avropa və Amerikanı seçirik? Nədən onlarla yüksək əməkdaşlığı həm də ölkəmizin qazancı hesab edirik? Müasir texnologiyalar deyərkən nədən üzümüzü Avropa və ABŞ-a çevirir, təcrübə mübadiləsini onlarla aparmağa üstünlük veririk?

Tək səbəbi var. Bu dövlətlər müasir dünyamızın bütün sahələri üzrə şəriksiz liderləridir. Dünya düzənində onlardan aldıqlarımz və öyrəndiklərimiz onları dünyanın təbii hakiminə çevirib.

Doğrudur, hakim kimi heç də həmişə ədalətli deyillər. Lakin onlardan tələb etdiyimiz qədər də digərlərindən umuruq. Heç Çin nədən Azərbaycanın ədalətli mövqeyi üçün nələrsə etmir deyə şikayətləndikmi? Ya Hindistandan umacağımızı dilə gətirdikmi? İkisinin toplam əhalisinin sayı dünyanın 3-də 1-nə bərabərdir. Yox, çünki biz də kimin kim olduğunu bilirik.

Biz də bilirik ki, sosial, iqtisadi, siyasi hüquqi vəziyyətə görə mühacirət edənlər Avropa və ABŞ-a sığınır. Demoqrafik balansın bu səbəbdən pozulması o ölkələrin daxilində həm  də yerli əhalinin həyat şəraitinə ciddi təsir göstərir. Biz bilirik ki, əlində imkanı olan terror təşkilatları ilk növbədə öz qohumlarını bu ölkələrdə axtarır. Deməк, təbii güc anlayışı dünya düzənində dəyişiklik etmək imkanlarını da onlara tanımış olur - bəzən haqlı, bəzən haqsız. Çünki dünya düzəninin pozulması həm də onların düzənini *(insanının, dövlətinin)* pozacaq. Başqalarına nisbətən daha nizamlı olan onlar xaos yaşamaq istəmirlər. İlk növbədə bundan xaosa şərait yaradanlar nəticə çıxarmalıdır. Hər bir rəhbərin, dövlət başçısının, hökumətin ilk növbədə daha nizamlılardan örnək götürməsi vacibdir. ABŞ-mı, yoxsa Yaxın Şərq ölkələrimi? Bu sual kimə verilsə düşünmədən ABŞ-ı seçər, o cümlədən Avropa ölkələrini də.

Elə böyütdüyümüz uşaqlar təhsil, yaşayış üçün bu ölkələri tərcih etmirmi?

Demək, onlar çoxumuzdan çox-çox irəlidədir. Özü də bunun dövlətin qədimliyi və ya tarixi yaşı ilə əlaqəsi yoxdur. Azıx mağarasında yaşayış olanda Amerika kəşf edilməmişdi. 1918-ci ildə bizdə Cümhuriyyət qurulub, insanlara seçib-seçilmə haqqı tanınanda ABŞ-da mafiya savaşı gedirdi.

Bu, istəyə, düşüncəyə, maarifləndirməyə, zəkaya bağlı məsələdir. Bu dövlətin xalq üçün olduğunu anlayanların çox qısa zamanda görəcəkləri işdir.

Bizdən bu qədər irəlidə olanlar kiçik dünyamızda pozulacaq nizamın qarşısını almaq üçün bəzən ölkələrin iç məsələ hesab etdiyi - insan haqları və demokratiyaya da qarışmış kimi görünür. Amma insan haqları və demokratiya da heç bir ölkənin iç problemi deyil.

Ən maraqlı olan budur ki, Qərb demokratik ölkələrdə kiminsə işinə qarışmır, avtoritar və ya demokratiyaya keçiddə ləngiyən ölkələrin “ işinə qarışmış ” kimi görünür.

Çox hörmətli akademik Ramiz müəllim “hüquq prinsipləri və qiyam” bölməsində İ. Kantın 1793-cü ildə yazdığı “Zərbi-Məsəl haqqında” əsərindən,  xalqın istənilən hakimiyyətə, o cümlədən istibdadçı hakimiyyətə qarşı müqavimət göstərmək, hüquqi prinsipini inkar etməsini təhlil etməyə  çalışaraq, Kantdan sitat gətirir.

- Təbəələr xoşbəxtliyə təbii can atmaq naminə hökmdarı devirmək istəyirlər..... Məncə ən düzgün olmayan seçim elə buradan başlayır.

Təbəə- fiziki şəxslə monarx arasında birtərəfli hüquqi-siyasi bağlılıqdır. Təbəəçilik monarxiya quruluşu ilə bağlı olan əsas hüquqi termin olub. Müasir hüquq dövləti vətəndaş kimi anlayışı ortaya çıxarıb (müxtəlif dillərdə: Rus dilində qrajdanin, poddanıy, ingilis dilində: citizen-subject və s). Bundan sonrakı heç bir seçimi təhlil etmədən- çünki təbəə və təbəəçilik konteksindədir- bu sitata münasibət bildirmək istəyirəm.

Azərbaycan dövlət quruluşu etibarilə respublika, dövlət başçısı isə xalq tərəfindən seçilmiş prezidentdir. Xalq tərəfindən seçilmiş hakimiyyətlərin zəbt edilməsinə qarşı qiyam, müqavimət xalqın müstəsna hüququdur. Doğrudur ki, monarxiya rejimində bu hüquq xalqa verilə bilməz, çünki o irsən və ya konstitusiyalı monarxiyanın prinsiplərini qəbul edir. Bu  gün bir terrorist və ya etnik-milli qrup daxildən və ya xaricdən olan təhrik və dəstəklə ölkə prezidentini dəyişmək istəsə nə edilməlidir sizcə? Hamı seyrçimi qalmalıdır, bu hakimiyyət məsləhətdir deyib yaxasını kənara çəkməlidir?

Yoxsa seçkilərdən sonra qanuni seçilmiş bir dövlət başçısını öz vəzifəsində oturmağa imkan verməyən bir qrup olarsa xalq müqavimət göstərməməlidir? 1994-cü ilk oktyabr ayının 4-də Bakıda və bölgələrdə baş verən hadisələrdə mərhum prezident dövlət çevrilişinin qarşısını xalqla almadı, gecə müraciətinin nəticəsində on minlərlə insan prezident aparatının qarşısında toplaşmadı? Məncə, bunlar bir daha sübut edir ki, xalqın müqavimət imkanının saxlanılması dövlətçiliyin qarantıdır. Zatən də biz monarxiya quruluşunda yaşayan təbəələr deyilik. Kimsə belə güman edirsə yanlışlıq burdan başlayır. Müasir dövlətçilik fəlsəfəsi vətəndaş-dövlət münasibətlərinin yeni çalarlarını yaradıb. Biz 1793-cü il dünya təcrübəsinə və o dövrdə yazılanlara deyil, XXI əsrin tələblərinə uyğun dövlət idarəçiliyi və dövlət vətəndaş münasibətlərini qurmağa borcluyuq.

“Beşinci kalon” anlayışı da hörmətli Ramiz müəllimin yazısında qoşa xətlə keçir. Əlbəttə, hər bir ölkənin milli təhlükəsizliyi onun hakimiyyətinin və xalqının əsas vəzifələrindəndir. Amma milli təhlükəsizlik anlayışını insan hüquqları çərçivəsində qəbul etmək və ya onunla məhdudlaşdırmaq məncə müasir dünyanın tələbləri ilə heç də üst-üstə düşmür.

**Bizdən tələb olunan nədir?**

Bu tələbin ədalətli olub-olmaması məsələnin sonuncu tərəfidir, haqqı varmı,  yoxmu, daxili işlərimizə qarışmaqmı, yoxsa hamısını qoyaq kənara?

Bizdən ABŞ və Avropa ölkələrinin vətəndaşlarının hüquqlarını qorumaq kimi bir istəkdə bulunan kimsəni görmədim. Bizdən öz vətəndaşımızın hüquqlarını qorumaq tələb edilir. Dövlətin və hakimiyyətin də vəzifəsi bu deyilmi? Azərbaycan məmurları iddia edir ki, bu bizim daxili işimizə qarışmaqdır. Cənablar, əgər Azərbaycan məhkəmələri ədalətli olsaydı hüquq pozuntularına görə ədalətli qərar çıxarsaydı, sizcə, bunu bizdən istəyən olardımı, yoxsa hesab edirsiniz ki, məhkəmələr ədalətli qərar çıxarır?

Bəs o zaman Avropa İnsan Haqları Məhkəməsindən bəraət alan ölkə məhkəməsinin qərarlarını ləğv edən bu qədər qərardadlar haradandır?

*(davamı sabahkı sayımızda)*

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



# Yeni evlənənlər üçün karser

Zamin HACI
zaminhaci@gmail.com

**Bir köhnə lətifə var, Bakı kəndlərindən birində kişi oğluna elçiliyə gedir, məclisdə oğlunun hansı qabiliyyətlər yiyəsi olduğunu belə danışır: "İçir, çəkir, vaxtlı-vaxtında tində durur, türməsini də çəkib gəlib - ta siz qızınızı başqa kimə verəcəksiniz?"**

Bizim folklorda zindan mövzusu çox rəngarəng şəkildə işlənib. Beyrəyin uzun illər yadelli zindanında yatmasından tutmuş, Həcərin oxuduğu "Mənim bu günümdə gələsən, Nəbi, Qazamat dalını dələsən, Nəbi" mahnısına qədər.

Hətta kitab sektorumuz da zindan ədəbiyyatı ilə yaşayır. Ən populyar elmi ədəbiyyat "Lotu dünyasının sirləri", ən çox oxunan bədii əsər isə "Qızılbarmaq Fatma və Sanka Zver" poemasıdır. Orta məktəb şagirdlərindən telekanalizasiya zəhmətkeşlərinə qədər hər kəs türmə jarqonları ilə danışır. Məsələn, bu sözlər hazırda dilimizdə çox səslənən sözlərdir: şmon, ponyatka, lotu, şram, tavan, sever, krışa, xlebnik və sairə.

Yapistlər də Azərbaycanın milli mentalitetinə sədaqət göstərib ölkənin böyük bir türməyə çevrilməsinə nail olublar. Hazırda istənilən sektorda yatıb-çıxmayan oğlana pis baxırlar. O cümlədən jurnalistikada. KİV sahəsində hətta elə vəziyyət yaranıb artıq qadınları tuturlar.

Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin, qısa yazsaq, Türmə İdarəsinin internet səhifəsinə *(penitensiar.justice.gov.az)* girərək Azərbaycanda insan həyatının bütün maraqlı tərəflərini izləmək mümkündür. Şəxsən mən son vaxtlar ancaq bu saytı izləyirəm. "AzərTAc"dan daha zəngin informasiya mənbəyidir.

Misal üçün, saytdakı xəbərlərdən bir neçəsi zindanlarda keçirilən toy mərasimləri haqdadır. Evlənmək istəyən dustaqlar üçün burada müxtəlif uduşlu kampaniyalar təşkil olunmuşdur: gəlinin qəfəsə salınması, bəyin qandalda məclisə gətirilməsi və sairə. Türmələr bu sahədə öz aralarında yarışırlar. Əgər 3 nömrəli Cəzaçəkmə Müəssisəsi *(bundan sonra kaloniya yazaq - el dilində)* bəylə gəlinə pulsuz tatuirovka hədiyyəsi vəd edirsə, 4 nömrəli kaloniyada bal ayının karserdə keçirilməsi kimi uduşlar vardır.

Məhkumlar arasında voleybol, su polosu, karate, şram atma, təsbehçevirmə turniri, Uşaq Teatrının bədii rəhbəri İntiqam Soltan başqa olmaqla teatr kollektivinin 7 saylı kaloniyaya qastrol səfəri, 12 saylı kaloniyada AYB sədri Anarın "Ala-bula boz keçi" romanının müzakirəsi və imza günü, Kürdəxanı zindanında "Dünyanı qoruyaq" aylığı çərçivəsində kameralara pulsuz hava vermə aksiyası və sairə - bunlar penisentiar idarənin təşkil elədiyi mədəni, elmi, kütləvi, psixoloji, sosioloji, multikulturoloji tədbirlərin yalnız cüzi qismidir. Kimsə mənim sözümə şübhə ilə yanaşırsa özü də girib baxa bilər. Necə deyərlər, sayt durur, link durur. *(Ağa durur, ağacan durur ata sözünün neologizm variantıdır. Mən bunu da 13 saylı kaloniyada dustaq və tutulmayan jurnalistlər arasında keçirilən "Təsbehimin danəsi" meyxana yarışmasından öyrənmişəm)*.

Türmə idarəsi özünə qapanmır, həm də ətraf aləmə nüfuz edir. Düz də edir, çünki hazırda ölkədə türmə ilə azadlığın sərhədi bilinmir. Adam var evində dustaqdır, adam var Kürdəxanı zindanında azaddır. Adam var polis çavuşunun qabağında diz çökür, adam var belini sındırırlar, lakin əyilmir. Əlbəttə, adamların çeşidləri maraqlı, geniş mövzudur, oxucular istəsələr növbəti yazılarda buna qayıdarıq. İndi türmə idarəsinin bayırdakı fəaliyyətlərinə göz ataq. Yenə həmin saytda çox maraqlı bir xəbər oxumaq olar: "Penitensiar Xidmətin əməkdaşları Bakıtel-2014 beynəlxalq rabitə və telekommunikasiya sərgisinə baxmışlar". İnandırıcı olsun deyə Mədət müəllim sərgiyə baxan nadzorların fotosunu da sayta qoymuşdur. Doğrudan da, bizə çox maraqlıdır ki, zindan işçiləri sərgilərə, muzeylərə, "Park Bulvar"a, "Nu poqodi" çayxanasına, deputatxanada büdcə müzakirələrinə, filarmoniyada Alim Qasımovun konsertinə getsinlər.

Həmişə eyni kamerada qalmaq olmaz. Bu, insan haqları konvensiyasına da uyğun deyil.

# Müxalif düşüncənin xilasına son cəhd

**Müxalifətin başı bir-biri ilə savaşa qarışdığı bir zamanda hakimiyyət gurultulu həbs həyata keçirtdi. Bu gözlənilən idi. Protest elektoratının hədəfdən yayındırılmasının pərdəarxasında məhz bu amilin dura biləcəyini ayıq müşahidəçi ehtimal edirdi.**
**Daraldılmış, sıradan çıxarılmış mətbuatlar fonunda yalnız iki qəzetin - "Yeni Müsavat" və "Azadlığ"ın varlığı iqtidarı narahat etməyə bilməzdi. Proseslərə fərqli mövqe sərgiləyən adıçəkilən qəzetlər müxalifətçilərin həbsi, sosial problemlərlə bağlı məsələləri eyni qaydada işıqlandırırdılar.**

Azər RƏŞİDOĞLU



Bəs nədir bu qarşılıqlı inamsızlığın səbəbi? Məsələ ondadır ki, bu gün Azərbaycan ictimai həyatında müşahidə edilən maksimalizm və radikallıqdan mötədilliyə keçid müəyyən qarşıdurmalar yaradır. Lakin bu amil qarşılıqlı savaşa səbəb olmamalı idi.

Mötədil kursa üstünlük verən "Zerkalo" qəzetinin fəaliyyətini dayandırmasından ən böyük zərbəni elə müxalifət və protest elektoratı aldı. Bu gün "Yeni Müsavat" və yaxud "Bizim yol" da eyni aqibətlə üzləşərsə, bu müxalifətin maraqlarına cavab verəcəkmi? Ritorik sualdır.

Xədicə İsmayılın həbsi, AXCP üzvlərinin təqibi barədə bütün məlumatları yayan "Yeni Müsavat" bu gün protest elektoratı üçün gərəkli mətbu orqandır.

Unutmaq olmaz ki, ölkənin iki aparıcı qəzeti müxalifət barədə məlumatlar dərc etməsə, bu düşərgə ümumiyyətlə yaddaşlardan silinə bilər. Bu gün prosesi məhz bu iki qəzet yönləndirir, siyasətçilər isə mətbuatın təqdim etdiyi gündəmdən asılı vəziyyətdədirlər. Protest elektoratını yaşadan, onlara ümid verən də "Yeni Müsavat" və "Azadlıq" qəzetləridir. Hakimiyyətin və müxalifətin, cəmiyyətin ən müxtəlif təbəqələrinin hücumlarına məruz qalan bu iki qəzet bu gün ölkədə ardıcıl və sistemli şəkildə mübarizə aparır. Bütün qınaqlara və təhdidlərə baxmayaraq, protest elektoratının yaşaması üçün mümkün olan hər şeyi edir. Get-gedə daralan dairədə bu iki qəzet müxalifət üçün oksigen balışı rolunu oynayır. Hər iki qəzetin müxalifəti unutdurmaq prosesinə qoşulmaq imkanları olduğu halda, bunu etməmələri fədakarlıq nümunəsidir. Müxalifətin addımlarının təbliğ və ya tənqid olunması bu düşərgənin varlığını tənzimləyən, ictimai rəydə onları qoruyan amillərdir. Bir anlıq bu iki qəzetin də tam sıradan çıxdığını təsəvvür etsək, iqtidar opponentlərinin hansı acınacaqlı duruma düşə biləcəyini ehtimal edə bilərik.

Sosial şəbəkələrin eyni fikirdə olan bir qrup insanın fikirlərini yayması ictimai rəyə təsir edə bilmir. Heç bir halda facebook "Yeni Müsavat" və yaxud "Azadlıq" qəzetlərinin ictimai rəyə təsirini təkrarlaya, ya da əvəz edə bilməz.

Müxalifətin təqibi hələ də yekunlaşmayıb. Yeni, daha qalmaqallı həbslər dalğası ola bilər. Belə bir zamanda müxalifətin son iki qəzetinin daxili savaşa "yox" deməsi və hədəf kimi yalnız siyasi həbsləri həyata keçirən hakimiyyəti seçməsi daha məqbul deyilmi?

Müxalifət siyasi məhbuslara azadlıq tələbi ilə planlaşdırdığı aksiyaları da ayrı - ayrılıqda həyata keçirir. Bu məntiqə ziddir. Bu gün hamı - radikallar, mötədillər, inanclı kəsim, hüququ pozulan hər kəs, siyasi həbslərdən hiddətlənən hər bir vətəndaş birlikdə aksiya keçirtməlidir.

Hamı eyni taleyi yaşayır. Hakimiyyətin protest elektoratını parçalamaq, kimləri isə radikal, kimləri isə konstruktiv təqdim etmək cəhdlərinin əsl məqamı açılmalıdır. Hədəfdə müxalif fikrin özüdür. Bunu anlamaq çoxmu çətindir? Bu mənasız savaşı durdurmağa hələlik yalnız bir nəfər - İlqar İbrahimoğlu cəhd edib. Digərləri isə ya tərəf tutur, ya da susur...

*"Yeni Müsavat"dan: Yazıdakı fikirlər istisnasız olaraq müəllifə məxsusdur və redaksiyanın mövqeyini əks etdirmir.*

# "Gəlib üzümə desinlər ki, mən kimə pul atmışam"

## Mehman Əliyev Abbas Atilayın qalmaqallı statusuna münasibət bildirdi

**Xəbər verdiyimiz kimi, fotojurnalist Abbas Atilay dekabrın 1-də sosial şəbəkədə çox maraqlı bir status paylaşıb. A.Atilay ad çəkməsə də, bir media orqanı rəhbərini hədəf alıb. Status aşağıdakı kimidir: "Gəlin mən sizə bir hadisə danışım: Deməli, bir dəfə ABŞ donorlarından biri tərəfindən bir müsabiqə elan olunmuşdu ki, bir sitə var (Xod gedən bir hörmət etdiyimiz agentliyə aiddir), o yenidən qurulmalıdır. Layihə verin. Bir layihə yazıldı.**

Hacı Hacıyevin rəhbərliyi ilə iş görüləcəkdi. Nəysə, layihəni biz udduq. 6500 AZN həmin bu agentliyin hesabına köçürüldü ki, onlar bu pulu hissə-hissə bizə versinlər, biz də işimizi görək. Agentliyin rəhbəri Hacını çağırdı ki, bəy, bilirsən, bizə artıq ehtiyac yoxdu. Gəlin 500-1000 verək, siz də qol çəkin, məsələ həll olsun. Hacı təbii ki, bunla heç vaxt razılaşmazdı, söhbət pulda yox, kiminsə fırıldağına şərik olmaq idi... Bu elə bir agentlikdir ki, mən onun adını çəksəm siz məni topa-güllləyə tutarsız ki, sən MTN-şiksən. Biz də qorxumuzdan bu barədə sadəcə 1-2 adama dedik, o da yandığımızdan. Qısası, dostlar, mən Əli Əkbəri qətiyyən müdafiə etmirəm, amma adam düz yazır da, ya sizcə, elə deyil. 20 il pul yedilər, ortada nə həsir var, nə də məmmədnəsir".

### "Mən o prosesdə iştirak etməmişəm, pul məndə olmayıb, mənə aidiyyəti yoxdur"

Yuxarıda da qeyd etdiyimiz kimi, status müəllifi yazdıqlarında kimi nəzərdə tutduğunu açıqlamasa da, buna yazılan şərhlərdə sözügedən agentlik rəhbərinin "Turan"ın rəhbəri Mehman Əliyev olması qeyd edilib. Status müəllifinin bu adı təkzib etməməsi isə iddianın doğru olması ilə bağlı şübhələri artırır.

**M.Əliyev həmin yazı dərc edilən vaxt ölkədə olmadığı üçün onun mövqeyini öyrənə bilməmişdik. Dünən "Yeni Müsavat"a açıqlamasında M.Əliyev bildirdi ki, o, bu məsələdə ümumiyyətlə iştirak etməyib:** "Orda müəyyən qruplar arasında konflikt oldu. O konfliktin arasına mən girdim ki, ayıbdır belə söhbətlər aparmaq və sair. Orda məsələ bilirsiz necə oldu? Kimsə-kimisə düzgün başa düşmədi, kimsə-kiməsə başqa cür informasiya verdi. O vaxt mən bunları araşdırdım. Çünki sonradan bu məsələ gəlib mənim adıma bağlana bilərdi. Halbuki mənim o işdə iştirakım yoxdur. Mən onları bir araya gətirdim. Aydın oldu ki, kimsə düzgün deməyib, kiməsə başqa cür danışıb. Mənim burda heç bir maddi marağım olmayıb. Kiməsə nəsə demişəm, nəsə danışmışam, belə şey olmayıb axı".

**M.Əliyev bildirdi ki, o vaxt "Turan"ın saytının hazırlanmasından söhbət gedirdi:** "Orda bir neçə nəfər müsabiqə kimi öz sənədlərini vermişdi ki, bunu kim edəcək. Sonra verildi başqa tərəfə və onlar da dedilər ki, biz daha ucuz edirik. Amma prosesdə mən iştirak etməmişəm. Sonra biri deyib ki, biz eləməliydik. O biri deyib ki, yox, biz eləməliyik, axı bizə söz verilməmişdi".

**Müsahibimizin sözlərinə görə, onunla A.Atilay yox, jurnalist Turxan Qarışqa danışıb:** "Gəldilər ki, Mehman müəllim, belə oldu, elə oldu. Mən də araşdırdım və dedim ki, qurtarın belə söhbətləri. Bunu adam kimi əvvəldən elə etmək lazım idi ki, sonradan problem çıxmasın. Onlar düzgün başa düşməyiblər. Kiməsə deyiblər ki, yüz faiz bizimdir. O biri deyib ki, yox, sizindir. Heç kimin cibinə də nahaq yerə pul axmayıb. O işi başqa icraçılar görüblər. Orda tender kimi idi. Kim daha ucuz qiymətə edəcəkdi, ona veriləcəkdi iş. Mənim yadımda təxminən belə bir şey qalıb. Amma mən o məsələdə heç cür iştirak etməmişəm. Məsələ qalxanda yanıma gəliblər ki, məsələ belədir. İndi bu məsələni təzədən belə qaldırmaq ki, ay mən bomba partladıram, Mehman Əliyev ordan pul götürdü, cibinə qoydu-filan, ayıbdır axı. Nə pul? Gəlsinlər mənim üzümə dursunlar ki, kim məndən pul alıb, mən kimə pul atmışam? Gəlsinlər desinlər ki, Mehman müəllim, "sən mənə demisən ki, filan qədər pul verəcəm, amma əvəzində 1000 vermisən, sonra da yola salmısan". Bu söhbətin mənə dəxli var bəyəm? Mən heç kimlə sövdələşməmişəm, pul atmamışam, kim mənimlə danışıbsa dursun desin".

**M.Əliyev bildirdi ki, o qrupun tərkibində kimlərin olmasından xəbərsiz olub. A.Atilayın həmin qrupda olub-olmaması barədə məlumatsız olduğunu bildirən baş direktor yenə də barəsində yazılanlara etiraz etdi:** "Mən heç kimə deməmişəm ki, ala, bu 500-600-ü... Kimə demişəmsə, gəlsin desin ki, Mehman, sən bunu demisən. Abbas Atilayla isə ümumiyyətlə danışmamışam. Əvvəldən də mənimlə danışmayıblar e. Sonra mənim yanıma gəliblər ki, Mehman müəllim, biz filan şeyi nəzərdə tuturuq, bəhmən şey oldu və sair. Söhbət belə idi də. Gəlsin biri desin ki, bəs Mehman mənə "gəl, bura qol çək, bu qədər pul götür, qalanını mən götürəcəm" deyib. Ayıbdır axı, belə şey olmayıb".

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 300 (6009) 9 dekabr 2014

# Rəsmi Bakı Qərblə niyə savaşır?

**2014-cü il Azərbaycan hakimiyyəti ilə rəsmi Vaşinqton arasında münasibətlərin ən gərgin ili kimi yadda qalacaq. Münasibətlərdəki ənənəvi diplomatik gərginlik bu ilin mayında ABŞ-ın Azərbaycandakı artıq keçmiş səfiri Riçard Morninqstarın AzadlıqRadiosuna verdiyi müsahibədən sonra daha da kəskinləşdi.**






# İqtidarla ABŞ arasında gərginliyin üç sensasion səbəbi

Azərbaycan 2015-ci ilin seçki ilinə iqtidarın tam nəzarəti ilə daxil olur: vətəndaş cəmiyyəti institutlarının, müxalifətin isə bu qədər zəif olduğu bir dönəm son 10 ildə ilk dəfədir ki, yaşanır; rəsmi Bakı sanki gələn il gözlənilə biləcək fırtınaya hazır adamları xatırladır: qapı-pəncərələr mıxlanıb, bərkitmə işləri aparılıb, hətta qorunmaq üçün "səngərlər" də qazılıb...

Səfirin müsahibədə Ukrayna hadisələrinin Azərbaycanda təkrarlanması ehtimalını söyləməsi, eləcə də prezidenti komandadan ayıraraq "Azərbaycan hökuməti monolit deyil" ifadəsini işlətməsi Bakı ilə Vaşinqton arasındakı "kövrək körpünü qırdı". Səfirin açıqlamasına cavab olaraq iqtidar təmsilçiləri ABŞ-ı dövlət çevrilişi hazırlamaqda və Ukraynada iğtişaş törətməkdə ittiham etdi. Morninqstar 2 illik səfirlik sürəcini tam başa çatdırmamış, bəzi iddialara görə, məhz hakimiyyətin tələbi ilə Bakını tez-tələsik tərk etməli oldu.

Bu olaylardan sonra da Amerika Dövlət Departamenti mütəmadi olaraq ölkəmizdə insan haqları ilə bağlı vəziyyətə görə hakimiyyəti qınayan bəyanatların sayını artırdı, Azərbaycana qarşı sanksiyalar gündəmə gəldi. *(Yeri gəlmişkən, bu həftənin cümə günü-dekabrın 12-də yenidən bu mövzuda Vaşinqtonda dinləmələr olacaq).*

Sentyabr ayında isə Amerika prezidenti Barak Obama iki ölkə arasındakı 22 illik diplomatik münasibətlər tarixində görünməmiş bir addım atdı. Klinton Qlobal Təşəbbüsünün illik sessiyasındakı nitqində "Rusiyadan tutmuş Çinə və Venesuelayadək amansız basqılar görürük, hökumətlər legitim fikir ayrılığını dövlətə xəyanət kimi dəyərləndirirlər. Azərbaycan kimi yerlərdə qanunlar QHT-lərin fəaliyyətini inanılmaz dərəcədə çətinləşdirir" fikrini işlədərək rəsmi Bakının adını vətəndaş cəmiyyətinə qarşı "şər üçbucağı"na aid etdi. Əgər o zaman Azərbaycan hakimiyyəti ABŞ prezidentinin tənqidlərini obyektiv saymadıqlarını, ona verilən məlumatların qərəzli olduğunu iddia edirdilərsə, ilin sonunda Vaşinqton terrorizmin dəstəkçisi olmaqda, Ağ Ev rəhbəri isə təcavüzkar xarici siyasətdə ittiham olunur...

Bu gərginlik aylardır Azərbaycan hakimiyyətinin "Amerikanın adamları" hesab etdikləri QHT təmsilçilərinin məhkəmə hökmü ilə uzun müddətli cəza alması fonunda davam edir. ABŞ Konqresinin maliyyələşdirdiyi AzadlıqRadiosunun əməkdaşı Xədicə İsmayılın ötən həftə sonu həbsi də bu gərginliyin davamı kimi qiymətləndirilməlidir.

***

Ümumiyyətlə, yola saldığımız 2014-cü il Azərbaycan iqtidarının Avropa Birliyi, Avropa Parlamenti, eləcə də digər Qərb institutları ilə "soyuq müharibə" dövrü kimi tarixə düşdü. Hətta belə təəssürat yaranır ki, Qərblə daha şiddətli konfrontasiyada olan, iqtisadiyyatı ciddi ziyan görən Rusiya ilə Azərbaycan bu il "bir yumruq" kimi birləşərək birgə mübarizə aparır. R.Mehdiyevin geniş məqaləsindən gəlinən nəticə də budur ki, yeni səfir Çekutanın təyinatına baxmayaraq, yaxın aylarda da rəsmi Bakı ilə ABŞ arasında münasibətlərin normallaşacağına ümid azdır. Anlaşılan budur ki, Amerikaya təklif edilir ki, Azərbaycan hakimiyyətinin cızdığı sərhədlər çərçivəsində əməkdaşlığa razılaşmalıdır. Bu cür oyun qaydalarını Azərbaycan iqtidarı elə Avropa qurumlarına da təklif edir. "Daxili işlərə qarışmaq" rəsmi Bakı üçün çoxdan qırmızı xətdir... Mümkündür ki, iqtidar məhz yaxınlaşmaqda olan seçki ilində ABŞ-ın və Avropanın niyyətləri barədə daha ciddi informasiya mənbələrinə əsaslanaraq bu qırmızı xətti daha inadkarlıqla qoruyur. Qərbin Azərbaycandakı bütün QHT strukturları tam nəzarətə alınıb, bu sektorda xeyli həbslər aparılıb, bir çoxlarının hesabları bağlanaraq iflic edilib, müxalifətin vəziyyəti də göz önündə...

***

**"Bu cür proseslərdə məsuliyyəti üzərinə götürə biləcək çox adam var" demək də olar. Amma iqtidar elə bir vəziyyət yaradıb ki, "məsuliyyəti götürə biləcək şəxsi" elə müxalifətin özü meydanda əzib üstündən keçər...**

Azərbaycan 2015-ci ilin seçki ilinə iqtidarın tam nəzarəti ilə daxil olur. İqtidarın bunca güclü, vətəndaş cəmiyyəti institutlarının, müxalifətin isə bu qədər zəif olduğu bir dönəm son 10 ildə ilk dəfədir ki, yaşanır. İqtidar sanki gələn il gözlənilə biləcək fırtınaya hazır adamları xatırladır: qapı-pəncərələr mıxlanıb, bərkitmə işləri aparılıb, hətta qorunmaq üçün səngərlər də qazılıb... Amma "kimdən", "nədən", "niyə" suallarına cəmiyyət cavab axtarsa da, tapa bilmir.

Axı nə baş verir və nə gözlənilir ki, iqtidar həm daxildə, həm də xaricdə bu qədər aqressiv siyasət aparır və "nəticələr onun xeyrinə" olsa da, dayanmır... Bəli, parlament seçkiləri prezident seçkisi ilə müqayisədə cəmiyyətin daha çox kəsimini əhatə edir, fəallaşdırır, qızışdırır, hətta maddi cəhətdən pul qazanmaq üçün meydana çıxmağa, kiminsə marağını müdafiə etməyə, divara şəkil-şüar yapışdırmağa həvəsləndirir. Amma səbəb yalnız 125 dairədə keçirilən seçkilərdə fəallaşan müəyyən kəsimdirmi? Qərbin 2015-ci ildə Azərbaycanda hansı gizli planları ola bilər ki, iqtidar bu qədər narahat əhval-ruhiyyəyə köklənsin? Əgər ortada bir ciddi məqsəd yoxsa, hakimiyyət özünü indiki həssas məqamda niyə Rusiya ilə yanaşı qoysun, hətta hədəfə çıxarsın ki?

***

Fikrimizcə, narahatlığına əsas səbəblərindən biri dünyada gedən proseslərlə bağlıdır. Gələn il Rusiya da daxil, keçmiş SSRİ məkanında ciddi silkələnmələr gözlənilir. Xüsusilə iqtisadiyyatı neftdən asılı ölkələrə ciddi problemlər yaranacağı gözlənilir. Azərbaycan iqtidarı ilk mərhələdə ürəkli görünsə də, gələn il iqtisadi çətinliklərin olacağının anonsunu artıq verib. Rusiya bu qışı çətinliklə çıxacaq, amma üzü yaza ölkənin iqtisadi vəziyyətinin fəlakətə doğru gedəcəyini rusların ağlı başında olan iqtisadçıları proqnoz kimi yox, xəbər kimi deyirlər. Qərb hər şeyin günahını Putinin üzərinə qoyub və əgər bu çətinliklər xalqı ayağa qaldırsa, Kreml sahibi getməli olacaq. Rusiyada inqilabi hakimiyyət dəyişikliyi isə Azərbaycana birbaşa təsir edəcək. Azərbaycan hakimiyyəti daxili müqaviməti hesablayıb və indilikdə üstün mövqedə olduğunu hər kəs görür. Amma ətrafda vəziyyət dəyişən kimi "içəridə" qarşısıalınmaz proseslər də baş verə bilər. Bu vəziyyətdə isə Qərb məhz öz adamlarını hərəkətə gətirə və proseslərə yön verə bilər. Hakimiyyətin bu il həbsə atdıqlarını məhz "Amerikanın adamları" kimi damğalayıb. Meydanları isə daha Nemət Pənahlı kimi idarə etmək dövrü çoxdan bitib. İqtidar Qərbin mümkün bütün variantlarına bu baxımdan hazırdır.

**"Hakimiyyət bu il həbsə atdıqlarını məhz "Amerikanın adamları" kimi damğalayıb. Meydanları isə daha Nemət Pənahlı kimi idarəetmək dövrü çoxdan bitib. İqtidar Qərbin mümkün bütün variantlarına bu baxımdan hazırdır"**

"Bu cür proseslərdə məsuliyyəti üzərinə götürə biləcək çox adam var" demək də olar. Amma iqtidar elə bir vəziyyət yaradıb ki, "məsuliyyəti götürə biləcək şəxsi" elə müxalifətin özü meydanda əzib üstündən keçər...

Beləliklə, Qərb "neft inqilabı" etmək istəyərsə, Azərbaycan hakimiyyəti maksimum ondan sığortalanmış kimi görünür. Əlbəttə ki, əgər ortaya başqa dövlətlər "öz gizli adamları" ilə girməsə...

***

İkinci mühüm səbəb də dolayısıyla yenə də Rusiya ilə bağlıdır. Qərbin sanksiyaları Rusiyanı xeyli aqressivləşdirib və iqtidar Kremlin hərəkətlərini diqqətlə izləyir. Rusiya Qərbdən acığını çıxmaq üçün Qərbi simvolizə edən "MCdonaldsları" qurdlu çıxardı, yeni mobil telefonlar satışa buraxdı və sair. Vəziyyət ölkə daxilində iplərin möhkəmlənməsini tələb etsə də, Putin buna risk etmir, əksinə, Federal Məclisə son müraciətində "xeyli nəfəsliklər" açıb. Qərbpərəst Gürcüstan hakimiyyəti dəyişdikdən sonra Azərbaycan bəzi nəticələr çıxardıb və bu baxımdan Rusiya ilə daha da ehtiyatlı mövqe sərgiləməyə üstünlük verir. Qərbə bu cür direniş Azərbaycan hakimiyyətinin Kremlin təzyiqlərindən sığortası ola bilər. Bu mövqe dünyada təklənmiş Rusiyanın təbii ki, xoşuna gəlir. Kremlə yaxın "Nezavisimaya qazeta" nəşri son sayında təsadüfən bu mövzuya yer ayırmayıb.

Rus nəşri yazır ki, Vaşinqtonun Bakıya qarşı təzyiqi Rusiyaya qarşı sanksiyalara qoşulmaması ilə bağlıdır. (publika.az)

**Nəşr ABŞ dövlət katibinin sözçüsü Cen Psakinin Azərbaycanla bağlı açıqlamasını xatırladaraq rəsmi Bakının müxtəlif səviyyələrdə buna cavab verdiyini bildirib:** "Bakı Vaşinqtona öz siqnalını göndərdi. Bu siqnal Bakının müstəqil siyasətdən əl çəkməyəcəyi ilə bağlıdır. Maraqlı məqam Vaşinqtonun təzyiqlərinin nə vaxtdan başlaması ilə bağlıdır. Ukraynadan sonra Rusiyaya qarşı Qərb sanksiyaları işə düşdü. Bir çox ölkələr Rusiyaya qarşı sanksiyalara qoşuldu, hər kəs hansısa formada Qərbə özünü yaxşı tərəfdən göstərməyə çalışdı. Lakin Azərbaycan öz tarixi qonşusunu satmadı. Məhz bu, Vaşinqtonun xoşuna gəlmir və insan haqları, demokratiya adı altında əsl məqsədi gizlədərək təzyiq elementlərini işə salır. Qərəzli mövqeyə sərt reaksiya Bakının siqnalı idi. Bununla Azərbaycan hökuməti "heç kim və heç nə müstəqil siyasətimizi dəyişdirə bilməz" demək istəyirdi. Göründüyü kimi, rəsmi Bakı xarici siyasətində milli maraqlarını heç nəyə qurban vermək niyyətində deyil".

**2014-cü il Azərbaycan iqtidarının Avropa Birliyi, Avropa Parlamenti, eləcə də digər Qərb institutları ilə "soyuq müharibə" dövrü kimi tarixə düşəcək**

Kreml bu mövqedən məmnundur və Azərbaycanın Qərblə münasibətlərinin daha da gərginləşməsi Rusiyanın maraqlarına uyğundur. Qərbi silkələyib, Rusiyanın əlini sıxmağın nə dərəcədə uğurlu siyasət olduğunu gələn il daha aydın görə biləcəyik. Amma Qərbə basqılar fonunda Rusiyanın Azərbaycanda mövqelərinin güclənməsi necə, hakimiyyəti narahat etmirmi? Axı Rusiya həddən artıq qorxuludursa, bunu da unutmayaq ki, iqtidarın da bütün biznesi, mal varlıqları, bank hesabları Qərbdədir... Bu da Qərb üçün qırmızı xətdir...

Rəsmi Bakını aqressivləşdirən ən mühüm və 3-cü cəhət isə, fikrimizcə, ABŞ Dövlət Departamentinin Azərbaycandakı vəziyyətlə bağlı hesabatıdır. Hesabat hələ yayılmayıb - lakin "Yeni Müsavat"a diplomatik qaynaqlardan məlum olub ki, o, indiyə qədər olandan daha kəskin və aqressivdir. Hesabatın nüsxələri artıq bir sıra ünvanlarda, o cümlədən də Azərbaycan Prezident Administrasiyasında var. Bir sıra iddialara görə, Prezident Administrasiyasının rəhbərinin son məqaləsi məhz bu məlumatlardan sonrakı reaksiya xarakteri daşıyır.

**Əgər sentyabrda Azərbaycan hakimiyyəti ABŞ prezidentinin tənqidlərini obyektiv saymadıqlarını, ona verilən məlumatların qərəzli olduğunu iddia edirdisə, ilin sonunda Vaşinqton terrorizmin dəstəkçisi olmaqda, Ağ Ev rəhbəri isə təcavüzkar xarici siyasətdə ittiham olunur**

❑ Xəbər xidməti

YENİ MÜSAVAT
N 300 (6009) 9 dekabr 2014



# "Rəngli inqilablar" abstraksiyadırmı?

Hüseynbala SƏLİMOV

**Bir neçə il bundan əvvəlin söhbətidir. O vaxt dövriyyəyə bir siyasi tezis buraxıldı. Məlum oldu ki, hökumət daha küçə və meydan etirazlarını ölkə üçün məqbul hesab etmir.**

Səbəbini də belə izah etdilər ki, siyasi partiyaların və vətəndaşların öz etirazlarını ifadə etmək üçün yetərincə "əlavə imkan"ları var. Amma bu hansı imkanlar idi, onlar nədən ibarət idi, bu xüsusda bir söz deyilmədi.

Dünya müqayisələr dünyasıdır. İnsanlar bu və ya digər məsələyə aydınlıq gətirmək üçün həmişə müqayisələrə müraciət edirlər...

Ən inkişaf etmiş ölkələrdə belə demokratik mübarizə üsullarının biri o birisinə qarşı qoyulmur, onların hamısından istifadə edlilir.

Bir-iki həftədir ki, ABŞ-da insanlar rahatlıq bilimirlər. Amma ABŞ demokratiyasının qüsuru onda deyil ki, hüquq-mühafizə orqanlarının işində müəyyən çatışmazlıqlar var, əksinə üstünlüyü ondadır ki, adamlar bu çatışmazlıqlara qarşı açıq etiraz edə bilirlər...

Eyni sözləri digər demokratik ölkələr haqqında da demək mümkündür. Amma elə ölkələr var ki, oralarda azadlığın və demokratiyanın gələcəyi böyük sual altındadır...

Belə ölkələrdən biri və bəlkə də birincilərindən biri Azərbaycandır. Bu ölkədə avtoritar hakimiyyətdən qurtulmağın bütün yolları hakim partiyanın ideoloqları tərəfindən inkar edilir.

Ölkədə demokratik seçkilər keçirilmir. Elə bu səbəbdən də hakimiyyətin dinc və demokratik seçkilər yolu ilə dəyişməsi faktiki olaraq qeyri-mümkündür. Belə halda yalnız "rəngli inqilablar"a ümid etmək qalardı... Amma hakimiyyət ideoloqları bunu da inkar edirlər.

Düz 26 ilə yaxındır ki, fəal şəkildə politologiya və sosiologiya ilə maraqlanırıq. Bu müddət ərzində Bakıya bu mövzuda gəlib çatan kitabların demək olar ki, əksəriyyətilə tanışıq. Bu kitablardan öyrəndiyimiz nədir? Ölkənin siyasi atmosferinin dəyişməsinin yalnız ikicə yolu var: islahatlar və inqilablar...

Təbii ki, inqilablarda müəyyən zorakı elementlər olur. Bunu heç kim inkar etmir. Əslində inqilabların xarakteri müəyyən mənada hakimiyyətin xarakterindən asılıdır: əgər hakimiyyət mülayimliyə, danışığa və kompromissə meyllidirsə inqilablar da dinc keçir...

Təsadüfi deyil ki, son illərdə siyasi praktikada təsadüf edilən daha çox "rəngli inqilablar"dır. Onlar izafi zorakılıq olmadan, qan tökülmədən başa çatır. Bunun bariz nümunələrini biz bəzi keçmiş sovet ölkələrində görmüşük. Ən əsası bilirsiniz nədir? "Rəngli inqilablar"ın nəzəriyyəsi Azərbaycanın hakim ideoloqlarından qat-qat savadlı və təhsilli politoloqlar tərəfindən hazırlanıb. Bir məsələni də burada qeyd etmək yerinə düşər...

İnsanların qəddar hakimiyyətlərə qarşı üsyan etmək hüququ ilk dəfə Böyük Fransa inqilabı zamanı elan edilmiş İnsan və Vətəndaş Haqları Bəyannaməsində ifadə edilmişdir. 20-ci əsrdə qəbul edilmiş məşhur Ümumdünya İnsan və Vətəndaş Hüquqları Bəyannaməsində də bu hüquq dolayı yolla ifadə edilmişdir. Orada deyilir ki, hakimiyyətlər elə idarə etməlidir ki, insanlar onları devirmək məcburiyyətində qalmasınlar...

Heç bir cəmiyyət vakuumda yaşamır. O, müxtəlif cəmiyyətlərin və millətlərin əhatəsindədir. Ola bilməz ki, digər bir cəmiyyət üçün məqbul hesab edilə bilən şeylər hansısa cəmiyyət üçün məqbul sayılmasın. Demokratiyanı da bu qəbildən hesab etmək lazımdır.

İndi Azərbaycanda vəziyyət olduqca mürəkkəbdir. Demokratiya fəalları ən müxtəlif üsullarla təqib edilir, hətta həbsə atılırlar... Ən ağrılısı isə odur ki, bu proseslərin qarşısını almaq üçün demokratik institutların bu vaxta qədər tətbiq etdikləri üsullar da artıq nəticə vermir - qınaq və tələb bu hakimiyyət tərəfindən demək olar ki, nəzərə alınmır...

Bəs onda ümid nəyədir? Belə bir fikir var ki, azadlıqla rəqabətdə istənilən ideyanın məğlubiyyəti labüddür. İndi yalnız buna ümid etmək qalır. Həm də o vaxta qədər ki, bu ölkədə siyasi mübarizə ssenarilərini hakimiyyət diqtə edəcək, heç bir dəyişiklik olmayacaq. Siyasi mübarizə üsullarını hakimiyyət deyil, cəmiyyət özü seçməlidir. Bilmək lazımdır ki, azadlıq uğrunda mübarizə aparanlar qınanmır. Ona görə siyasi mübarizə ssenarilərini cəmiyyət özü yazmalıdır. Yalnız o halda nəyəsə ümid etmək olardı...

# "AAAF Park" öz sakinlərinə yüksək xidmət təklif edir

## Müxbirimiz "AAAF Park" Yaşayış Kompleksi və onun rəhbəri barəsində yayılan məlumatları araşdırdı; şirkətin sözçüsü musavat.com-a nələrdən danışdı?

**Son günlər "AAAF Park" Yaşayış Kompleksi və rəhbəri Tofiq Heydərov barəsində mətbuatda müxtəlif xəbərlər yayılmaqdadır. Bu xəbərlər sırasında "AAAF İnşaat" MMC-nin sahibinin polisdə saxlanması, vəhhabilərə yaxınlığı, şirkətin maliyyə böhranı içərisində olması yer almaqdadır. Ancaq şirkət rəhbərliyi mətbuata açıqlamasında deyilənləri təkzib edib.**

Buna baxmayaraq, məlumatlar yayılmaqda davam edir və şirkətin "Sevil massivi" MMC-nin taleyini yaşayacağı iddia edilir. Bu da şirkətdən mənzil alan payçıların narahatlığına səbəb olur. Bəs əslində nə baş verir?

Bu söz-söhbətlərə aydınlıq gətirmək üçün Xırdalanda yerləşən şəhərcikdə olduq və işlərin gedişi ilə maraqlandıq. Müşahidələrimiz zamanı tikinti işlərinin davam etdiyinin şahidi olduq. Onu da öyrəndik ki, "AAAF Park"da tikilmiş binalarda artıq yaşayanlar da var.

Onların qaz və işıq təchizatı təmin olunub. Qarşıdakı 2-3 il ərzində bütün işləri yekunlaşdırmağı planlaşdıran şirkət rəhbərliyinin başqa ərazilərdə də layihələri nəzərdə tutulub. Bu haqda daha sonra...

Əvvəla onu bildirək ki, Xırdalanın mərkəzindən çox da uzaqda olmayan "AAAF Park" şəhərciyinə rahat getmək mümkündür. Metronun "20 Yanvar" stansiyası yaxınlığından 135 nömrəli marşrut birbaşa şəhərciyin qabağına gedir.

Təxminən, yarım saata mənzil başına çatmaq olar. Şəhərciyin girişində şlaqbaum qoyulub. Həyətində isə satış mərkəzi yerləşir.

Burada mənzil almaq istəyən vətəndaşlarla müqavilə bağlanır. İstəyənlər burada daxili kreditlər 1, 2, 3 və 5 illik, Azərbaycan Beynəlxalq Bankı vasitəsilə isə 10 illik kreditlə ev ala bilərlər.

Kompleksin girişindən park başlanır və axıra qədər müxtəlif kafelər, restoranlar, uşaq əyləncə mərkəzi, cürbəcür attraksionlar var. Parkın sağ və solunda isə 4, 5, 6 və 7 mərtəbəli binalar inşa olunub.

Bu tikinti geniş bir ərazini əhatə edir. Həmçinin villa kimi həyət evləri də inşa olunub.

Əslində Tofiq Heydərov "AAAF Park"ı idmançılara, ağır atletlərə dəstək üçün nəzərdə tutub. Məlum olduğu kimi, T.Heydərov özü də SSRİ idman ustasıdır və 1996-cı ildə Atlanta Olimpiadasının iştirakçısı olub.

Amma beynəlxalq dərəcəli hakim olan T.Heydərovun şirkətindən təkcə idmançılar deyil, adi vətəndaşlar da ev ala bilər. Hazırda şəhərcikdə yeni binaların inşası davam edir və gələcəkdə 20-25 min nəfərin burada yaşaması nəzərdə tutulub.

"AAAF İnşaat" MMC-nin mətbuat katibi Kənan Məstəliyev isə deyir ki, gələcəkdə idmançı olmaq istəyən uşaqların sağlam böyüməsi üçün burada gözəl imkan yaradılıb. Şirkət sözçüsünün dediyinə görə, T.Heydərov yaşayış kompleksini idmanın içində layihə olaraq fikirləşib.

**K.Məstəliyev bildirir ki, "AAAF Park" idmanın üzərindən bir yaşayış kompleksi olaraq nəzərdə tutulub:** "Gördüyünüz kimi, şəhərcikdə bağça, lisey fəaliyyət göstərir, uşaqların burada təhsil almasına şərait yaradılıb. Bağçamızda Uşaq İdman Akademiyası var, liseyimiz isə idman təmayüllüdür. Uşaqların sağlam həyat yaşaması, sağlam böyüməsi, Azərbaycana layiqli vətəndaş kimi yetişməsi üçün əlimizdən gələni edirik və edəcəyik.

Bizim bağçada həm şahmat, həm cüdo, həm də gimnastika üzrə idman dərsləri keçirilir və yüksək ixtisaslı müəllimlər tədrisdə iştirak edirlər.

Bağçamızda təhsil ödənişlidir və ayda 300 manatdır. Ancaq bizim sakinlərə güzəşt edilib və 50 manat endirim var. Kənardan gələnlərə isə aylıq 300 manatdır və onu da deyim ki, uşaqların harada qalmasından asılı olmayaraq, şirkət onları evlərindən götürüb liseyə, bağçaya aparır, sonra evinə qaytarır, qidalanmasını təşkil edir. Yəni burada onların sağlam böyüməsi üçün maksimum şərait yaradılıb".





**K.Məstəliyevin sözlərinə görə, şəhərcikdə "Limuland" əyləncə mərkəzi var:** "Ondan başqa, "7D cinema", buz meydançası və başqa istirahət layihələrimiz xidmət göstərir. Eyni zamanda, tibb məntəqəsi var. Burada yaşayan sakinlərin ildə iki dəfə poliklinikada pulsuz müayinəsi nəzərdə tutulub. Bundan başqa, məscid tikilir və inanclı insanların ibadətinə şərait yaradılacaq ki, bunun üçün uzağa getməsinlər.



Biz ictimai mədəniyyətə xüsusi diqqət yetiririk. Kompleksin həyətində siqaret çəkmək, spirtli içkilər içmək qadağandır və buranı mədəni bir şəhərcik kimi görmək arzusundayıq. Parkın kənarında isə gördüyünüz kimi, binalar tikilib. Biz planlaşdırırıq ki, iki il ərzində bütün bu tikintilər yekunlaşsın. Və burada 20-25 min adamın yaşayışı planlaşdırılıb. Artıq hazır binalara köçənlər var və bütün kommunal xidmətlər təmin edilib".



Onu da deyək ki, "AAAF Park"da binalar təmirsiz təhvil verilir. Artıq tikintisi başa çatmış binalarda demək olar ki, satılmayan mənzil qalmayıb. Hazırda tikilməkdə olan binalarda isə 1, 2 və 5 illik kreditlə mənzillər satışdadır.

**K.Məstəliyev danışır ki, yeni layihə var və orada binalar təmirli təhvil veriləcək:** "Bu kompleksə ilk gündən böyük maraq və tələbat var. Artıq inşaatın təməli qoyulanda mənzillərin yarısı satılmışdı. Çünki həm şəraiti var, həm sakitlikdir, səs-küydən uzaqdır, yaşıllıq var. Habelə, fitness, uşaq əyləncə mərkəzi, restoranlar, müxtəlif iaşə obyektləri, supermarket mövcuddur. Yəni bütün infrastruktur qurulub".



Artıq Xırdalanda işlər bitəndən sonra eyni layihə Astarada da reallaşacaq. Sahilyanı ərazidə "Astara AAAF PARK" proyekti yerli sakinlər üçün nəzərdə tutulub. Bundan əlavə, Moldovanın Kişinyov şəhərində analoji layihənin reallaşdırılması planlaşdırılır. Planda Çeçenistanın Qroznı şəhəri də var.

**K.Məstəliyev qeyd edir ki, bütün bu planlar bir layihədir:** "Biz bu şəhərləri seçəndə idman faktorunu əsas götürürük. Bilirsiniz ki, "Zirvə" idman klubu Azərbaycanın ağır atletikasının lideridir. "Zirvə" klubu hesabına ağır atletlər yetişir. Biz ölkə ərazisində rəqib tanımırıq deyə xaricə çıxırıq.

Artıq Polşa, Bolqarıstan, Belarus, Gürcüstan, İran və başqa ölkələrdə filiallarımız yaranır. Bu filiallar yaranarkən "AAAF Park" yaşayış layihələri də nəzərdə tutulur. Biz yerli idmançılar üçün klub yaradırıq. Məsələn, "Lvov-Zirvə", Polşanın Terespol şəhərində də bir klub yaradırıq. Kişinyovun İvança qəsəbəsində "Zirvə" filialı yerləşir. Mümkün olduqca, həmin klubların ətrafında "AAAF Park", müxtəlif komplekslər qururuq. Tofiq Heydərovun böyük planları var və növbə ilə bu işlər həyata keçiriləcək".

**T.Heydərovun 50-yə yaxın idmançıya və məşqçiyə ev bağışladığını deyən şirkət rəsmisi bildirdi ki, idmançıların özlərinin də mənzil sahibi olması üçün şərait yaradılıb:** "Ağır atletlər ölkəmizi daim təmsil etdiyi üçün onlara bu imkan yaradılıb. Klubumuzun ildə iki dəfə böyük yarışı keçirilir. Bu yarışda bütün ölkələrdən olan filiallarımızdan ən yaxşılar gəlirlər. Həmin turnirlərdə idmançılara qalib gəldiyi yarışlarda medal, diplomdan əlavə pul mükafatı ödənilir.

Bu pul mükafatından əlavə onlara ev sertifikatı da verilir. Məsələn, böyük yaşlı idmançıların mübarizəsində qalib gələn ağır atlet pul mükafatı ilə yanaşı, 3 min manatlıq ev sertifikatı qazanır. Sonrakı yarışlarda da uğur qazanan idmançı müvafiq sertifikatları toplayır. Müəyyən məbləğ toplandıqdan sonra atlet həmin sertifikatları şirkətimizə təqdim edir və həmin məbləğdə mənzili pulsuz əldə edə bilir".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 300 (6009) 9 dekabr 2014

# Rusiya Qarabağ siyasətinə korrektələrə hazırlaşır?

**Dağlıq Qarabağ "yükü" bu il də yerindən tərpədilməmiş qaldı. Əslində yekunlaşmaqda olan il münaqişənin həllinə yönəlik təşəbbüslərdən daha çox əsas həmsədr ölkələr - Rusiya və ABŞ arasında aybaay artan gərginliklə yadda qaldı. Belə bir vəziyyətdə ixtilafın həllində hansısa ortaq yanaşmanı gözləməyə dəymir(di) təbii ki. Hərgah həmsədrlər il ərzində verdikləri bəyanatlarda bu ziddiyyətləri gizlətməyə çalışdılar.**

## Kremlin Azərbaycana yeni reveranslarının, Ermənistana isə göz ağartmasının səbəbi; Moskva əlindəki "Qarabağ açarı"nı nəhayət, işə salacaqmı? **Rusiyalı politoloq:** "Kreml problemin tam həllinədək fəallaşmağa qərar verib..."

Beləliklə, nəticə nə olacaqdısa, o da ortadadır. Nəticə isə nəticəsizlikdi. Ancaq il sonu Kremlə yaxın bəzi rusiyalı analitiklərin dilindən belə fikirlər də səsləndi ki, Moskva Qarabağ məsələsində münaqişə tərəfləri ilə artıq şifahi anlaşma əldə edib, sadəcə, onu açıqlamaq qalır. Bu barədə Rusiya, Azərbaycan və Ermənistan mətbuatında da yazılar getdi.

Mümkündür ki, bu kimi fikirlər Rusiyanın Qarabağ məsələsində xüsusilə də Qərb qarşısında öz həlledici rolunu nümayiş etdirib qabartmaq, eyni zamanda olduqca həssas bir durumda atəşkəs rejiminin pozulması risklərini azaltmaq niyyəti güdür. Hər halda, Rusiya Qarabağda yeni müharibənin alovlanmasında maraqlı görünmür.

O da var ki, Moskva tələsir. Çünki gələn il Dağlıq Qarabağ probleminə indiki səviyyədə təsir rıçaqlarına malik olmaya bilər. Odur ki, əlindəki "Qarabağ açarı"nı arada işə salmaq zorundadır. Bu açardan yeni ildə də istifadə olunmayacaqsa, o zaman bir azdan ona ümumiyyətlə gərək qalmaya bilər. Çünki "Qarabağ qıfılı açarları ilə birgə" dəyişdirilə bilər.

O halda Kremlin konfliktdən güddüyü böyük hədəflər də boşuna gedəcək. Bu mənada yaxın perspektiv üçün Moskvanın məsələdə hansısa real təşəbbüskarlıqda bulunması qaçılmaz görünür. Rusiyanın yaxın perspektivdə Qarabağ problemetakisı ilə bağlı fəallaşacağı istisna edilmir. Yuxarıda qeyd edildiyi kimi, bu, ən əvvəl ona Qərb qarşısında öz əzəmətini göstərmək üçün gərəkdir. Rusiyadakı daxili iqtisadi durumun aybaay pisləşməsi də xarici siyasətdə hansısa çeviklik tələb edir. Yoxsa bir azdan Qərb Kremlə heç bir məsələdə hesablaşmaya bilər.

***

Kremlin Qarabağ siyasətinə pozitiv düzəlişlər etmək istəməsinin isə deyəsən, işartıları da artıq var. Məsələn, ATƏT xarici işlər nazirlərinin Bazeldəki ənənəvi illik toplantısı çərçivəsində çıxışı zamanı Rusiya xarici işlər naziri Sergey Lavrov sırf Azərbaycan üçün məqbul sayılan fikirlər söyləyib. Buna reverans da demək olar. Belə ki, Lavrov erməni işğalçı qüvvələri tərəfindən girov götürülən kəlbəcərlilər Dilqəm Əsgərov və Şahbaz Quliyevi tezliklə azad eləməyə çağırıb.



Bu da hamısı deyil. Rusiya xarici siyasət idarəsinin başçısı həm də "bu məsələyə ciddi yanaşılmalı olduğunu" vurğulayıb. Konkret olaraq Rusiya vətəndaşı Dilqəm Əsgərovla bağlı Moskvanın hansı mövqedə olması ilə bağlı suala isə Lavrov qeyd edib ki, Moskva girovların ya qaytarılması və ya da mübadiləsinin tərəfdarıdır.

Belə bir açıqlama əlbəttə ki, erməni işğalçı rejiminin girovlarla bağlı aylardır apardığı təbliğatı faktiki, heç edir. Bir daha təsdiqlənir ki, onlar üzərində düşmən tərəfinin qurduğu məhkəmə fiksiyadan başqa bir şey deyil və bu "prosesin" də hər hansı hüquqi-siyasi nəticəsi olmayacaq. Çünki bunu indi təkcə Azərbaycan bəyan eləmir, Minsk Qrupunun iki aparıcı həmsədr ölkəsindən biri, Ermənistanın 1 nömrəli strateji müttəfiqi, onun varlığına əsas qarant ölkənin XİN rəhbəri söyləyir.

Təbii ki, Lavrov məsələ dərindən araşdırılmadan və girovların günahsızlığına əmin olmadan belə çağırış eləməzdi. Kim bilməsə də, Rusiya xüsusi xidməti Diqləm Əhmədov və Şahnaz Quliyevin suçlu olub-olmadığını asanca dəqiqləşdirə bilərdi. Yəqin ki, araşdırılıb da.

Lavrovun son açıqlaması girovlarla bağlı böyük şou yaradan erməni təbliğat maşınına kifayət qədər sarsıdıcı zərbədir. Axı onlar soydaşlarımızı diversant, qatil kimi mühakimə edir, üzərlərinə ağlasığmaz başqa ittihamlar qoyurlar. İndi belə çıxır, onların bu hoqqalarına əsas qarant ölkə - Rusiya inanmır və bunu şou sayır. Bu, eyni zamanda Dağlıq Qarabağdakı rejimin və onun qondarma məhkəməsinin də qeyri-legitim olduğunun Moskva tərəfindən əyani etirafı hesab oluna bilər.

**XİN başçısının bəyanatındakı bu məqama diqqət yetirən rusiyalı politoloq, "Vestnik Kafqaza" nəşrinin eksperti Andrey Petrov nazirin Qarabağ açıqlamasında girovlarla bağlı nüansı bir neçə həlledici məqamdan biri sayır:** "Bu, Rusiya mövqeyinin daha bir dolayı ifadəsidir ki, bu dəfə Azərbaycanın işğal altındakı ərazilərində əsir götürülmüş azərbaycanlı vətəndaşlarla bağlı ortaya qoyulur. Faktiki olaraq, nazir Ermənistanı Azərbaycan Respublikasına onun vətəndaşlarını geri qaytarmağa çağırıb, çünki bu konfliktin nizamlanmasına yardım edə bilər".

**Lavrovun bəyanatını ümumiləşdirən ekspert belə bir qənaətə gəlir:** "Bu gün Rusiya Qarabağla bağlı öz işlərini problemin tam həllinədək fəallaşdırmağı bəyan edib".

***

Əlbəttə ki, rusiyalı ekspert qədər optimist deyilik. Ən azı ona görə ki, Kreml verdiyi vədlərə çox vaxt əməl etməyən ölkə olduğunu dəfələrlə əyani sübut edib. Ancaq minimum bir təsəlliverici və müsbət reallıq var ki, Lavrovun bəyanatından sonra erməni tərəfi azərbaycanlı girovların təhlükəsizliyinə başları ilə cavabdeh olacaqlar. Yəni onların həyatına risklər sovuşmuş hesab edilə bilər.

Bu, Azərbaycan tərəfinin də, girovların da xeyrinə olan çox mühüm yenilikdir. Eyni zamanda təbliğat və informasiya savaşında əhəmiyyətli uğurdur. Qalır bircə girovların sağ-salamat qaytarılması və sözsüz ki, Qarabağ məsələsində, nəhayət, işıq ucunun görünməsi.

# İzolyasiyada boğulan Ermənistanın xarabalıqları







## Düşmən ölkə ərazisinin 40 faizindən çoxu acınacaqlı vəziyyətdədir

**26 il qabaq - 1988-ci ilin dekabrında Ermənistanda baş vermiş zəlzələnin nəticələri hələ də aradan qaldırılmayıb. Erməni mətbuatı hələ də zəlzələnin baş verdiyi Spitak və Gümrü şəhərlərinin xarabalıq içində olduğunu vurğulayır (anspress).**

Erməni jurnalist Samvel Ohanesyanın yazdığına görə, aradan 26 il keçməsinə baxmayaraq zəlzələnin mərkəzinə düşmüş Spitak şəhərində yarımçıq evlər və vaqonlarda yaşayan ailələrin sayı yetərincədir. Vaqonların əksəriyyəti 1988-ci ildən qalıb.

Ermənistanda fəaliyyət göstərən "Şirak" mərkəzinin hazırladığı videoçarxlardan görünür ki, vaqonlarda əsasən qadınlar, uşaqlar və yaşlı insanlar yaşayır. Həmin ailələrin əmək qabiliyyətli kişiləri isə Rusiyaya əmək miqrantı kimi gedib və geri dönməyiblər.

Gümrüdə yaşayan bir çox ərsiz qadınlar dolanışığını şəhərdə yaşayan Rusiya hərbçilərindən çıxarırlar. Məsələn, "Şirak" mərkəzinin çəkdiyi bir videoçarxda erməni qadın iki uşağın atası olan ərinin 10 ildən çoxdur ki, Rusiyaya getdiyini və evə pul göndərmədiyini bildirir. Qadın həmin illərdə qeyri-rəsmi yaşadığı Rusiya hərbçilərindən iki uşaq da dünyaya gətirib və həmin hərbçilərin etdiyi "yardım"la dolanır.

Ermənistan ərazisinin 40%-ni əhatə edən zəlzələ Spitak şəhərini və 58 kəndi tam dağıdıb. Gümrü (Leninakan) və Vanadzor (Kirovakan) şəhərləri isə qismən dağılıb. 100 min ailə evsiz qalıb. Zəlzələdən bir neçə gün qabaq ermənilər ərazidə qədimdən yaşayan yerli azərbaycanlı əhaliyə hücum edərək Azərbaycana qaçmağa məcbur ediblər. Erməni millətçiləri zəlzələdən zərər çəkənlərə yardım etməyə getmiş Azərbaycan xilasedicilərinin təyyarəsini yanlış koordinatlar verərək qəzaya uğradıblar.

Sovet dövründə SSRİ rəhbərliyi Spitakın və başqa şəhərlərin bərpası ilə bağlı xüsusi proqram qəbul etmişdi. SSRİ dağıldıqdan sonra isə bu proqramlar hamısı dayandı. Həmin proqrama rəhbərlik edən general-mayor Nikolay Tarakanov 1998-ci ildə hadisə yerinə baş çəkib və zəlzələ zonasının tam xarabalıq içində qaldığını qeyd edib. **"Ermənilər başa düşür ki, SSRİ-nin dağılması ilə hər şeyi itiriblər. Bir saat içində Spitakın, Gümrünün və Axuryan rayonunun bərpa proqramı dayandırıldı"**, - deyə Tarakanov vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 300 (6009) 9 dekabr 2014


Əli Şəfiyev

# Nazir müavini böyük narkotranzit yollarından danışdı

## Əli Şəfiyev: "Tranzit daşınmaları ilə mübarizədə səylərin birləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir"

**Bu il iyunun 11-də Gürcüstan Daxili İşlər Nazirliyi 3 tona yaxın maye heroin daşıyan qaçaqmalçıları saxladı. Məlum oldu ki, həmin heroin İrandan Azərbaycan ərazisinə keçirilib və sərhədlərimizi aşaraq Gürcüstana daxil olub. Bu günə qədər ölkə rəsmilərindən bunca heroinin ölkə sərhədlərini necə aşması haqda açıqlama verilməyib.**

"Narkomanlığa düçar olmuş uşaqların və qadınların ailədə və cəmiyyətdə hüquqlarının müdafiəsi" mövzusunda keçirilən beynəlxalq konfransda çıxışı zamanı Azərbaycanın milli təhlükəsizlik nazirinin müavini Əli Şəfiyev deyib ki, İran-Azərbaycan-Gürcüstan-Avropa marşrutları ilə narkotik daşınması kanalları aşkarlanıb. APA-nın məlumatına görə, nazir müavini narkomaniya və narkotik daşımalarına qarşı mübarizədən danışarkən deyib ki, son illər uğurlu əməliyyat tədbirləri nəticəsində ölkədə narkotiklərin qanunsuz dövriyyəsi cəhdlərinə qarşı mübarizə işi daha da gücləndirilib. Ə.Şəfiyevin sözlərinə görə, əlverişli geostrateji mövqeyə malik olan, iqtisadi baxımdan inkişaf edən Azərbaycan üçün də mütəşəkkil cinayətkarlıqla mübarizə çox aktualdır: "Bu baxımdan narkotiklərin qaçaqmalçılığı və və tranzit daşınmaları ilə mübarizədə səylərin birləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Son illər narkotiklərin yayılma coğrafiyası və əhatə etdiyi kontingent xeyli genişlənib, narkomaniya bəlasına düçar olanlar arasında uşaqların, qadınların sayı əvvəlki dövrlərlə müqayisədə artıb. Yaranmış acınacaqlı vəziyyət bütün dünyada, eləcə də ölkəmizdə təcili və təxirə salınmaz tədbirlərin görülməsini zəruri edir".

**Nazir müavini qeyd edib ki, əgər 2004-cü ildə MTN tərəfindən cəmi 25 kq narkotik vasitə götürülmüşdürsə, 2010-cu ildə bu rəqəm 1 ton 183 kq-a çatıb:** "Transmilli, mütəşəkkil cinayətkar dəstələr tərəfindən narkotik vasitələrin İran-Azərbaycan, Dağlıq Qarabağ-İran-Azərbaycan, İran-Azərbaycan-Rusiya-Yaponiya, İran-Azərbaycan-Gürcüstan-Avropa marşrutları ilə daşınması kanalları aşkarlanıb, bir necə qrup və ayrı-ayrı şəxslər məsuliyyətə cəlb olunublar". Ə.Şəfiyev deyib ki, narkomanlıq genofondumuza vurulan ağır bəla kimi qiymətləndirilir, ona qarşı ardıcıl mübarizə aparılır: "Düşünürük ki, bu dəhşətli bəla nəinki dövlət qurumlarını, ictimai təşkilatları, ümumən cəmiyyəti narahat etməlidir. Bu mübarizə yalnız inzibati metodlarla aparılmalı deyil, tutduğu vəzifə və statusundan asılı olmadan hər kəsin işinə çevrilməlidir. Narkomanlığın doğurduğu təhlükələr hərtərəfli qiymətləndirilməli və ona qarşı mübarizə tədbirləri əlaqələndirilmiş formada aparılmalıdır".

**Ə.Şəfiyev gənclərin bu bəlaya düçar olmasının başlıca səbəblərindən birinin ailə və cəmiyyətin dəstəyindən kənarda qalmaları olduğunu söyləyib. Nazir müavininin sözlərinə görə, Azərbaycan üçün narkotiklərin qanunsuz dövriyyəsində son illər müşahidə olunan artım tempi həm xarici, həm də daxili amillərlə bağlıdır:** "Xarici amillərə gəlincə, bu sırada ən birincisi, Azərbaycanın 20 faizdən artıq ərazisini işğal altında saxlamaqla beynəlxalq hüquq və normaların prinsiplərini pozan Ermənistanın milli təhlükəsizliyimiz üçün doğurduğu təhdidlər qeyd olunmalıdır. Ermənistan tərəfindən Dağlıq Qarabağ və işğal altındakı digər ərazilərimizin Azərbaycan hökumətinin və beynəlxalq birliyin nəzarətindən kənar bölgəyə çevrilməsi, həmin ərazilərdə transmilli mütəşəkkil cinayətkarlığın, o cümlədən narkotik vasitələrin becərilməsi, qanunsuz dövriyyəsi və digər cinayətkar fəaliyyətlərin genişlənməsinə şərait yaradıb. Narkotiklərin qanunsuz dövriyyəsinə şərait yaradan digər mühüm xarici amil Azərbaycanın geostrateji mövqeyi, şərq-qərb və şimal-cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməsidir. Həm bu mövqe, həm də ölkəmizin həyata keçirdiyi regional əhəmiyyətli layihələr və çoxtərəfli inteqrasiya meylləri cinayətkar birliklərin diqqətini bölgəyə cəlb edir".

❑ E.MƏMMƏDƏLİYEV

# Məzahir Pənahov əhalinin seçkiyə gəlməyəcəyindən narahatdır

## İcra başçılarına bələdiyyə seçkiləri ilə bağlı tapşırıq verilib

**Bələdiyyə seçkilərinə iki həftə qaldı. Dekabrın 23-də keçiriləcək seçkiləri müxalifət düşərgəsi və bir sıra siyasi təhlilçilər son 20 ilin ən sönük seçkilərindən biri olaraq xarakterizə edir. Ölkədə seçki ab-havası demək olar ki, yoxdur. Seçki komissiyalarının təşkilati-texniki hazırlığından və MSK sədri Məzahir Pənahovun ara-sıra mediaya verdiyi açıqlamalardan başqa seçki olduğunu göstərən hansısa bir prosesə rast gəlmək mümkün deyil.**


Məzahir Pənahov

Yaxınlaşmaqda olan seçkilərdə 118 seçki dairəsinin 1607 bələdiyyəsinə 15 min 35 nəfər seçilməlidir.

MSK bəyan edib ki, bələdiyyə seçkiləri üçün 4 milyon 976 min 302 seçki bülleteni çap ediləcək.

Dünən isə Prezident Administrasiyası, Mərkəzi Seçki Komissiyasının (MSK) və Avropa Şurasının Azərbaycandakı nümayəndəliyinin təşkilatçılığı ilə "Seçki prosesində yerli icra hakimiyyətləri və dairə seçki komissiyalarının səlahiyyət və vəzifələri" mövzusunda icra başçıları və dairə seçki komissiyalarının sədrləri üçün informasiya sessiyası keçirilib.

Sessiyada Prezident Administrasiyası Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsi müdirinin müavini Hüseyn Mövsümov, MSK sədri Məzahir Pənahov, Avropa Şurasının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Draqana Filipoviç iştirak edib.

**MSK sədri Məzahir Pənahov** regionlarda bu qəbildən iki sessiya keçirildiyini, Bakıda keçirilən sessiyanın sonuncu olduğunu söyləyib. O bildirib ki, bələdiyyə seçkilərinə marağın çox olduğu müşahidə edilir. 37 min 100 nəfərdən çox namizədin adı bülletenlərə daxil edilib. Bu, keçən bələdiyyə seçkilərindəki namizədlərdən 7 min nəfər artıqdır. Keçən seçkilərdə hər bələdiyyə üzvlüyünə 2 namizəd vardısa, bu il orta hesabla 2,5 namizəd var: "Nəzərə alsaq ki, bələdiyyələrin sayı əvvəlki seçkilərə nisbətən azalıb, deməli, bələdiyyə seçkilərinə maraq yüksəkdir. 300 nəfərə qədər namizəd qeydə alınandan sonra namizədlikdən imtina edib. Namizədliklə bağlı müraciət edənlərin 99 faizi qeydə alınıb".

**M.Pənahov qeyd edib ki, səsvermə zamanı seçicilərə və onların nümayəndələrinə hansısa maneçilik törədilməyəcək:** "İndiyə qədər 10 minə qədər müşahidəçi qeydə alınıb. Hər məntəqə üzrə 3 müşahidəçinin olacağı gözlənilir. Ümumilikdə 30 partiyanın üzvü bələdiyyə üzvlüyünə namizəddir. Artıq bütün seçki məntəqələri, dairə seçki komissiyaları seçkiyə hazırdır. Bizi yeganə narahat ola biləcək məqam seçicilərin aktiv iştirakıdır. Bu sahədə maarifləndirici işlər aparılır, seçicilər seçkidə aktiv iştirak etməyə çağırılır. Biz seçicilərin seçkidə aktiv iştirakı üçün bundan sonra da əlimizdən gələn işləri görəcəyik".

M.Pənahov Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinə bələdiyyə seçkilərinə müşahidəçilərin göndərilməsi üçün noyabr ayında rəsmi müraciət etdiklərini də deyib.

**Prezident Administrasiyasının rəsmisi H.Mövsümov isə seçkilərin demokratik keçirilməsi ilə bağlı tapşırıq verildiyini bildirib:** "Prezidentin tələbidir ki, seçki prosesinə yerli icra hakimiyyətlərinin və bələdiyyələrin qarışmasının qarşısı ən kəskin şəkildə alınsın. Prezidentin tapşırığı ilə dairə seçki komissiyalarına normal iş şəraiti yaradılmasına xüsusi diqqət yetirilib, komissiyalar normal avadanlıqlarla təmin olunub. 2009-cu ildən bu işə xüsusi diqqət yetirilir"

**H.Mövsümov Azərbaycanda seçki təbliğatı və təşviqatı ilə bağlı 2837 yerin müəyyən edildiyini açıqlayıb. Bu yerlərdən 1436-sı qapalı, qalanı açıqdır. Bakıda bununla bağlı 53 qapalı yer müəyyənləşdirilib:** "Bu bələdiyyə seçkiləri əvvəlki seçkilərdən fərqlənəcək. Artıq bələdiyyələr sosial məsələlərin həllində mühüm qurumlara çevriliblər. Torpaq vergisi və digər vergilərlə bağlı qəbul edilən qanunlar bələdiyyələrin imkanlarını genişləndirəcək. Ərazisi kiçik bələdiyyələrin birləşməsi nəticəsində 94 yeni bələdiyyə yaradılıb və bələdiyyələrin sayı 1607 olub. Birləşmiş bələdiyyələr bir neçə yaşayış məntəqəsini əhatə edəcək. Bələdiyyələrin effektiv işləməsi üçün layiqli üzvlər seçilməlidir. Biz fəal gənc və qadınların, yüksək səviyyəli mütəxəssislərin seçildiyi bələdiyyələrin formalaşmasını gözləyirik. Seçkilərin şəffaf və demokratik keçirilməsini istəyirik".

❑ E.SEYİDAĞA

# Enerji və su kimi strateji obyektlər fövqəladə vəziyyətlərə hazırdırmı?

**Xarici ölkələrdə paytaxtların strateji obyektləri bütün fövqəladə hadisələrə hazır vəziyyətdə olur. Yəni yaranmış problem nəticəsində işıq sönərsə, elektrikə bağlı olan heç bir strateji obyektin hərəkəti dayanmır. Eyni zamanda qazın və suyun verilməsində yarana biləcək hansısa problemləri də əhali sezmir. Azərbaycanda isə durum bir qədər fərqlidir. Belə ki, suyun verilməsində yaranan xırda bir problem əhlinin susuz qalmasına, qazda olan problem qazsız qalmasına, elektrikin verilməsində yaranan bir neçə dəqiqəlik nasazlıq və fasilə isə paytaxtın hətta metro kimi strateji obyektinin dayanmasına səbəb olur.**


**Tanrıverdi Mustafayev:** "Elektrikin verilməsində maneə yaranmayacaq"


**Anar Cəbrayıllı:** "Ölkənin hər yerində ümumi tutumu 1 milyon kubmetrə yaxın anbarlarımız var"

Xatırlayırsınızsa, bir neçə il bundan əvvəl Bakı Metropoliteinində elektrik enerjisinin kəsilməsi nəticəsində qatarların hərəkəti dayandırılmışdı. Maraqlıdır, hazırda Azərbaycanda vəziyyət necədir?

**"Bakıelektrikşəbəkə" ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev** bildirdi ki, "Azrenerji" iki qüvvəli xətdən istifadə edərək bütün qəzaların qarşısını ala biləcək qüvvədədir: "Hətta son zamanlar apardığımız yenidənqurma işləri nəticəsində iki qüvvəli elektrik verilişi xətləri yaradılıb. Xatırlayırsınızsa, bir müddət əvvəl enerji verilməsində müəyyən fasilələr yaranırdısa, gözləməliyidik ki, xətdəki nasazlıqlar aradan qaldırılsın, daha sonra enerji təchizatı bərpa olunsun. Əgər hər hansısa bir qəza, fövqəladə hadisə yaranarsa, "Azərenerji" operativ olaraq stansiyalararası əlavə iki qüvvəli xətdən istifadə edərək bunun qarşısını ala bilər. "Bakıelektrikşəbəkə" xətlərin təhlükəsizliyini qoruyur. Yəni hansısa fövqəladə vəziyyət olarsa, elektrikin verilməsində hər hansısa bir fasilə yaranmayacaq. Çünki "Bakıelektrikşəbəkə"nin əlavə xətlərdən enerji təchiz eləmək imkanı var".

**"Azərsu" ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı isə "Azərsu"nun hər bir vəziyyətə hazırlıqlı olduğunu bildirdi:** "Bizim Azərbaycanın şərqində, qərbində, şimalında, bir sözlə, hər yerində ümumi tutumu 1 milyon kubmetrə yaxın olan su anbarlarımız var. Biz bu anbarların ehtiyatlarından istifadə edib Bakı şəhərini 1-2 gün müddətinə su ilə təmin edə bilərik. Təbii ki, bu vaxt ərzində də yaranmış qəzanı aradan qaldıra bilərik. Bizdə relyef kimi anbarlar var. Bundan paylamada istifadə edirik. Çünki bu anbarlar paylamada çox böyük dividentlik edir və işimizi asanlaşdırır. Həmçinin qəza zamanı da bu anbarlardan istifadə edirik. Elə vaxt olur ki, hansısa qəza baş verir və biz suyun verilməsini bir gün saxlayırıq. Amma bunu camaata elan vermirik ki, su xəttimizdə qəza var. Bu anbarların imkanından istifadə edib əhalini su ilə təmin edirik. Beləcə suyun verilməsinə heç bir məhdudiyyət qoyulmadan qəzanı aradan qaldırırıq".

❑ Günel MANAFLI

YENİ MÜSAVAT
N 300 (6009) 9 dekabr 2014



# Vəhhabizmə qarşı savaş ritorikası niyə dayandı - şok iddia!

## Din sahəsində yeni gəlişmələr; vəhhabilərin himayədarları hökumətin radikallara qarşı kampaniyasını dayandırmağa nail olublar, Şeyx isə ətrafını gücləndirmək üçün gənc ruhaniləri işə cəlb edir

**Azərbaycanda bu ilin əvvəlində vəhhabilərə və radikal dini qruplara qarşı başlanmış kampaniya dayanıb. Bir neçə ay ölkə gündəminin əsas hadisəsi olan və rəsmi şəxslər tərəfindən geniş müzakirə olunan, az qala ictimai kampaniyaya çevrilən proses artıq demək olar ki, unudulub. Hətta bir qədər əvvəl mediada radikal cərəyanlara qarşı əməliyyatların başlayacağı, eləcə də radikalizmi, həmçinin xarici ölkələrə döyüşçü göndərilməsini təşkil edən şəxslərin həbs olunacağı ilə bağlı hətta rəsmi şəxslər tərəfindən açıqlamalar verildi.**

Qeyd edək ki, bu ilin əvvəlindən Azərbaycanda radikal dini qruplara qarşı, o cümlədən Suriyada gedən savaşlara qatılan azərbaycanlılarla bağlı rəsmi səviyyədə münasibət bildirildi. QMİ Suriyada gedən savaşın cihad olmadığı ilə bağlı fitva verdi, hökumət orqanları isə xarici ölkələrdə gedən savaşlara qatılan ölkə vətəndaşlarının cinayət məsuliyyəti daşıyacağını bildirdilər. Bundan sonra həm Milli Məclisdə, həm də hökumətin, eləcə də əlaqədar rəsmi və ictimai qurumların ölkədə radikal cərəyanlara qarşı çağırışları yayılmağa başladı.

Bundan sonra ölkənin bir sıra bölgələrində radikalizmi təbliğ edən, eləcə də xarici ölkələrə, xüsusən də Suriyaya savaşmaq üçün insanları təşviq edənlərin ifşa olunaraq məsuliyyətə cəlb olunması halları baş verdi. Bakıda, Sumqayıtda, eləcə də bir sıra regionlarda əməliyyatlar keçirildi, həbslər oldu. Bundan başqa, radikalizmi təbliğ edən bəzi məscidlərin icma rəhbərləri, imamları dəyişdirildi. Ancaq bu prosesin davamlı olacağı haqda məlumatlar yayıldı. Bildirilirdi ki, bu ilin əvvəlində Azərbaycan dövlət rəhbərliyinə ölkə ərazisindəki radikal dini qrupların fəaliyyəti, eləcə də ölkədən Suriyaya, İraqa kütləvi şəkildə gənclərin döyüşmək üçün getməsini təşkil edən şəbəkə barədə əhatəli sənəd hazırlanıb. O da qeyd olunurdu ki, müvafiq dövlət qurumlarının hazırladığı dosyedə narahatlıq doğuran problem detallı şəkildə əksini tapıb.

Sənəddə ölkə daxilində radikal fəaliyyətləri dəstəkləyən, təşviq edən mərkəzlər, Suriyaya döyüşçü aparan şəbəkə, onları maliyyələşdirən qaynaqlar, qeyri-leqal maliyyə şəbəkələri, eyni zamanda ölkə daxilində və xaricdən məhz radikal qrupları, radikalizmi təbliğ edən məscidlərin saxlanılması üçün ayrılan pullar və onların ötürülməsi sxeminin qeyd olunduğu vurğulanır. Eyni zamanda konkret olaraq bu qrupları maliyyələşdirən biznes qurumlarının siyahısının hazırlanaraq ölkə rəhbərliyinə təqdim olunduğu iddia edilir.

Bizə çatan məlumatlara görə, vəhhabilərə qarşı, ümumiyyətlə, ölkədə fəaliyyət göstərən radikal cərəyanlara qarşı planlaşdırılan ifşa prosesinin dayandırılmasının xüsusi səbəbi var. Belə ki, gələn bilgilərə görə, radikal dini qruplar, vəhhabilərə qarşı başladılan prosesin dayandırılmasında qlobal rüşvət amili rol oynayıb. Belə ki, daha əvvəl də istifadə olunan “metodla”, yəni rüşvət verməklə müvafiq sahəyə cavabdeh olan şəxslərlə müəyyən anlaşma əldə olunub. Anlaşmanın detalları bəlli olmasa da, redaksiyamıza göndərilən məlumatda bildirilir ki, dövlətin dini sahəyə cavabdeh yüksək vəzifəli məmurları Səudiyyə Ərəbistanı və BƏƏ-dən olan vəhhabi himayədarları ilə anlaşıblar. Bu məqsədlə böyük miqdarda pul ayrıldığı da qeyd olunur.

Qeyd edək ki, bu şəkildə fəaliyyət daha əvvəl də müşahidə olunub. Hətta bir qədər əvvəl mətbuat üçün brifinq keçirən ekspert Aydın Əlizadə radikal dini qrupların maliyyə şəbəkəsi haqda maraqlı faktlar səsləndirmişdi. Onun sözlərinə görə, sələfilər üçün toplanan ümumi illik maliyyə təxminən 5 milyon dollar həcmindədir. Bu məbləğə həm xaricdən göndərilən yardımlar, həm biznes strukturlarına yatırılmış maliyyə və sələfilərin özlərinin idarə etdiyi biznes əməliyyatlarından gələn gəlir, həm də zəkat formasında vəhhabi üzvlərdən yığılan vəsaitlər daxildir. Bu pulların hamısı təbliğata, nəşr vəsaitlərinə, “dəvətçi”lərin əmək haqlarına, bir sıra hallarda məsul şəxslərin ələ alınmasına və s. sərf olunur.

O cümlədən bu ilin əvvəlində redaksiyamıza ötürülən məlumatlarda qeyd olunurdu ki, Azərbaycanın bəzi rəsmi şəxsləri, o cümlədən QMİ sədri Allahşükür Paşazadə vaxtilə vəhhabiliyin Azərbaycanda yayılmasına şərait yaratmaq və ya sadəcə buna göz yummaq müqabilində böyük miqdarda “yardımlar” alıblar. Redaksiyamıza həmin vaxt göndərilən materiallarda göndərilən pulların məbləğləri də qeyd olunurdu.

Son olaraq bizə verilən məlumatda köhnə taktikanın yenidən işə salındığı və hədəfə götürülən vəhhabi təşkilatları, məscidləri və ayrı-ayrı şəxsləri himayə eləmək üçün hökumətdə din sahəsinə cavabdeh olan bəzi məmurlara böyük məbləğdə rüşvət verilib. Məhz bu səbəbdən hiss olunmadan mövzu, necə deyərlər, arxa plana keçib. Halbuki ilin əvvəlindən Azərbaycanda və regionda mahiyyət etibarı ilə dəyişən nəsə yoxdur. Əksinə, durum daha da pisləşib. Bundan başqa, Azərbaycandan hələ də insanlar İraqa və Suriyaya döyüşmək üçün getməkdə davam edirlər.

Yeri gəlmişkən, son aylarda ciddi hücumlara məruz qalan QMİ sədri Şeyxülislam Allahşükür Paşazadə ənənəvi İslam icmaları arasında dayaqlarını möhkəmləndirməyə çalışır. Bu barədə bizə verilən bilgilərə görə, şeyxülislam son bir ildə QMİ-yə və paytaxtın bir sıra məscidlərinə nisbətən gənc nəslin nümayəndələri hesab olunan, savadlı və nüfuzlu şəxsləri işə alıb. Cənub zonasında dindarlar arasında böyük nüfuza malik, yüksək səviyyədə dini təhsili olan Mircəfər Əyyubzadə QMİ-nin fətva şöbəsinə işə alınıb. Əslində Mirəziz Seyidzadənin vəfatından sonra faktiki olaraq boş qalan fətva şöbəsinə M.Əyyubzadə rəhbərlik edir. Bundan başqa, nüfuzlu ilahiyyatçı-filosof Elşən Mustafaoğlu QMİ-də informasiya mərkəzinə işə götürülüb. İlahiyyatçı Hacı Şahin Həsənli QMİ sədrinin Nəsimi rayonu üzrə səlahiyyətli nümayəndəsi təyin olunub. Qeyd etdiyimiz kimi, paytaxtın bir sıra məscidlərinə müəyyən qədər cavan və savadlı, nüfuzlu ruhanilər təyin olunub. Müşahidəçilərə görə, şeyxülislam bununla dini camiədə mövqelərini möhkəmlətmək, dayaqlarını gücləndirmək istəyir.

❑ **Natiq UMUDOV**

# ABŞ-Azərbaycan münasibətlərinə iki fərqli baxış

## Politoloqlar Ağ Evlə rəsmi Bakı arasındakı gərginliyi müxtəlif aspektlərdən şərh etdilər

**Son zamanlar Azərbaycan hakimiyyətinin ABŞ-la münasibətləri son dərəcə gərginləşib. Amerika təsisatları ilə bu və ya digər şəkildə bağlılıqları olan şəxslərin həbsi də ABŞ-a qarşı planın tərkib hissəsi kimi səciyyələndirilir. Həmçinin iqtidar rəsmilərinin verdikləri bəyanatlar da kifayət qədər sərtdir.**



AzadlıqRadiosunun əməkdaşı Xədicə İsmayılın həbsini isə bir sıra ekspertlər ABŞ-Azərbaycan münasibətlərinin ən kritik həddə çatması kimi təqdim edirlər. Bu məsələnin sonrakı mərhələsi ilə bağlı müxtəlif fikirlər var. Bir qrup hesab edir ki, iqtidar atdığı addımlarla Amerikaya qarşı qırmızı xətti keçmir. Digər bir qrup isə düşünür ki, aparılan siyasət nəticəsində sonda Azərbaycana qarşı sanksiyalar qaçılmaz olacaq.

**Politoloq Natiq Miri** düşünür ki, Azərbaycan hakimiyyəti ABŞ-a qarşı siyasətində heç zaman qırmızı xətti keçmir: “ABŞ-ın indiki mərhələdə Azərbaycana qarşı ciddi sanksiyalar tətbiq etməsi real deyil. Bunu hakimiyyət bilir. Hər halda, bu gün sanksiyaların tətbiq olunması mərhələsi çatmayıb. Çünki Amerikanın siyasi və iqtisadi yönümdə problemləri var. Həm Ukrayna, həm İran, həm də Yaxın Şərqdə - Suriya məsələsində problemlər yaşayır. Bunun üstünə də terror qrupları ilə mübarizəni əlavə etsək, mənzərə kifayət qədər aydın görünür. Bu şəraitdə sanksiyalar Qərbin özünə mənfi təsir göstərər. Azərbaycan bunları çox gözəl anlayır. Ölkəmizdə baş verən prosesləri regionda gedən hadisələrlə əlaqələndirmək olar. Türkiyənin də ABŞ-la müəyyən problemləri var və onlar hələ öz həllini tapmayıb. Nəzərə almaq lazımdır ki, Türkiyənin hazırda Rusiya ilə müəyyən yaxınlaşması prosesi gedir. Bu həm iqtisadi, həm də siyasi yöndə olan yaxınlaşmalardır. Azərbaycan da bu proseslərdən kənarda deyil. Təbii ki, Azərbaycan Rusiyanın könlünü almaqla iqtisadi yönümdə müəyyən dəstək verir. Bunun müqabilində Azərbaycanın Rusiyadan umacaqları var. Yaxın zamanlarda Dağlıq Qarabağ problemi həllini tapmasa, ən azından yaxın bir neçə il işğal altında olan rayonlar boşaldılmasa, təbii ki, Azərbaycan tədricən Rusiyadan uzaqlaşacaq. Bunu Rusiya bilməmiş deyil. Çox incə bir oyun oynanılır. Azərbaycan bəzi nüanslara görə Rusiyaya yaxınlaşırsa, Rusiya da Cənubi Qafqazda möhkəmləmək üçün Türkiyəyə yaxınlaşır. Bu plan həyata keçərsə, Azərbaycanın Qərbə inteqrasiyasının qarşısı alınacaq. Bütün bu və ya digər amillərə görə Azərbaycan ABŞ-a qarşı bəyanatlar verir. Təzyiqlər də ola bilər. Amma bunlar ciddi addımlar deyil. Bu təzyiqlər bir neçə adamın həbsi ilə bağlıdır”.

**Natiq Miri Azərbaycan tərəfindən ABŞ-la əməkdaşlıq siyasətinə xələl gətirilmədiyini də qeyd etdi:** “Fikir versək görərik ki, ABŞ-ın geosiyasi maraqlarına istər region, istərsə də Azərbaycanda xələl gətirilmir. Hakimiyyət anlayır ki, bu münasibətlərə xələl gətirildiyi təqdirdə, təbii ki, ABŞ buna cavab verəcək. Azərbaycan bu kontekstdə qətiyyən qırmızı xətti keçmir və Amerika Azərbaycana qarşı sərt sanksiyalar verməyəcək. İqtidar müəyyən bir zaman kəsiyində Rusiyanın könlünü almaqla problemlərini həll etmək istəyir. Sadəcə, hakimiyyət öz maraqlarımızı təmin etmək istəyir. ABŞ isə istədiyi vaxt Azərbaycanda yüzlərlə Xədicə İsmayıl yarada bilər. Bu, onlar üçün heç zaman problem olmayıb. Sadəcə, anlamaq lazımdır ki, bu həbslərə münasibət boş-boş bəyanatlardan o yana keçməyəcək. Yürüdülən siyasət budur. ABŞ əmindir ki, Azərbaycan heç vəchlə Avrasiya İttifaqına qoşulmayacaq. Olacağı təqdirdə, bu, qırmızı xətti keçmək olacaq. ABŞ yalnız o zaman hərəkətə keçəcək”.

**Şərq-Qərb Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclu isə fərqli düşünür. O hesab edir ki, Azərbaycan-ABŞ münasibətləri ciddi şəkildə zədələnib:** “Baş verən həbsləri və digər amilləri qoyaq kənara. Bütün baş verənlər münasibətlərin korlanmasının əlamətidir. Bu yeni bir tendensiya deyil. Ehtimal etmək olur ki, ABŞ-Azərbaycan münasibətləri ciddi şəkildə zədələnib. Getdikcə bu münasibətlər kəskinləşməyə doğru gedir. Hər iki tərəfin mövqeyində kəskinləşmə özünü büruzə verir. ABŞ-da oturuşmuş praktika var deyə, əsas fikir ifadə edən Dövlət Departamentinin sözçüsüdür. Əslində ABŞ hökumətinin mövqeyini ifadə edir. Azərbaycanda bu tamam fərqli xarakter daşıyır. Baş verən gərginliyin səbəbini söyləmək çətindir. Daha çox Azərbaycanın Rusiyaya yaxınlaşmasını ehtimal etmək olar. Səbəb nədir? Sadəcə, Azərbaycan Rusiyadan çəkinərək bu addımları atır. Görünən budur ki, Azərbaycanın Rusiyaya münasibəti dövlət rəsmlərinin dilindən açıq şəkildə eşidilməkdədir. Rusiyanın ünvanına açıq şəkildə sərt, tənqidi mesajlar heç zaman verilmir. Nəzərə alsaq ki, Azərbaycanın ABŞ-a qarşı sanksiyalar tətbiq etməsi mümkünsüzdür, amma Amerikanın bu imkanları böyükdür. Deməli, sanksiyalar mümkündür. Amma ən yaxın mərhələdə gözləmirəm. Güman edirəm ki, o anlara çatmaq üçün bütün imkanlardan istifadə olunacaq”.

**Ərəstun Oruclu X.İsmayılının həbsinin hakimiyyətin ABŞ-a meydan oxuması kimi qiymətləndirilməsi ilə razılaşmadığını qeyd etdi:** “Öz vətəndaşlarını həbs etməyi hansısa dövlətə meydan oxumaq kimi təqdim etmək doğru fikir deyil. Bu bir az məntiqsiz səslənir”.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 300 (6009) 9 dekabr 2014

# Efirdə "şpaqat" açmaq doğrudurmu? - ekspert danışdı

## Tanınmış teleaparıcı Mətanət Əliverdiyevanın canlı yayımda "şpaqat" hərəkəti tənqid atəşinə tutuldu

**Tanınmış teleaparıcı Mətanət Əliverdiyevanın canlı yayımda "şpaqat" açma hərəkəti hər kəsi şoka salıb. ATV kanalının "Gündəlik" verilişində aparıcı rəqs sonrası "şpaqat" açıb. Bunun nəticəsində onsuz da böyük yarığı olan paltarında bir az da "yarıq" açılıb. Aparıcının qeyri-ciddi hərəkəti zalda olan tamaşaçılar tərəfindən alqışlansa da mətbuatda və sosial şəbəkələrdə tənqidlə qarşılanıb.**






**Əməkdar jurnalist, teletənqidçi Qulu Məhərrəmli** olay barədə "Yeni Müsavat"a öz şərhini bildirib:

"Şou tipli verilişlərdə aparıcıların ssenari arası xüsusi istedad göstərməsini normal hesab etmək olar. Ancaq Mətanətin bu hərəkəti çox qəribə oldu. Çünki bu xanım xəbər oxuyur və qeyd edim ki, çox gözəl xəbər səsi var. Verilişlərində də çalışır ki, mənəvi-sosial problemlərə toxunsun. Ancaq bu cür aparıcının bu tip verilişdə "fokus" göstərməsini düzgün hesab etmirəm. Harada görünüb ki, xəbər aparıcısı verilişdə "şpaqat" açsın. Əgər qonşu ölkələrdən Rusiya və yaxud Türkiyə televiziyalarına diqqət yetirsək, şahidi olarıq ki, xəbər aparıcıları belə hərəkətlərə qətiyyən yol vermir".

Bu gün efirlərdə "şpaqat" açan, açıq-saçıq geyimlərlə tamaşaçıların görüşünə gələn, bəzən biədəb hərəkətlərə, hətta söyüş tipli bayağı sözlərə müraciət edən aparıcıları görürük. Ziyalı vətəndaşlar arasında keçirdiyimiz kiçik sorğudan məlum olur ki, onlar ölkəmizin kanallarındansa, xarici TV kanal və verilişlərinə üstünlük verirlər. Səbəb kimi isə verilişlərin və aparıcıların fəaliyyətinin keyfiyyətsiz olduğu irəli sürülür.

**Q. Məhərrəmli bildirdi ki, hər şey verilişi tərtib edən rəhbərlikdən asılıdır:**

"Hamıya məlumdur ki, verilişlərin hazırlanması, aparıcının hərəkətlərinin tənzimlənməsi həmin verilişin rejissor və prodüserindən asılıdır. Yəni bu gün verilişlərə hansısa qadağa və yaxud senzura qoyulmasına ehtiyac yoxdur, əlbəttə ki, əgər verilişi tərtib edənlər öz işlərini yaxşı qura bilsələr".

**Adıçəkilən aparıcının həmkar dostları ilə əlaqə saxladıq. Lakin onlar dostluq əlaqələrinə zərər gəlməsin deyə danışmaq istəmədilər. Aparıcı ilə uzun illər birlikdə işləyən həmkarının dediklərindən:**

"Onun bu hərəkətinə qarşı heç nə deyə bilmərəm. Biz dostuq. Əgər bunu başqası etsəydi, təbii, öz tənqidimi bildirərdim. Etdiyi hərəkətin düzgün olmadığını Mətanət xanımın özü də bilir".

Qeyd edək ki, tamaşaçıların gözü qarşında "şpaqat" açan xanım təkcə aparıcı Mətanət Əliverdiyeva deyil. Gənc müğənni Könül Sıxəliyeva da Teleqraf.com-un əməkdaşlarına müsahibə verdikdən sonra "şpaqat" açmışdı. Onun da bu hərəkəti tənqidlə qarşılanmışdı. Müğənni isə onu tənqid edənləri "gözü götürməyən" adlandırmışdı:

"Şəkillərim çıxan kimi çox adam məni tənqid atəşinə tutdu. Bir çox məşhurlar soyunur, pozadan pozaya girirlər, kimsə heç nə demir, mənim adi şəkillərimi isə tənqid edirlər. Məni çoxlarının gözü götürmür. Çünki mən təbii gözələm".

❑ Xalidə GƏRAYEVA


# Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**








# Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34


## Bakıda partlayış oldu, 4 nəfər yaralandı



**Bakıda yaşayış evində baş verən partlayış zamanı 4 nəfər xəsarət alıb. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, hadisə dekabrın 7-də saat 18 radələrində Suraxanı rayonunun Zığ qəsəbəsində baş verib. Qəsəbədə yaşayan Seyran Cahangirovaya məxsus evin zirzəmisində təbii qazın sızmasından yanğına keçən partlayış baş verməsi nəticəsində evə ziyan dəyib, yanıq xəsarətləri alan S.Cahangirov və qohumları Cavid Cahangirov, Cabir Cahangirov və Zamid Hüseynov xəstəxanaya yerləşdiriblər.**

## Binəqədidə iki nəfər dəm qazından öldü

**Dəm qazı daha iki nəfərin həyatına son qoyub. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, dekabrın 7-də Binəqədi rayonu ərazisində yaşayan Çimnaz Şaşayeva və Biləcəri qəsəbəsində yaşayan Qətibə Ələsgərova evində dəm qazından zəhərlənərək ölüblər.**

Faktla bağlı araşdırmalar aparılır.

## Dağ Yəhudiləri İcmasının rəhbərinin evinə basqın edənlər tutuldu

**Daxili İşlər Nazirliyi Dağ Yəhudiləri İcmasının rəhbəri Boris Simanduyevin evinə edilən basqınla bağlı məlumat yayıb. Nazirliyin mətbuat xidmətindən APA-ya verilən məlumat görə, dekabrın 6-da saat 06 radələrində üzlərinə maska taxmış 3 naməlum şəxs qanunsuz yolla Quba rayonunun Qırmızı Sloboda qəsəbəsində yaşayan Dağ Yəhudiləri İcmasının rəhbəri Boris Simanduyevin evinə daxil olaraq onu və bacısı Lizanı soyuq silahla hədələyib müxtəlif dərəcəli bədən xəsarətlər yetirib, mənzildən külli miqdarda pul və qızıl-zinət əşyaları götürərək hadisə yerini tərk ediblər.**

Faktla bağlı Quba Rayon Polis Şöbəsində Cinayət Məcəlləsinin 181.3.2-ci (quldurluq) maddəsi ilə cinayət işi başlanıb.

Cinayətin "isti izlər"lə açılmasını təmin etmək məqsədilə həyata keçirilən təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri və istintaq hərəkətləri nəticəsində hadisəni törədənlər - Eldar Avadyayev, Xalid Seyidov, Türkanə Rəhimova, Turac Vəliyev və Əfqan İbrahimov polis əməkdaşları tərəfindən tutulublar.

Evdən aparılmış pul və qızıl-zinət əşyaları maddi sübut kimi götürülərək istintaqa təhvil verilib.

Faktla bağlı əməliyyat-axtarış tədbirləri davam etdirilir.

## Cəlilabaddakı yol qəzasında iki nəfər öldü

**Cəlilabad rayonunda ağır yol qəzası baş verib. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, dekabrın 6-da saat 22 radələrində Cəlilabad şəhərində rayon sakini Ramil Bayramovun və Masallı rayon sakini Əlisəfa Nurullayevin idarə etdikləri "VAZ" markalı avtomobillər toqquşub.**

R.Bayramov və Ə.Nurullayevin sərnişini - həmyerlisi Nəzi Mehdiyev hadisə yerində ölüb, özü xəstəxanaya yerləşdirilib.

Faktla bağlı Baş Dövlət Yol Polis İdarəsi tərəfindən araşdırma aparılır.

## Sabirabad sakini su kanalında boğuldu

**Sabirabad rayon sakini bədbəxt hadisə nəticəsində ölüb. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, hadisə dekabrın 6-da Sabirabad rayonunun Əhmədabad kəndində baş verib. Kənddə yaşayan Aydın Abdullayev su kanalına düşərək boğulub.**

Faktla bağlı araşdırmalar aparılır.

## Hakimin arvadının maşını "06"nın üstünə çıxdı

**Ağdamda ağır yol qəzası baş verib. "Qafqazinfo"nun verdiyi məlumata görə, rayonun Quzanlı qəsəbəsində baş verən qəzada "Hundai" markalı avtomobillə "VAZ 2106" markalı avtomobil toqquşub. Qəza zamanı "VAZ 2106" markalı minik maşınının sürücüsü və sərnişini ağır bədən xəsarəti alıb. Yaralılar rayon xəstəxanasına yerləşdirilib.**

Qeyd edək ki, "Hundai" markalı avtomobilin sürücüsü qadındır. İlkin ehtimala görə, qadın dönmə əməliyyatını yerinə yetirərkən yolda hərəkətdə olan "VAZ 2106" markalı maşının qarşısına çıxıb. Yerli sakinlərin verdiyi məlumata görə, qadın sürücü Tərtər Rayon Məhkəməsi hakiminin həyat yoldaşıdır. Qadın özü isə Ağdam Rayon Məhkəməsində işləyir.

# "Naxtel" niyə dördüncü mobil operator ola bilmədi?

## Naxçıvan şirkətinə lisenziya verilməsi üçün uzun müddət hazırlıq getsə də, sonda təkliflər rədd edilib

**Beş il ərzində Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən "Naxtel" şirkəti mobil rabitə bazarına girə bilməyib. Belə ki, Naxçıvan ərazisində simsiz rabitə xidməti göstərən "Naxtel"ə mobil operator kimi fəaliyyətə başlaması üçün lisenziya veriləcəyi deyilsə də, nəticə gözlənilən olmayıb.**

Ölkənin mobil rabitə bazarına dördüncü operatorun gəlişi ilə bağlı bir ildən artıq idi ki, söhbətlər yayılmışdı. 2014-cü ilin sonuna qədər şirkətə lisenziya veriləcəyi barədə rəsmilər dəfələrlə açıqlama da vermişdilər. Bir müddət əvvəl muxtar respublikanın Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən bildirilmişdi ki, ilin sonuna kimi lazımi 4G avadanlıqları quraşdırıldıqdan sonra "Naxtel" mobil operator kimi fəaliyyətə başlayacaq. Həmçinin bildirilmişdi ki, "Naxtel" digər mobil operatorlardan fərqli olaraq 4 meqabit/saniyə limitsiz internet verəcək. Yəni digər operatorlar 10 Mbt/S internet verirsə, limit bitəndən sonra sürət aşağı düşür. "Naxtel"də isə abonentlər ay boyunca limitsiz internetdən istifadə edə biləcəklər. Eyni zamanda bildirilirdi ki, mobil rabitə bazarında rəqabət yaratmaq üçün danışıq qiymətləri də digərlərinə nisbətən ucuz olacaq.

Rəsmilər bir neçə dəfə bununla bağlı açıqlama verərək bildirmişdilər ki, "Naxtel" Azərbaycanın bütün ərazisində mobil rabitə xidmətini işə salmaq məqsədilə lisenziya almaq üçün tezliklə Azərbaycanın Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə müraciət edəcək.

**Bir müddət əvvəl rabitə və yüksək texnologiyalar naziri Əli Abbasov da mətbuata açıqlamasında 4-cü mobil operator və lisenziyası barədə danışmışdı. O bildirmişdi ki, "Naxtel"in əsas fəaliyyətini Naxçıvanda görürlər:** "Onların bütün Azərbaycan üzrə şəbəkə qurmağa elə də böyük imkanları yoxdur. Eyni zamanda "Azercell", "Bakcell" və "Nar Mobile" birbaşa əlaqə olmadığından Naxçıvanda fəaliyyət göstərmək üçün 3-cü ölkənin ərazisindən keçirlər. Bu da orada qiymətlərə müəyyən qədər təsir edir. Naxçıvanın blokada şəraitində olduğunu nəzərə alsaq, yeni operatora lisenziyanın verilməsi orada qiymətlərin aşağı düşməsinə və keyfiyyətin yüksəlməsinə öz təsirini göstərəcək". Nazir deyib ki, Naxçıvanda CDMA texnologiyası ilə fəaliyyət göstərən "Naxtel" operatorunun da texnoloji inkişafa hüququ var. O qeyd edib ki, Azərbaycan vahid dövlət olduğu və tezlik vahid tənzimlədiyi üçün "Naxtel"in bütün Azərbaycan üzrə lisenziya almasına ehtiyac yaranıb. Qeyd edək ki, şirkət artıq Naxçıvan ərazisində 4G xidmətinin (LTE) verilməsi üçün lisenziya da alıb.

Əldə etdiyimiz məlumata görə, il ərzində apardığı hazırlıqların sonunda "Naxtel" lisenziya üçün müraciət etsə də, rədd cavabı alıb. Baxmayaraq ki, şirkət hazırlıqları yekunlaşdırmış və bazara girmək üçün uyğun şərtlər, tariflər də irəli sürmüşdü.

**Çoxsaylı bəyanatlardan və vədlərdən sonra "Naxtel"in Azərbaycanın mobil rabitə bazarına girişi qadağan olundu. Bununla bağlı son olaraq Naxçıvanın rabitə və yüksək texnologiyalar naziri Rövşən Məmmədov "Trend"ə bildirib ki, "Naxtel" CDMA standartlı simsiz rabitə operatoru bütün Azərbaycan ərazisində xidmət göstərməyəcək:** "Şirkətin prioritet planı muxtar respublikada LTE şəbəkəsinin yerləşdirilməsidir. Operatorun bütün Azərbaycan ərazisində xidmət göstərəcəyi haqqında gedən söhbətlər həqiqətə uyğun deyil və xidmət, əvvəlki kimi, Naxçıvan Muxtar Respublikasının ərazisində göstəriləcək".

Azərbaycanda 4-cü GSM operatoru olmağa iddialı olan şirkətə birdən-birə "yox" deyilməsi düşündürücüdür. Onun limitsiz internet və digər sərfəli təkliflərdən sonra rədd edilməsi isə sözügedən bazarda kimlərinsə xoşuna gəlməməsi kimi yozula bilər.

❑ RÖYA

# SOS: Tomoqrafiya Xerosimaya bərabərdir?

## Adil Qeybulla: "İndiki halda kompüter tomoqrafiyası müayinə və müalicə vasitəsi olaraq alternativsizdir, amma..."

**Tomoqrafiya müayinəsi zamanı bədənin məruz qaldığı radiasiya Xerosimada atom bombasından xilas olan insanların bədənində olan radiasiyaya bərabərdir. Bu iddia ilə İngiltərə Səhiyyə Nazirliyi çıxış edib. Tomoqrafiyaya sağlam girən hər 50 xəstədən birinin müayinə sonrası xərçəngə tutulduğunu iddia edən nazirlik sağlam insanların tomoqrafiya müayinəsinə qadağa qoyub.**




Qeyd edək ki, tomoqrafiya çəkdirmək osteoporoz, ürək narahatlığı, damar tıxanması və diabet kimi xəstəlikləri əvvəldən təsbit edə bildiyi üçün səhiyyə mütəxəssisləri tərəfindən tez-tez tövsiyə edilir. Ancaq araşdırmalar zamanı bəlli olub ki, bu zaman insan normal bir rentgendən 400 dəfə daha çox radiasiyaya məruz qalır.

İngiltərə Səhiyyə Nazirliyinin hesabatında tez-tez tomoqrafiya çəkdirənlərin bədənlərindəki yığılmış radiasiya səviyyəsinin İkinci Dünya müharibəsində Xerosima və Naqasakiyə atılan atom bombalarından qurtulan insanlarla bərabər səviyyədə olduğu bildirilib.

Çünki adi rentgen bədəni görmək üçün tək bir şüa göndərdiyi halda, tomoqrafiyada daha ətraflı görüntü əldə edilməsi üçün ard-arda daha çox şüa göndərilir.

**Sözügedən mövzu Türkiyə mətbuatının da gündəmindədir. Türkiyəli professor Ahmet Rasim Küçükustanın fikrincə, Türkiyədə bir çox insan sağlam olduğu halda tomoqrafiya çəkdirir, ancaq bunun zərərini gözardı edirlər:** "Xəstəyə "X" şüalarının, yəni radiasiyanın verilməsi xərçəngə səbəb olan amildir. Bunlar bədəndə qalıcı olduğu üçün yox edilə bilmir. Heç bir şikayəti olmayan adamı müayinə etmək üçün tomoqrafiyadan istifadə etmək olmaz. İnsan tomoqrafiya çəkdirdiyi anda xərçəng olmur. Bu xəstəlik 30-40 ildən sonra ortaya çıxır".

**Azərbaycanlı professor, tibb elmləri doktoru Adil Qeybulla da təsdiqləyir ki, tomoqrafiya zamanı bədənin məruz qaldığı şüalanma orqanizm üçün zərərlidir:** "Tibdə rentgen şüalarının tətbiqində yol verilən hədd var. Xəstənin müayinə və müalicəsi zamanı şüalanmanın yol verilən həddi hər zaman nəzarətdə saxlanılır. Kompüter tomoqrafiyası rentgen şüalanmadan daha intensivdir və bub illərlə bədəndə yığılanda ciddi problemlər yarada bilər. Tomoqrafiya şüalanması zamanı xəstə hüceyrələr, iltihablaşma prosesinə, müəyyən regenerativ təsirlərə məruz qalmış hüceyrələrin genomunda hansısa dəyişikliklərin olma ehtimalı yüksəkdir ki, bu da problemlər yarada bilər. Ona görə də kompüter tomoqrafiyası keçmiş xəstələrdə müayinələr arasındakı zaman məsafəsi mütləq nəzərə alınmalıdır. Mən düşünürəm ki, bu məsələ uzun müddət müzakirə mövzusu olacaq. Müəyyən bir alqoritm olmalıdır ki, bu cür müayinələrə məruz qalan xəstələr sonrakı mərhələlərdə qoruyucu prosedurlar keçməlidirlər. Yəqin ki, bu zaman radiasiyanın neqativ təsirləri nisbətən az olar".

**Adil Qeybulla onu da vurğuladı ki, indiki halda kompüter tomoqrafiyası müayinə və müalicə vasitəsi olaraq alternativsizdir:** "Bu səbəbdən ondan tam imtina etmək mümkün deyil. Yəqin ki, alternativi tapılana qədər bundan tibdə istifadə olunacaq. Müəyyən xəstəliklər var ki, onun inkişaf dinamikasını öyrənmək üçün ən azı ayda bir dəfə tomoqrafiya müayinəsi mütləqdir. Bəzən ayda iki-üç dəfə də ola bilər. Ancaq sağlam insanlar üçün bu fasilə bir ildən çox olmalıdır".

❑ Nərgiz LİFTİYEVA



# "Fotoqrafçılıq sahəsini monopoliyaya alıblar"

## "Panoramik" MMC-nin əməkdaşı Elnur Rzayev: "Bizim işimiz yüksək keyfiyyətdə olduğu üçün məktəblərə tövsiyə xarakterli məktublar göndərmişik"

**"Fotoqrafçılıq sahəsini "Panoramik" MMC adlı şirkət öz monopoliyasına alıb. Orta məktəblərdə illərdir biz şəkil çəkirdik. Bu şirkətin də başında Bakı Şəhər Baş Təhsil İdarəsi durur. Məktəb direktorları da "Panoramik" MMC-nin işçilərindən başqa heç bir fotoqrafçını yaxın buraxmırlar".**

Bu sözləri redaksiyamıza müraciət edən Elçin Paşayev, Elşən Ocaq, Rövşən Qədimov adlı fotoqraflar deyiblər. Onlar şikayətçi fotoqrafçıların çox olduğunu, lakin hamısının redaksiyaya gələ bilmədiyini dedilər: "Bakı Şəhər Təhsil İdarəsi məktəblərdə foto sahəsini monopoliyaya almaq məqsədilə özlərinə şirkət qurublar. Bu şirkət də "Panoramik" MMC-dir. Bütün məktəblərə də fotoqraf işlərini bu şirkətlə görmək üçün tövsiyə xarakterli məktublar göndərirlər. Bu şirkət məktəb direktorlarına deyib ki, məktəblərə heç bir fotoqraf buraxmasınlar. Yalnız Bakı Şəhər Təhsil İdarəsindən razılığı ilə "Panoramik" MMC-dən müəyyən adamlar gəlib şəkil çəkəcəklər. Bizim hər birimizin illərdir işlədiyi 4-5 məktəb vardı. İndi bizim heç birimizi o məktəblərə buraxmırlar. Direktorlara deyilib ki, kim məktəbə fotoqraf buraxsa, işdən çıxarılacaq. Bunu bizə məktəb direktorlarının özləri deyib. Bakı Şəhər Təhsil İdarəsi isə deyir ki, biz bu şirkətlə müqavilə bağlamışıq və sadəcə olaraq, tövsiyə edirik. Əslində isə tövsiyə etmirlər, direktorlara əmr edirlər".

**Məsələ ilə bağlı Təhsil Nazirliyinin qaynar xəttinə də müraciət etdiklərini deyən fotoqrafların sözlərinə görə, qaynar xətdən "kommersiya xarakterli foto işini kim ürəyi harada istəsə orada edə bilər" cavabını alıblar:** "Bu iş kommersiya xarakteri daşıdığına görə Təhsil Nazirliyi qarışmır. Amma Təhsil İdarəsi başqa söz deyir. Şəkillərin pulunun yığılmasında da bu şirkət tələskənlik edir. Şəkli çəkdikdən sonra iki gün vaxt qoyurlar ki, pulu yığsınlar. Biz belə etmirdik. Bütün şagirdlər, valideynlər bizim işimizi bəyənir və istəyirlər".

**Məsələ ilə bağlı ittihamda adı hallanan "Panoramik" MMC-nin əməkdaşı Elnur Rzayevlə əlaqə saxladıq. E.Rzayev şirkətlərinin yalnız tövsiyə məqsədi ilə məktəblərə müraciət etdiyini bildirdi:** "Bizim işimiz yüksək keyfiyyətdə olduğu üçün məktəblərə tövsiyə xarakterli məktublar göndərmişik. Şagirdlər fərdi fotoqraflara vinetka hazırlamaq üçün pul verirlər, ancaq çox vaxt vinetka gəlib çıxmır. Biz də, digər şəxslər də öz işlərini aparıb şagirdlərin qarşısına qoyuruq. Baxıb hansının keyfiyyəti yaxşıdırsa, onu alırlar. Kimisə "sən bunu seç" deyə məcbur etmək mümkün deyil".

**Bakı Şəhər Təhsil İdarəsinin Təminat və təchizat sektorunun əməkdaşı Mirdamət İbrahimov şikayətçi fotoqrafların dediklərinin əsassız olduğunu bildirdi:** "Biz təhsil müəssisələrinə "Panoramik" MMC-ni sadəcə olaraq tövsiyə etmişik. Əvvəllər şəkil işinə görə uşaqlardan pul yığılırdı və bu da narazılığa səbəb olurdu. Biz də bunu standartlaşdırmaq üçün münasib qiymətlərlə və yaxşı keyfiyyətlə təklif verdik ki, əgər istəsəniz "Panoramik" MMC şirkəti ilə işləyə bilərsiniz. Amma bu məcbur deyil. Kim hansı fotoqrafla işləmək istəyirsə, işləyə bilər. Bu, qarşılıqlı razılaşma ilə olan bir şeydir".

❑ Günel MANAFLI

YENİ MÜSAVAT

Son səhifə

N 300 (6009) 9 dekabr 2014

# Anakonda alimi yeməkdən imtina etdi

"Discovery Channel"in efirində nümayiş etdirilən eksperiment zamanı ilginc hadisə baş verib. Belə ki, anakonda eksperimenti həyata keçirən alimi "yeməkdən" imtina edib. İri bir ilan tərəfindən yeyilmənin necə bir hiss olduğunu araşdırmaq istəyən alimin adı isə Pol Rozoli olub. Geyindiyi xüsusi kostyum onun sağ və zərərsiz qalmasına yardım edəcəkdi. Amma anakondanı araşdırma qrupu aldada bilməyib. Belə ki, ilan onu yeməkdən imtina edib, sadəcə qolunu və çiynini möhkəm sarıb. "Sarılmalar" möhkəmləndə isə alim özünü ilandan azad edib və eksperimenti dayandırıb. Ötən ilin dekabrında alim təcrübə zamanı bir saat ilanın içində olmağı bacarıb. Bu təcrübə ilə bağlı o, təəssüratlarını belə ifadə edib: "Axırıncı xatırladığım şey ilanın mənim



gözümün qabağında geniş açılan ağzı idi. Ondan sonra hər şey qaraldı".

O, ilanın içindən necə xilas olması barədə heç nə deməyib.



# Ofis işçiləri niyə yorğun olur?

Ofis işçilərinin davamlı olaraq özlərini yorğun hiss etmələrinin səbəbi yuxusuzluq və ya ağır nahar deyil. Bu amillərin müəyyən təsiri olsa da, əsl səbəb oksigen azlığıdır. ABŞ-ın elm adamları ofis və idarələrdə karbonun miqdarının yüksək olması səbəbindən işçilərin özlərini yorğun hiss etdiyini bildirirlər.

Ofisdəki karbondioksidin miqdarı açıq havada olduğundan daha çoxdur. Ventilyasiya sisteminin düzgün qurulmadığı ofislərdə çalışanların tənəffüsü ilə əlaqədar bu nisbət zərərli həddə yüksələ bilir.

Araşdırma zamanı mütəxəssislər ofis, sinif, iclas otaqlarındakı və açıq havadakı karbondioksidin miqdarını ölçüblər. Güman edildiyi kimi, ən sıx karbondioksid iclas otağında qeydə alınıb.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, insan sağlamlığını təhdid etməsə də, yüksək həddə olan karbondioksid insanın beynindəki qərarvermə mexanizmlərinə mənfi təsir edir və yorğunluq yaradır.

# Son 100 ildə kişilərin boyu uzanıb

Avropalı kişilərin boyu son 100 ildə 11 santimetr uzanıb. "Oxford Economic Papers" jurnalında yayımlanan araşdırma 1870-ci illərin əvvəllərindən 1980-ci illərə qədər Avropadakı kişilərin boyunda orta hesabla 11 santimetrlik bir artım qeydə alındığını üzə çıxarıb. Araşdırmaya rəhbərlik edən Esseks Universitetinin professoru Timoti Hatton bildirib ki, 15 Avropa ölkəsində 20-29 yaşlarındakı yüz minlərlə kişinin fiziki xüsusiyyətlərini araşdırıb və deyilən müddətdə kişilərin boyunun orta hesabla 167 santimetrdən 178 santimetrə qədər artdığını üzə çıxarıb. Onun bildirdiyinə görə, ispan kişilər 100 ildə 12 santimetr uzanaraq 163 santimetrdən 175 santimetrə qədər artıblar. İsveç kişiləri isə 10 santimetr uzanaraq 170 sm-dən 180 sm-ə çatıblar.

Alimlər bildirib ki, boyun uzanmasına təsir göstərən faktorlar sırasında adambaşına düşən gəlirin artması, daha təmiz yaşam şərtlərinin olması ilə yanaşı, daha yaxşı səhiyyə xidmətlərinin təmini və sağlam qidalanma da rol oynayır.





# Rusiyada 10-cu "uşaq qutusu"...

Rusiyanın Kirişi şəhərində insanlıq adına böyük ayıb sayılan insanlar üçün yeni aksiya başlayıb. Dünyaya uşaq gətirən, amma ondan imtina etmək istəyən valideynlər üçün "uşaq qutusu" fəaliyyətə keçib. Bu halda valideynlərin kimliyi açıqlanmır və heç bir hüquqi riskə girmirlər. Sözügedən qutu Rusiyadakı 10-cü uşaq qutusu sayılır. Rusiyada isə hər il yüzlərlə uşaq anası tərəfindən tərk edilir. Hökumət hesab edir ki, bu işi daha sivil şəklə salmaq üçün belə qutular mütləqdir. Qutuya hər dəfə yeni uşaq qoyulanda ölkənin Səhiyyə Nazirliyinə bu barədə məlumat verilir. Xatırladaq ki, Rusiya sözügedən təcrübəni Cənubi Afrikadan təsirlənərək tətbiq edib. Orada da valideynləri tərəfindən atılan uşaqlar "uşaq kassaları"na qoyulurdu.




QOÇ - Yaxşı olar ki, bütün vaxtınızı adi işlərin həllinə yönəldəsiniz. Hər hansı risk və ya yeni iş uğursuzluqla nəticələnəcək. Pul sövdələşmələrindən isə ümumiyyətlə kənar durun.

BUĞA - Ulduzların düzümü gün ərzində ovqatınızın xoş olacağını bildirir. Əgər vaxt tapıb müqəddəs ziyarətgahlara baş çəksəniz, daxili sıxıntılarınız da səngiyəcək. Sevgiyə laqeyd qalmayın.

ƏKİZLƏR - İştirakçısı olduğunuz hadisələri özünüzdən yaxşı analiz edən yoxdur. Deməli, gün ərzində külli-ixtiyar öz əlinizdə olacaq. Ulduzlar əksər sahələrdə müdafiənizdə duracaq.

XƏRÇƏNG - Təxminən saat 15-ə qədər gərginliklə baş-başa qalacaqsınız. Ola bilsin ki, ünsiyyətdə olduğunuz bəzi şəxslərlə mübahisələrə də cəlb olunasınız. Bu səbəbdən "qatığa ağ deməyə" çalışın.

ŞİR - Kifayət qədər uğurlu gündür. Planlarınızın əksəriyyəti müsbət müstəviyə yaxınlaşacaq. İşlə bağlı əsaslı dönüşə nail olmaq istəyirsinizsə, nüfuzlu şəxslərlə əlaqələri dərinləşdirin.

QIZ - İşgüzar sövdələşmələr üçün ideal vaxtdır. Çalışın ki, müsahiblərinizin ədalətli rəyi ilə hesablaşasınız. Yalnız bu halda perspektivli gələcək barədə düşünməyə dəyər.

TƏRƏZİ - Müəyyən məsələlərdə özünüzü aldatmayın. Sözlə deyil, əməllərinizlə özünüzə qarşı rəğbət oyadın. Göy qübbəsi bu gün qarşınıza yeni və xeyirxah adamlar çıxaracağını bildirir.

ƏQRƏB - Lovğalıq, özündənrazılıq və hər şeyə qərəzli yanaşmaq sizə başucalığı gətirən deyil. Odur ki, ətrafda olanlarla mülayim və səmimi davranmağa çalışın. Axşama yaxın sevinəcəksiniz.

OXATAN - Ayın ən uğurlu günlərindən birini yaşayacaqsınız. İstər fəaliyyətdə, istər qarşılıqlı münasibətlərdə, istərsə də məhəbbət müstəvisində işləriniz qənaətbəxş olacaq. Özünüzə inanın.

OĞLAQ - Hiss olunur ki, insanlar yavaş-yavaş sizi başa düşməyə meyl edir. Deməli, daxilinizi narahat edən ideyaları açıqlamaq olar. Bu gün yalnız Tanrıya xoş gedən hərəkətlər edin.

SUTÖKƏN - Əsas deviziniz müqəddəs Avestada göstərilən "Xeyirxah Fikir, Xeyirxah Söz, Xeyirxah Əməl" olmalıdır. Gün ərzində Ali Həqiqətə çatmaq üçün məhz bu üç prinsipə söykənməlisiniz.

BALIQLAR - Ulduzların düzümü bu təqvimdə mübahisəli situasiyalara cəlb olunacağınıza işarə edir. Özünüzü qoruyun, çılğınlığınızı cilovlayın. Saat 16-dan sonranı isə bütünlüklə sevgiyə həsr edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Akula 11 min kilometr üzdü və... öldü



Cənubi Uelsdəki Barmut çimərliyinin sahilində akula tapılıb. "The Daily Mail"in yazdığına görə, akula özünü sahilə atıb. Uzunluğu 3 metr olan akula mako cinsinə aiddir. Adətən bu cins Atlantik okeanda, Argentina, Çili və ABŞ sahillərində yaşayır. Onun 11 min kilometr üzərək Böyük Britaniyaya necə çatması hələ də sual altındadır. Ölü akulanı ilk tapan fotoqraf Qvion Liqett olub. Öncə sahildə yaşayanlar akulanın başına yığışıb, suvenir məqsədilə onun dişlərini çıxarıblar. Bir müddət keçəndən sonra isə bioloqlar da hadisə yerinə gəlib. Mako dünyada ən sürətli akula sinfinə daxildir. Onlar bir qayda olaraq dəniz heyvanları ilə qidalanırlar.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zabil MÜQABİLOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 10.565